www.kitabxana.net

Milli Virtual Kitabxananın təqdimatında

"Gənc yazarın e-kitabı"

Nurlan Quliyeva

FATEH

**** Fantastika***

**** Elmi fantastika***

**** Roman, povest və hekayələr***

**** Mənzum təmsillər***

2012

YENİ YAZARLAR VƏ SƏNƏTÇİLƏR QURUMU.
E-NƏŞR N 11 (96 - 2012)

www.kitabxana.net

Milli Virtual Kitabxananın təqdimatında

Bu elektron nəşr Yeni Yazarlar və Sənətçilər Qurumu ilə http://www.kitabxana.net - Milli Virtual Kitabxananın "Gənc yazarların İnternet resurslarında e-kitabla iştirakı təlimi" ("Gənc yazarların maarifləndirilməsi. İnformasiya texnologiyaları istifadəsinin inkişafı" altbölümü) kulturoloji-innovativ layihə çərçivəsində nəşrə hazırlanıb və yayılır.

Elektron Kitab N 11

YYSQ - Milli Virtual Kitabxananın e-nəşri N 11 (96 - 2012)

Kulturoloji layihənin bu hissəsini maliyyələşdirən qurum:

Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi yanında Azərbaycan Gənclər Fondu:

http://youthfoundation.az

NURLAN QULİYEVA

FATEH

Virtual redaktoru və e-nəşrə hazırlayanı: Aydın Xan (Əbilov), yazar-kulturoloq

YYSQ - Milli Virtual Kitabxana. Bakı – 2012

www.kitabxana.net – Milli Virtual Kitabxana

NURLAN QULİYEVA

FATEH

** Fantastika*

** Elmi fantastika*

** Roman, povest və hekayələr*

** Mənzum təmsillər*

Bakı - 2012

www.kitabxana.net – Milli Virtual Kitabxana

YENI YAZARLAR VƏ SƏNƏTÇILƏR QURUMU
ASSOCIATION OF NEW WRITERS AND ARTIST

*"İntellektual, Kulturoloji və **Bədii** Ədəbiyyat Kitabxanası" № 7*

Redaksiya heyəti: Elçin Əfəndiyev, Nizami Cəfərov (sədr), Çingiz Əlioğlu, Nizaməddin Şəmsizadə, Aydın Xan (Əbilov) (məsul redaktor), Arif Əmrahoğlu, Azər Turan, Bəsti Əlibəyli (məsul katib), Elçin Hüseynbəyli, Səlim Babullaoğlu

Bədii redaktor: Aydın Xan (Əbilov), yazıçı-kulturoloq
Korrektor: Günay Şıxəliyeva

Nurlan Quliyeva. «Fateh», Bakı, YYSQ, 2012, 224 səh.

Nurlan Quliyeva "Sirli kainat" və "Riyaziyyatın konstruktiv təlimlə tədrisi metodikası" adlı kitabların müəllifidir. Sayca müəllifin üçüncü kitabı olan "Fateh" fantastik, elmi-fantastik roman və povestdən, bədii, bədii-elmi hekayələrdən, mənzum təmsillərdən, miniatürlərdən ibarətdir. Romanda Dağlıq Qarabağ müharibəsinin acı həqiqətlərindən, əbədiyyəti həyatı bahasına qazanmış insanların həyatından bəhs edilir. Povestdə insan psixoloğiyasi açılır, qəhrəmanlar MƏNləri ilə üzləşirlər. Təmsillərdə isə heyvanların timsalında mərdlik, məğrurluq, zəhmətkeşlik aşılanır. Hekayələrin əsasında müxtəlir hadisələrə yazıçının maraqlı baxışı durur. Riyazi hekayələrdə riyazi anlayışlar bədiiləşdirilir. Şüurları fəth edəcək yeni ideyalar əsasında yazılmış kitab böyük oxucu kütləsinə ünvanlanıb.

Müəlliflik hüququ Azərbaycan Respublikasının qanunvericiliyinə və əlaqədar beynəlxalq sənədlərə uyğun qorunur. Müəllifin razılığı olmadan kitabın bütöv halda, yaxud hər hansı bir hissəsinin nəşri, eləcə də elektron informasiya daşıyıcılarında, İnternetdə yayımı yasaqdır. Bu qadağa kitabın elmi mənbə kimi istifadəsinə, araşdırma və tədqiqatlar üçün ədəbiyyat kimi göstərilməsinə şamil olunmur.

© Nurlan Quliyeva, 2012
©YYSQ – "İKBƏK" seriyası - 2012

www.kitabxana.net – Milli Virtual Kitabxana

www.kitabxana.net – Milli Virtual Kitabxana

FANTASTİK ROMAN

www.kitabxana.net – Milli Virtual Kitabxana

Ağ yol

Əbədi həyat

Sakit bir yaz gecəsi idi. Bədirləmiş ay səmanı nura qərq etmişdi. Birdən göy üzünü qara duman aldı. Ay batdı, ulduzlar tutqun səmada gözdən itdi. Gecə zülmət qaranlığa qərq oldu. Günəşin alovunu əks etdirən üfüq qaralıb tünd qırmızı rəngə boyandı. Təbiət gecənin vahiməsindən qorxub sükuta daldı. Lakin, az keçmiş güclü küləklər əsməyə başladı. Göy üzündəki buludlar arasında çaxnaşma düşdü. İldırımlar çaxdı, göylər şaqqıldadı, leysan yağışlar yağdı. Küləklər ağacların nəmli budaqları ilə kənd evlərinin pəncərələrini döyəclədi. Kənd əhli isə göylərdən gələn xəbərdarlığı təbiətin şıltaqlığı zənn etdib rahat yatırdı. Az keçmiş partlayış səsləri narahat təbiəti yerindən oynatdı. Bomba partlayışından işıqlanan küçələr toz-torpağa qərq oldu. Evlər dağıldı, kənd xarabalığa çevrildi. Küçələr ölmüş, parça- parça olmuş insan cəsədləri ilə doldu. Partlayışdan salamat qalan insanlarsa avtomat və plamiyot atəşinə tutuldu. O qanlı gecədə qışqırıq və fəryad səsləri göylərdə əks-səda verdi. Vəhşiliyə ağlayan Təbiət də nahaq qanı yuya bilmədi. İnsan qanı yağış sularına qarışıb axdı. Torpaq qanlı su içdi.

www.kitabxana.net – Milli Virtual Kitabxana

Basqın olacağı haqqında kəşfiyyat əvvəlcədən məlumat vermişdi. Ordumuz azğın erməni işğalçılarından qorunmaq üçün kənd ətrafındakı mövqelərini möhkəmləndirmiş, gücünə arxalanaraq xəbəri əhalidən gizli saxlamışdı. Lakin... Kənd gülləbarana tutulanda çaşqın insanlar küçələrə çıxdı, qurtulmaq üçün yollar axtardı. Bütün keçidlər isə ermənilərin nəzarətində idi.

Ordumuz müasir silahlarla silahlanmış, xaricdən texnika və canlı qüvvə almış düşmənlə qarşı-qarşıya gəldi. Güclər bərabər olmasa da, əsgərlərimiz qəhrəmanlıqla döyüşdü. Kənddə qan su yerinə axdı. Ağır döyüşlərdən sonra Elşad adlı tank komandiri qərb istiqamətdən mühasirəni yardı. Salamat qalmış əhali güc-bəla ilə kənddən çıxardıldı. Ermənilər zəifləmiş mövqeyə əlavə qüvvələr göndərdilər. Meyitlər, ağır yaralılar və düşmənin diqqətini yayındıran əsgərlər yenidən mühasirəyə düşdülər.

Qardaşı ilə birgə xidmət edən Rəşid də mühasirədə idi. Elşad əsgərlərin mühasirəni yara bilməyəcəklərini görüb fikirləşmədən tankı kəndə tərəf sürdü. Hər iki tərəfdən sıxışdırılan ermənilər darmadağın edildi.

Kəndə çatanda Elşad yoldaşlarına:

- Siz düşün, yaralılara kömək edin! – dedi.

- Tankı tək idarə edə bilməyəcəksən.

- Düşün! – Qışqırdı. – Əmr edirəm, düşün!

Əsgərlər aşağı sürətlə hərəkət edən tanqdan atılıb yaralıları daşıyan əsgərlər ətrafında müdafiə yaratdılar. Yaralılar bombardmandan sonra salamat qalmış maşınlara yerləşdirildi. Kənddən çıxmaq üçün yola düşdülər. Düşmənin zirehli texnikası əks istiqamətdən kəndə tərəf

www.kitabxana.net – Milli Virtual Kitabxana

irəliləyirdi. Onlardan bir neçəsi uzaqlaşmaqda olan maşınların arxasınca düşdü. Elşad fikirləşmədən tankı düşmənin zirehli texnikasının üstünə sürdü. Toqquşma nəticəsində güclü partlayış baş verdi. Alovun şöləsi ətrafa işıq saldı. Odun dilləri yumrulanaraq qızmar kürə şəklinə düşdü. Səmaya qalxıb, üfüqdə gözdən itdi.

Rəşid qardaşının tankla birgə yandığını görüb maşından atıldı. Var gücü ilə qardaşına tərəf qaçdı. Ancaq, az keçməmiş güllələr onu yerə sərdi…

* * * * * * * * *

May ayının əvvəlləri idi. Ətraf gül-çiçəyə qərq olmuşdu. Dağlar nərgizdən don geyinmiş, bənövşələr kolların arasında gizlənmişdi. Havadan gül-çiçək ətri gəlirdi. Belə vaxtlarda Elşad ailəsi ilə birlikdə təbiət qoynunda istirahət edərdi. Cəbhə xəttində vəziyyətin ağırlığına baxmayaraq, o, bu il də bir gününü ailəsi ilə Hacıkənddə və ya Gülazar bulağı ətrafında keçirmək istədi. Mayın ikisi üçün hərbi hissədən icazə istədi. Komandanlıq həmin gün Elşadın ad günü olduğunu nəzər alıb icazə verdi.

Evdə bir gün əvvəl hazırlıq işləri görüldü. Ancaq nədənsə ana qəlbi narahat idi. O, gəlini Leylaya özünü yaxşı hiss etmədiyini deyib otağına keçdi. Çarpayısına uzanan kimi onu yuxu tutdu. Yuxuda dəhşətli döyüş səhnəsi gördü. Alovlanan kənd qaranlıq gecəni qırmızı rəncə boyamışdı. Bomba partlayışları hər tərəfi alt-üst edir, güllə yağışı amansızcasına insanları biçirdi. Kəndin ortasında bir tanq məşəl kimi yanırdı. Ana odda oğlunu gördü. Yaxınlaşmaq

www.kitabxana.net – Milli Virtual Kitabxana

istəyəndə alovun şöləsi Elşadını göylərə qaldırdı. Ana özünü hadisələrin içində hiss edib qaranəfəs yuxudan ayıldı. Gecəyarı olduğundan nə edəcəyini bilmədi. Dəhşəti unudub yatmaq istədi. Hər dəfə gözünü yumduqda oğlunun alovlara qarışaraq göylərə qalxdığını gördü. Səhəri gözüaçıq qarşıladı.

Səhər açıldı. Axşamdan başlayan yağış arasıkəsilmədən yağırdı. Ana bəd xəbər kimi başlarının üstünü alan qara buludlara baxaraq qəlbindən qara qanlar axıtdı. Evdəkiləri qorxutmamaq üçün yuxusundan və hisslərindən danışmadı. Uşaqlar bütün günü pəncərənin qarşısında atalarının yolunun gözlədilər. Ataları gəlmədi…

Səhəri gün ailə Rəşidin hospitalda olması xəbərini aldı.

Səlim cəbhə xəttində baş verən hadisələrdən xəbərdar idi. Oğlanlarının sağ-salamat geri qayıdacağına ümid edib susurdu. Böyük oğlunun yanmasını, ortancılın hospitala düşməsini əvvəlcə ata bildi. Yoldaşına eyni vaxtda iki bəd xəbər verə bilmədi. Ona yalnız Rəşidin yaralandığını dedi.

Zeynəb, hazırlaş gedək!

Nənə uşaqları qorxutmamaq üçün sakit səslə:

- Dünəndən içimi didib-parçalayan bu imiş! – dedi. – Tez ol oğlumun yanına gedək. Yəqin Elşad tək qalıb. Qardaşına necə qulluq edəcəyini bilmir…

- Yaxşı, özünü topla, gedək.

Onlar hospitala çatdıqda Rəşid yenicə əməliyyatdan çıxmışdı. Hələ ayılmamışdı. Zeynəb Elşadı görməyəndə narahat oldu.

- Elşad hanı? Niyə qardaşının yanında deyil?

Səlim otaqdakı əsgərlərə susmağı işarə etdi.

- Cəbhə xəttinə çağırıblar. Hərbiçidi, özbaşına deyil ki!

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Nə deyirəm… Təki sağ-salamat olsun! Allah köməyində dursun!

Rəşidin yarası çox ağır deyildi. Güllə qabırğasının üstünü sıyırıb keçmişdi. Bir neçə gündən sonra vəziyyətə görə həkimlə danışıb xəstəxanadan çıxdı. Vaxt keçirdi. Elşadın külünü dəfn etmək lazım idi.

Rəşid:

- Ana, neçə gündür yanımdasan. – dedi. – Dur, evə get, dincəl! Mən də yoxlanışdan sonra gələcəyəm…

- A bala, nə danışdığını bilirsənmi? Səni belə qoyub dincələ bilərəm! Evə birlikdə qayıdacağıq.

- Yaxşı, ana… - Alovlanıb yanan tank gözləri qarşısında canlandı. - Dərdimizi bölüşərik...

Ana oğlunu başa düşmədi. Ürəyi sancdı.

- Oğul, sağ qaldığına şükür elə! Siz sağ-salamat yanımdasınızsa, dərdim yoxdu…

Səlim xəstəxanada olduqları müddətdə Elşadın ölüm xəbərini anasından gizlətmişdi. Yolda hər şeyi açıb danışmaq istədi. Cəsarət etmədi. Evə çathaçatda Rəşid yaralarından da bərk sızıldayan ürəyini tutub:

- Ana, sənlə danışmalıyıq! – dedi.

- Nə danışmalıyıq? – Zeynəb oğlunun bulud kimi tutulduğunu görüb halbahal oldu. – Nə olub, oğlum!? Məndən nə gizlədirsiz!?

- Qardaşım… - Sözünün arxasını deyə bilmədi. Anasının əllərindən tutub öpdü. – Kaş onun yerində mən olaydım!

Nəzərləri uzaqlarda bir nöqtəyə dikilmiş ana soyuq səslə:

- Oğluma nə olub!? – soruşdu.

www.kitabxana.net – Milli Virtual Kitabxana

Dağ-dağa söykənəndə daha da əzəmətli olurmuş. Oğlanlarını dağ sanan ata oğlunun ölümündən sonra əzəmətini itirmişdi. O, dərindən köksünü ötürdü.

- Deyilənlərə görə, oğlumuz əsl igid kimi ölüb!

- Deyilənlərə görə nədi! – Ana qışqıraraq fəryad qopardı. – Oğlum ölə bilməz. Ölsəydi ana qəlbim hiss edərdi.

Ata və oğul çaşqın halda bir-birinə baxdı.

- Ana, qardaşımın nə ölüsü, nə də dirisi yoxdu. Amma, tankın yandığını hamı gördü…

- Oğlum tankda yandı! – Yuxusunu xatırladı ana. – Yanmadı… Alovun dilləri onu xilas etdi.

- Ana, qurbanın olum, sakit ol!

- Gedək!

Onlar evə çatdılar. Hadisədən xəbər tutan kənd əhli Səlimgilə yığışmışdı. Həyətdə hüzn mağarı qurulurdu. Ana heç kimin üzünə baxmadan sakitcə otağına keçdi. O, yoldaşı Səlimə:

- Oğlum ölməyib! Mağar qurdurma! – dedi. – Oğlumun ölüsünü görməsəm öldüyünə inanmaram!

- Zeynəb, axı o, tankda tamam yanıb, kül olub! Onun ölüsünü necə görə bilərsən!

- Ola bilməz… Mənim sağ-salamat igid oğlum kül ola bilməz! – Ana qəlbləri göynədən bir səslə hönkürüb ağladı. – Qəlbim mənə deyir ki, oğlum ölməyib. Bir qutu külü oğlum hesab edə bilmərəm!

Səlim yanğılı bir ah çəkdi.

- Zeynəb, əzizim, elə itkilər var ki, ölümdən də ağırdı. Bilirsən, yetimliklə böyümüşəm… Atam Boyük Vətən müharibəsində itkin düşüb. Uşaqlıqdan indiyədək onun yolunu

www.kitabxana.net – Milli Virtual Kitabxana

gözləyirəm, hər yerdə axtarıram. Nələr çəkdiyimi bir olan Allah bilir! Həqiqəti olduğu kimi qəbul et!

- Bacarmaram… Onun varlığını hiss edirəm. Siz o külü dəfn edin. Mənsə oğlumun yolunu gözləyəcəyəm!

Həyətdə yas mağarı qurulmadı. Yüngül dəfn mərasimi keçirildi. Külü dəfn etdilər. Zeynəb oğlunun nə vaxtsa qayıdacağını güman edib özünə təsəlli verdi. Ancaq, gözləmədiyi daha böyük bir fəlakət qapısını döydü. Müharibə Rəşidə güllə yarasından da ağır bir yara vurdu. O, sağalmaz əsəb xəstəliyinə tutuldu. Bir oğlunun ölümünü qəbul etmək istəməyən ana, digər oğlunun xəstəliyi ilə barışmalı oldu. Yarımcan dirinin dərdi ona ölünün kədərini unutdurdu.

Səlim xəstə ilə yaşamağın çətin olduğunu görüb nəvələrini və gəlnini öz evinə göndərdi. Kiçik oğluna qardaşının ailəsi ilə yaşamağı tapşırdı. Leyla qayınata evindən ayrılmaq istəmirdi.

- İcazə verin sizinlə qalım! Dərdinizə şərik olaram…

Zeynəb:

- Dərdin özünə bəsdi, qızım! – dedi. – Qayınatan düz deyir. Sən get uşaqlarını böyüt. Gözümüz üstündə olacaq. Arxanda duracağıq, kömək edəcəyik!

- Qızım, Valeh sənin böyük oğlundu. Nə istəyin olsa, ona de! Biz yenə bir ailəyik. Rəşid bizimçün çəkilməz dərddi. Onu xəstəxanaya göndərə bilmərik. Bir valideyn kimi axır nəfəsimizə qədər oğlumuzun əziyyətini çəkmək bizim borcumuzdu.

Leyla ailədə hamıdan çox istədiyi Rəşidin halına acıdı.

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Rəşid mənə doğma qardaşım kimi əzizdi. Onun xətrinə nə desəniz edərəm!

- Sağ ol, qızım!

Rəşid yaraşıqlı, boy-buxunlu gənc idi. Vaxt keçdikcə onun xəstəliyi şiddətləndi, gəncliyi soldu. Böyük klinikalarda müayinədən keçdi. Dərdinə əlac tapılmadı. Lakin xəstəliyin qəribəliyi həkimləri çox təəccübləndirdi. Rəşid özünə gələndə normal adamlardan ağıllı olur, keçmişdə baş vermış bütün hadisələri xatırlayırdı. Bəzən atası ilə elmi işindən danışır, onu yarımçıq qoyduğu üçün heyfslənirdi.

Rəşid universitetin fizika fakultəsini bitirmişdi. Nisbilik prinsipinə aid dəyərli elmi işləri vardı. O, Gövhər adlı tələbə yoldaşı ilə birgə apardığı elmi araşdırmalarda Qalileyin nisbilik prinsipini və Eynişdeyinin nisbilik prinsipini müqayisəli şəkildə təhlil etmişdi. İstənilən ətalət hesablama sistemlərində fizika qanunlarının eyni olduğunu təcrübələrlə izah etmişdi. Yalnız kainatın dərinliklərində bu qanunların ödənməsinə şübhə edirdi. O, hərdən ruh olub səmaya qalxmaq – fikirlərini dəqiqləşdirmək istəyirdi. Belə fikirlərlə tez-tez Gövhərin xətrinə dəyirdi. Onlar iş üçün bir arada olsalar da aralarında dərin məhəbbət vardı. Elmi işə, ağılsız xülyalara görə bir-birini itirmək istəmirdilər. Rəşid sağalmaz xəstəliyə tutulduğunu dərk etdikdə, Gövhərə fikrini yayındırdığını, bir iş görmədən onun elmi işlərinə şərik olmaq istədiyini söylədi. Qız haqsız yerə suçlandığından incidi, Rusiyaya – valideynlərinin yanına getdi.

Rəşidin xəstəliyi beyni qidalandıran hüceyrələrin zəifləməsi idi. Dərdinin əlacı yalnız, fil dişində olan xüsusi zərdabdaydı. Rəşid tapılmayan maddədən hazırlanmış həbləri

www.kitabxana.net – Milli Virtual Kitabxana

ömürü boyu qəbul etməli idi. Dərman tapılmadığından həkimlər başqa müalicə yolu seçdi.

Vaxt keçdikcə, müalicə Rəşidə kömək etmədi. O, günlərlə, həftələrlə koma vəziyyətinə düşdü. Ayılanda qəribə yerləri təsvir etdi. Ruhunun səmada gəzdiyini, Elşadın dumanlıqda yatdığını dedi. Kainatdakı planetlərdən, qalaktikalar sistemindən, gözəl təbii şəraiti, saf varlıqları olan məskənlərdən danışdı. Ətrafındakılar ağlını itirdiyini güman edib ona əhəmiyyət vermədilər.

Rəşid sonuncu dəfə komadan ayılanda anası ilə tək qalmaq istədiyini bildirdi.

- Ana, sənlə danışmaq istəyirəm.

- Danış, bala, səsinə qurban olum!

- Ana, növbəti dəfə ayılmayacağam...

Zeynəbi elə bil ildırım vurdu. Yerindən tərpənə, söz deyə bilmədi.

- Ana bilirəm, sənə çətin olacaq. Dözməlisən... Atamın, ailəmizin xətrinə dözməlisən. Hər dəfə sənin ah-naləni eşidib qayıdıram. Bu dünyada həm cismim, həm də ruhum əziyyət çəkir!

- Can bala! Kaş bütün dərd-bəlan mənə gələydi!

- Ana, özün deyirdin ki, ölüm də bir qismətdi! İmkan ver rahat ölüm!

- Oğul, ölüm mənimdi! Sizlər nə yatdınız ki, nə də yuxu görəsiz! – Ana için-için ağladı. Ürəyindən qara qanlar axdı. – Allahım, günahım nədi! Niyə mənə övlad dağı göstərdin!

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Ana, ölüm həyatın sonu deyil. Bizlər bir formadan, başqa formaya düşərək yaşayırıq. Bütün ruhlar kainatı dolaşır. Xeyirxah ruhlar əbədi həyat qazanır!

- Oğul, danışmaq asandı! Ana qəlbi... – Özünü saxlaya bilməyib ağladı.

- Ana, ağlama! – Ruhu azad olan vaxt gördüklərini xatırladı. – Ana, sən qardaşımın ölümünü qəbul etmədin... Hisslərin səni aldatmamışdı. O, sağdı...

- Haradadı!

- Gələcək, ana... Səbirli ol!

- Mənə təsəlli verirsən, oğlum! – Son on ildə 30-35 yaş qocalmış ana titrək əlləri ilə oğlunun başını dikəldib alnından öpdü. Rəşidin xəstəlikdən arıqlayıb solmuş çöhrəsində xəfif təbəssüm göründü. – Ürəyinə qurban olum, oğul! Niyə belə oldu!

- Qismət beləymış. Mənimki də buraya qədərdi.

- Elə demə...

- Ana, narahat olma. Ruhum kainatda – planetimizdən çox uzaqda olan ayrı planetdə yenidən doğulacaq! Hər dəfə özümdə olmayanda o yeri görürəm!

- Elşad da oradadı!

- Elşad sağdı. O, sağ ikən əbədi həyat qazanıb. O planetdə isə xeyirxah və əbədiyyətə qovuşmuş ruhlar yenidən doğulur. Az vaxtda böyüyür və Allahın verdiyi ikinci həyatı yaşayırlar. Ana, ölüm son deyil!

- Bəsdi! – Zeynəb oğlunun sayıqlamasına dözmədi.

- Ağlımı itirməmişəm... Ruhum cismimin əzabından xilas olmaq istəyir! İzin ver rahat gedim... Axı yazıya pozu yoxdu!

www.kitabxana.net – Milli Virtual Kitabxana

Rəşidin gözləri qeyri-ixtiyari qapandı. Dikəlmiş başı sinəsinə endi. Anasının qucağında can verdi! Zeynəb var-səsilə qışqırıb evdəkiləri çağırmaq istədi. Bacarmadı, səsi tutuldu. İçin-için ağlayıb oğlunu bağrına basdı.

* * * * * * * * *

Elşad yerdən kilometrlərlə uzaqda – atmosferin üst təbəqəsindəki dumanlıqda yad planetlilər tərəfindən hazırlanmış ağ çarpayıda üç gün yatdı. Ayıldıqda ölü, yaxud diri olduğunu aydınlaşdıra bilmədi. Qalxıb ucu-bucağı görünməyən ağ buludların üstü ilə addımladı. Yeridikcə dizə qədər dumana batdı.

Öz-özünə danışırmış kimi:

- Dumanlıqda yalnız ruhlar gəzər. – dedi. Qanlı döyüş səhnəsini, tankda yandığını xatırladı. – Deməli, ölmüşəm! Ruhum səmaya qalxıb! Maddi varlıq olsaydım çəkim olardı. Yer tərəfindən cəzb olunardım. Yıxılardım.

- Oğul, ölməmisən! Biz səni oddan almışıq. Yanmaqdan xilas etmişik. – Ağ saçlı nurani qoca bir neçə cavanla yaxınlaşdı. – Uzərində gəzdiyin dumanlığı biz süni şəkildə yaratmışıq. Təbii olsaydı, çoxdan yıxılmışdın.

- Siz kimsiz?

- Biz yerdən çox uzaqda – kainatın dərinliyində Tanrının möcüzələrindən biri olan möhtəşəm planetin sakinləriyik. Bizim planetdə kainatda əbədi həyat qazanmış varlıqların ruhları yenidən doğulur. Bəzən səmada bizləri görürsünüz.

www.kitabxana.net – Milli Virtual Kitabxana

Ancaq gördüklərinizin həqiqət, yoxsa yuxu oldugunu aydınlaşdıra bilmirsiniz.

- Qəribədi. Ruhlar yenidən doğulur!

- Əlbəttə... Təbiətdə daimi heç nə yoxdu. Heç nə heçdən yaranmır və itmir. Formasını dəyişir. Təbiətdəki bütün varlıqların ruhu var. İnsan ruhunun yenidən insanda olmasının nəyi qəribədi!

- Nagıla oxşayır.

- Ola bilər... Onsuz da insanlar izah edə bilmədiklərini nağıl kimi qəbul edirlər.

- Yəqin mən ölmüşəm ki, sizin nağıllar aləminə düşmüşəm.

- Ölməmisən. İkinci dərəcəli yanıq yarası almısan. Sinəndə və üzündə yanığın izi qalıb.

Elşad əli ilə üzünü yoxladı. Üzü çala-çuxur və qırışmış idi.

- Bu sir-sifətlə ölsəm yaxşıydı!

- Naşükür olma! Tanrı sənə ikinci həyat verib! Xeyli vaxtdı ayılacağını gözləyirik. İstəsən aşağıya – doğmalarının yanına qayıda bilərsən. Vətənini istəməsən səni özümüzlə aparacağıq.

- Niyə mənə görə narahat olursunuz?

- Günahkarıq! Səni xilas etməklə planetinizdə təbiətin qanunlarına, hadisələrə müdaxilə etmişik. Qərarını gözləyirik!

- Belə vəziyyətdə qərar verə bilmərəm!

- Ailən səni ölmüş bilir. Lakin anan öldüyünü qəbul etmək istəmir. İkinci oğlunu itirəndən sonra ona çox çətindi.

- İkinci oğlu kimdi! Qardaşım ölüb!

- Bəli. Rəşid səndən sonra sağalmaz əsəb xəstəliyinə tutuldu. On ilə yaxın əzab-əziyyətlə yaşadı.

www.kitabxana.net – Milli Virtual Kitabxana

Elşad təəccüblə:

- İllərlə yatmışam! – dedi.

- Bizim hesabla üç gün, sizin vaxtla on ilə yaxın.

- Qardaşım ölüb! Haqsızlıqdı! Axı mən ondan ötrü özümü oda atmışdım! –Gözləri önündə anası dayandı. – Yazıq anam, atam... Tanrı onları ağır cəzalandırıb. İki övlad itiriblər!

Çöhrəsı nur saçan qoca əlini Elşadın başına çəkdi.

- Oğul, Tanrı səni yaşatdı! Geriyə ailənin yanına qayıda bilərsən.

- Siz kömək etməsəydiniz indi ölmüş olmalıydım.

- O sənə ikinci həyat verdi!

- Onsuz da mən ölmüş kimiyəm. Kaş qardaşımı yaşadaydı!

- Hərə öz həyatını yaşayır. Qardaşın təmiz qəlbli insan idi. O, qəhrəmanlığı ilə əbədi həyat qazanıb! Bizim planetdə yenidən doğulub.

- Görmək istəyirəm!

- Bizim planetimiz sizin insanların idealıdır. Oranı görüb geri qayıtmayacaqsan. Harada yaşamaq istədiyini dəqiqləşdir.

- Vətən mənimçün hər şeydən üstündür. Qayıdacağam! Amma qardaşımı görməliyəm!

Qoca xeyli fikrə getdi.

- Yaxşı. Oradakı bir gün yerdəki üç ilə bərabərdi.

- Eybi yoxdur. Qardaşımı görmək istəyirəm.

Dumanlıqdan alova bürünmüş kürə şəkilli obyekt çıxdı. Obyekt kürənin böyük çevrəsi boyu iki hissəyə bölündü.

www.kitabxana.net – Milli Virtual Kitabxana

Onlar gümüşü rəngli pilləkənlərlə yuxarı qalxıb dairəvi stolun ətrafında oturdular. Obyekt qapandı. Daxildən ətraf görünsün deyə üst hissə şəffaf rəng aldı. Alov dilləri uzanaraq obyekti kometə – göy cisminə oxşatdı. O bir neçə dəfə Yerin orbiti boyunca dövrə vurub işıq sürətinə bərabər sürətlə Yer planetindən uzaqlaşdı. Məkana catdıqda alov nura çevrilib planetin səthinə səpələndi. Elşadgil işığın üstü ilə səthə endilər. Nurani qoca gənclərə tapşırıq verib ayrıldı.

Kainatın dərinliyində mövcud olan Əbədi Həyat planeti həqiqətən ideal idi. Yaradan buradakı hər şeyi könlünün xoş vaxtında yaratmışdı. Yaşıl bağ-baxçalar, al-əlvan çiçəklər, dupduru sular planetdə göz oxşayırdı. İnsanlar təbiətin qoynuna sığınaraq ona zərər vurmadan yaşayırdılar. Planetin sakinləri süni gözəlliyi yaratmaq üçün bir otun belə xətrinə dəyməmişdilər.

Elşad planeti gəzdikcə gözəllikdən böyük zövq aldı. Quş kimi yüngülləşdi. Bulaqların suyunda öz əksinə baxdı. Üzünü tərtəmiz-əvvəlkindən də yaxşı gördü.

- Bizdə yalnız qəlblərin əksi görünür. - Qocanın səsi eşidildi.

- Qardaşımı görmək istəyirəm!

- Bir azdan onun evinə catacağıq. – Gənc irəlidəki evi göstərdi. – O, qarşıdakı ikimərtəbəli evdə yaşayır. Özü bizi qarşılayacaq.

Elşad gəncin sözlərini zarafat zənn edib hirsləndi.

- Yenicə doğulmuş uşaq bizi necə qarşılayacaq!

- Qardaşınız cavan oğlandı. Burada doğulmuş insan saatla böyüyür. Bir neçə günə gənc yaşına catır. Sonra həyat gec irəliləyir. Burada İnsanlar uzun illər yaşayırlar.

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Bəs ağsaqqal deyirdi ki, bura Əbədi Həyat planetidi. Mən elə bilirdim burada insanlar ölmürlər. Daimi yaşayırlar!

- Təbiətdə daimi heç nə yoxdu. Bizlər Tanrının verdiyi ömrü yaşayırıq. Planetimizdə əbədiyyət Yaradanın insan ağlına sığmayan möcüzələrini bizlərə bəxş etməsidi.

- Qəribədi...

- İgid qardaşım! – Ucaboylu gənc ona yaxınlaşdı. – Sağ olduğunu bilirdim.

Elşad kədərlə qardaşına baxdı. Gülümsəyirdi. Gözləri sevincdən işıq saçırdı. Ona elə gəldi ki, qardaşı burada daha çox xoşbəxtdi.

- Yeni dünyaya xoş gəlmisən!

Qardaşlar uzun illərin ayrılığından sonra həsrətlə qucaqlaşdılar.

- Qardaş, sağ-salamat olduğunu gözlərimlə görməsəydim geri qayıda bilməzdim. Sənin xəstəliyinə və ölümünə mən səbəb olmuşam. Sağ olduğuna əmin olmasaydım özümü bağışlamazdım.

- Burada xoşbəxtəm! Xəstə olarkən, həm cismim, həm də ruhum əziyyət çəkirdi. Özümdə olmadığım vaxtlarda ruhum səmada – sənin yatdığın dumanlığın üstündə gəzirdi. Geri qayıdıb səndən danışırdım, yaşadığını bildirirdim. İnanmırdılar. Sayıqladığımı zənn edirdilər.

- Hər şey mənə görə olub! – Elşad ağır-ağır dilləndi.

- Ele demə, bu qismətdir! Ailəmiz bədbəxtdi. Geri qayıt. Doğmalarımızın həyatını qaydaya sal!

- Qayıdacağam!

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Bizi tanış etmək istəmirsən! – Gənc və gözəl bir qadın əl verib Elşadla görüşdü. – Qardaşınızın həyat yoldaşıyam.

- Deməli, onun gözlərindəki sevginin səbəbkarı sizsiz? O, sizə görə bu qədər xoşbəxtdi?!

- Bilmirəm...

- Bağışla, onun haqqında danışmağa vaxt tapmadım. Evlənmişəm. Evə gedək. Dincəl. – Onlar uşaqlıqda olduğu kimi əl-ələ tutub evə tərəf getdilər.

- Bu gün dincəlmək istəmirəm. Mümkündürsə, planeti gəzək. Buradakı insanlarla, onların həyat tərzi ilə tanış olmaq istəyirəm.

- Mümkündür. – Gəlin cavab verdi.

- Biz axşam gələcəyik. – Gənclər sağollaşıb getdi.

Rəşid qardaşına maşına oturmağı təklif etdi. Maşın kiçik kosmik raketə bənzəyirdi. Raket bəzən yolla, bəzən hava ilə hərəkət edərək planetdə dövrə vurdu. Planetdə Elşadın ilk nəzərinə çarpan gözəl təbiət, sadə tikililər oldu. O sonra insanlara yaxın olmaq üçün şəhəri piyada gəzdi. Heç bir yerdə boş və ya faydasız işlə məşğul olan adam görmədi. Hərə öz işi ilə məşğul idi. Planetdə bolluq və firavanlıq idi. Mağazalardakı mallar, yeməkxanalardakı yeməklər pulsuz idi.

Elşad marağını gizlədə bilməyib soruşdu:

- Bu necə olan işdi! – dedi. – Nə yaxşı, cəmiyyətdəki tarazlıq pozulmur?

- Qardaş, burada pul rol oynamır. Tanrı qarşısında hamı eyni olduğu üçün cəmiyyətdə insanlara fərq qoyulmur. Hərə öz bacardığı işlə məşğul olur. Tələbatından artıq heç nə istəmir.

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Qəribədir... Ölüm ayağında da var- dövlətdən gözü doymayan insanların nəfsini boğması əsl möcüzədir.

- Buranın insanları seçilmişlərdir.

- Bilirəm. Bəs bədxah adamların ruhu necə olur?

- Qara fikirlər o ruhları ağırlaşdırır. Yüksəkliyə qalxa bilmirlər. Onlar əsasən planetlərarası fəzada elektromaqnit dalğalarının və kosmik şüalanmanın təsiri nəticəsində məhv olurlar.

- Deməli, həyatı sağ ikən qazanmaq lazımdı!

- Doğrudu, sən öz dünyanda bu dünyanı qazanmısan!

Axşam oldu. Ayrılıq vaxtı yetişdi. Elşadı evə qaytaracaq adamlar gəldi. Qardaşlar sonuncu dəfə qucaqlaşıb ayrıldılar.

Rəşid kədərli səslə:

- Get doğmalarımızı xoşbəxt et! – dedi. – Mən onlara çox əziyyət verdim. On il mənim zülmümü çəkdilər.

- On il!

- Hə, qardaşım, buradakı bir gün yerdəki bir neçə ilə bərabərdi.

- Hə, yadıma düşdü. Ağsaqqal demişdi. - Kənarda dayanıb onu gözləyən adamları nəzərdən keçirib: - Bu adamların xeyli yaşı olmalıdı. – dedi. – Sizlərin arasında mənim kimi – başqa planetdən gətirilmiş adamlar varmı?

- Yox, biz seçilmişlərik. Sizin qəhrəmanlığınıza heyran olduğumuza görə kömək etdik. İstəsəniz bizimlə yaşaya bilərsiz.

- Planetinizdə həyat gözəldi. Ancaq, mən yalnız öz vətənimdə xoşbəxt ola bilərəm. – Qardaşının həsrətlə

www.kitabxana.net – Milli Virtual Kitabxana

baxdığını görüb köksünü ötürdü. – Qardaşım, səni xoşbəxt gördüyümə çox sevindim. Həyatda hər şeyin sonu var. Ayrılmalıyıq. Sağlıqla qal!

- Uğur olsun! – Gözləri yaşardı. – Tanrı istəsə yenə görüşəcəyik!

- Artıq vaxtdı. Elşadı xəstəxanada gözləyirlər. – Səmadakı parlaq ulduzu müşahidə edən yaşlı kişi onları tələsdirdi.

- Xəstəxanada?! – Elşad evə qayıdacağını fikirləşdiyindən təəccüblə soruşdu. – Məni evimə aparmırsınız?

- Evinə xəstəxanadan gedəcəksən. On üç ildən sonra heç nə olmayıbmış kimi evinə qayıda bilməzsən. Harada yaşadığının izahı olmalıdı.

- Nə fikirləşmisiz?

- Həqiqətə yaxın uydurma.

- Sizlərə yaraşmır.

- Həqiqət səni məhv edər. İnsanlar tərəfindən başa düşülməzsən. O dünyaya gedənlər geri qayıtmırlar.

- Doğmalarıma yalan danışacağam?

- Hə. Sən keçmişini xatırlamayan və üzündə plastik əməliyyat aparılacaq xəstə kimi Amerika xəstəxanalarından birində yerləşdiriləcəksən.

- Amerikada!

- Orada doğmaların yaşayır. Görüşməlisiz.

Elşad Amerikada qohumları olduğunu bilmirdi. Soruşub öyrənməyə macal tapmamış Rəşid əlini sıxıb:

- Get, qardaşım! – dedi. – Get real dünyada yaşa! Sən hələ sağsan. Mənim kimi ölüb təzədən burada doğulmamısan. Bil ki yüz ilin ölüsündən bir günün dirisi yaxşıdı!

* * * * * * * * *

www.kitabxana.net – Milli Virtual Kitabxana

Zeynəb Rəşiddən sonra uzun müddət özündə olmadı. Oğlunun qucağında ölməsi onu möhkəm sarsıtdı. Bədbinləşdi. Həyatdan küsdü. Bir otağa çəkilib tənha həyat yaşadı. Bəzən saatlarla, günlərlə nəzərlərini bir nöqtəyə dikib dinməz otururdu. Heç kimi, hətta kiçik oğlu Valehi də görmək istəmirdi. Səlim onun xəstələnəcəyindən ehtiyat edib ailəni bir yerə yığdı. Evdəki boşluq yenə dolmadı. Zaman keçirdikcə ailənin dərdi böyüdü, ananın vəziyyəti gündən-günə ağırlaşdı. Valeh isə vəziyyətə görə təhsilini yarımçıq qoymalı oldu.

Səlim böyük arzularla yaşayan oğlunun taleyinə acıdı.

- Oğlum, təhsilini davam etdir. Ananın yanında mən varam. Hərdən gəlib baş çəkərsən.

- Yox, ata, getməyəcəyəm. Getsəm gələ bilmərəm.

- Niyə!

- Təhsilimi Amerikada davam etdirmək istəyirəm.

- Buranın təhsilini bəyənmirsən? – Zeynəb narazılıqla dilləndi. – Səni ki bu səviyyəyə öz təhsilimiz çatdırıb! İndi böyümüsən?

- Yox, niyə ki! Bəyənirəm. Ana, mənə iqtisadiyyatı yaxşı inkişaf etmiş ölkə lazımdır. İqtisadiyyatın müxtəlif sahələri üçün riyazi modellər quracağam. Amerikada riyazi iqtisadla məşğul olan məşhur universitetlər var.

- Gedirsən get! Qayıdanda ananı ölmüş görəcəksən.

Səlim Zeynəbin qəlbini ələ almaq istədi.

- Ay Zeynəb, qocalı-qarılı yaşayacağıq. Uşağı sıxma. Qoy təhsilinin dalınca getsin.

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Nə deyirəm! Yolu açıq olsun. – Dərindən nəfəs aldı. – Mənə bu dünyada oğul qismət deyilmiş!

- Elə demə. Allaha ağır gedər!

Zeynəbin gözləri yol çəkirmış kimi uzaqdakı bir nöqtəyə dikildi.

- Kaş Elşadın qayıtdığı günü görəydim.

Səlim təsəlli verməkdən, reallığı izah etməkdən bezdiyindən susdu. Xəyalları onu səmaya qaldırdı. Dumanlıqda oğlanlarının simasını gördü. Gözləri yaşardı.

Ürəyində səssizcə xəyallarına pıçıldadı:

- İgidlərim, atanızın ürəyi daş deyil! Sadəcə sevdiklərini dəfn etdiyi məzarlıqdı! Sizi əllərimlə dəfn edib sağ olduğunuzu güman edə bilmərəm!

* * * * * * * * *

Elşad Amerikanın Texas ştatında plastik əməliyyatla məşğul olan məşhur bir klinikada yerləşdirildi. Ona ikinci dərəcəli yanma diaqnozu qoyuldu. Dərisi kələ-kötür hala düşmüş, üzü və boynu qırışıb eybəcər şəkil almışdı.

Həkimlər müayinədən sonra qonşu otağa keçdilər. Elşad qarşısındakı güzgüyə baxaraq həkimlərin mübahisəsinə qulaq asdı. Yerli həkimlər yaraların dərin olduğunu, müalicənin mümkünsüzluyunu deyirdilər. Onu xəstəxanaya gətirən "xilaskar"lar isə dərhal əməliyyata başlamağı məsləhət gördülər...

Yad planetli ona yaxınlaşıb:

- Narahat olma, yaxşı olacaq! – dedi. – Əməliyyatda biz də iştirak edəcəyik.

- Necə?!

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Gözə görünmədən. Bu əməliyyatı onlar bizsiz apara bilməzlər. Özümüz gedəcəyik. Ruhumuz onların beyni, gözü, əli olacaq!

- Məni Amerikaya necə gətirmisiz? Mən biləni, yolda ciddi yoxlanış olur.

- Bu bizim sirrimizdi.

- Sizin planetinizdə hər şey gözəl idi. Güzgü eybəcərliyimi göstərmirdi.

- Bizdəki həyat sənin üçün xəyal idi. Xoşniyətli insan olduğundan yalnız xoş xəyallar gördün. Amerika həyatı da qeyri-adidi. Bəyənəcəksən.

- Amerika inkişaf etmiş ölkədi. Gözəl ola bilər. Vətənim Azərbaycana çata bilməz!

- Hərəyə öz vətəni şirindi.

Amerikanın ücqarı hesab edilən Texas ştatındakı klinika bəlkə də, Avropanın məhşur klinikalarından üstün idi. Burada rahat gözləmə zalı, müayinə və müalicə üçün müasir, yüksək səviyyəli maddi-texniki baza vardı. Klinikada qeyri-adi rəsmiyyət hökm sürürdü. Həkimlər xəstələrlə demək olar ki, ünsiyyət qurmurdular. Xəstələr ümümi zalda gözləyirdilər. Vaxtaşırı tibb işçiləri xəstələrə yaxınlaşıb onları lazımı yerə aparırdılar. Gözləmə zalındakı insanlar arasında isə tam fərqli münasibət vardı. Elşadın soyuqqanlı hesab etdiyi amerikalılar bir-birinə qarşı mehriban və qayğıkeş idilər.

Yaxınığındakı ailə onun diqqətini daha çox cəlb etdi. Onlar öz aralarında bəzən azərbaycanca danışırdılar. Elşad doğmalarını tapmış kimi sevincək onlara yaxınlaşdı.

- Siz azərbaycanlısınız?

www.kitabxana.net – Milli Virtual Kitabxana

Təqribən iyirmi yaşında olan gənc və gözəl bir qız sevinclə ona baxdı. Elşad sifətinin eybəcərliyindən utanıb üzünü yana çevirdi.

Qız heç nə görməyirmiş kimi:

- Siz də azərbaycanlısınız? – soruşdu.

- Hə. Danışığınızı eşitdim...

- Şadam! Babam azərbaycanlı idi. Biz amerikalı olsaq da qəlbimiz Azərbaycanla döyünür!

Qızın sözləri Elşadı çaşbaş saldı. O, bilmədi qarşındakı azərbaycanlıdı, yoxsa, amerikalı. Qızın Amerikada doğulub, amerikan adət-ənənəsini gördüyünü nəzərə alıb onu anlamağa çalışdı.

- Özünüzü amerikalı hesab edə bilərsiniz. Əslində damarlarınızda azərbaycanlı qanı axır.

- Əlbəttə... – Qız arxaya çevrilib anası ilə nəsə danışdı. – Sizi atamla tanış etmək istəyirəm. O, həmvətənlisini görsə sevinəcək.

- Yox, sağ olun!

- Atamla görüşmək istəmirsiniz!

- Belə vəziyyətdə...

- Sizə nə olub ki! Sağalacaqsız. Burada daha ağır xəstələr müalicə olunur.

Elşad əməliyyatı bəhanə etdi.

- Məncə vaxt çatmayacaq. Əməliyyat keçirməliyəm.

Söhbətin axırını gözləyən həkim onlara yaxınlaşdı.

- Əməliyyat səhər tezdən olacaq. Get.

- Bəhanəniz qalmadı. – Qız atasına zəng vurdu. Xəstəxanada həmvətənlisini tapdığını bildirdi. Az keçmiş orta yaşlı, gülərüz bir kişi onlara yaxınlaşdı. Elşad kişini gördükdə donub yerində qaldı. Qarşısındakı atası idi.

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Ata, – deyib onu qucaqlamaq istəyirdi ki, qız kişinin qoluna girdi.

- Ata, ellindi!

- Şadam. – Onlar doğma insanlar kimi görüşdülər. – Sə-lim.

- Elşad.

- Ailəmlə tanış olmusan?

- Yox.

- Belə olmaz. – Narazılıqla qızına baxdı.

- Ata, imkan olmadı. Azərbaycanlı olduğunu bildikdə özümü itirdim.

- Eybi yoxdu. Bu mənim qızım Əslidı. Atam anasının adını qoyub. Valid həyat yoldaşımdı. Yeniyetmə isə oğlum Azərdi.

- Yaxşı... – Elşad atası ilə Səlimin oxşarlığından və Əsli adından şübhələndi. Fikrindən əhəmiyyət vermədiyi "Ame-rikada qohumlarınız yaşayır. Görüşəcəksiniz…" sözləri keç-di.

Öz-özünə danışırmış kimi:

– Bu qədər təsadüf olmaz. – dedi. - Bəlkə, bu ailə ikinci dünya müharibəsində itkin düşmüş babamın ailəsidi! Səlim atamın qardaşıdı!

- Gedək qonağımız ol! Bizə Azərbaycandan danış.

Elşad nə danışacağını bilmirdi. Aradan illər keçmişdi. O, od-alov içində qoyduğu vətəninin indi necə olacağını tə-səvvür etmirdi.

- Eşitməklə vətəninizi tanıya bilməzsiniz. Qayıdanda sizi cağıracağam. Gəlib özünüz görərsiniz.

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Yaxşı fikirdi. Atamın arzusu idi. Oradakı ailəsinin sürgün ediləcəyindən qorxub heç vaxt arzusunu dilinə gətirmədi. Axı atam ikinci dünya müharibəsində əsr düşmüşdü.

- Atanızın ailəsi haqqında danışarsınızmı?

- Bildiklərimi dedim. Bir də evdə köhnə fotoşəkil var. Atam cəbhə boyu o şəkili özü ilə gəzdirib. Gedək göstərim. Bəlkə qohumlarımızı tanıdın. Onları tapmaq çoxdankı arzumdur.

Maraq güc gəldi, Elşad görkəmini unudub onlarla getdi. Küçələr boş idi, əhali əsasən, maşınlarla gəzirdi. Müəyyən obyektlərin qarşısında böyük dayanacaqlar vardı.

Səlim işi olduğunu söyləyib böyük supermarketin qarşısında dayandı. Çantanı götürüb:

- Elşad, sən də düş! – dedi. – Birgə gedək.

- Yaxşı.

Səlim yarıyacan dolmuş çantanı supermarketdən doldurdu. Satıcının soyuqqanlılığı Elşadı təəccübləndirdi.

- Niyə köhnə aldıqlarınızın üstünə yığdınız? Satıcı bilməyəcək.

Səlim gülümsədi. Satıcıya yaxınlaşıb yeni yığdığı ərzaqları çantadan çıxartdı. Qiymətlər hesablandı, pul kassaya keçirildi. Qeyri-adi inam Elşada qəribə gəldi. Supermarketə diqqətlə baxdı. Hər tərəfdə kameraların işlədiyini gördü. "İnamın sirri bu kameralarda olmalıdı. Yəqin Tanrıdan gizləndiklərini zənn edib bəd əməllərlə məşğul olanlar bu kameralardan yayınanmayacaqlarını bilirlər."

Evə gəldilər. Elşad fotoşəkilə baxdı. Gözlərinə inanmadı. Şəkildəkilər babasının ailəsi idi…

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Biz qohumuq! – Səsi titrədi. – Qohumdan da yaxınıq. Əmimsiniz.

Sevincdən Səlimin gözləri yaşardı. Elşadı qucaqlayıb alnından öpdü.

- Qardaş oğlu! Atam sizləri çox istəyirdi. Sizə zərər verəcəyindən qorxub sonralar da sağ olduğunu bildirmədi.

- Atam bütün ömrü boyu atasını axtarıb. Beynəlxalq təşkilatlara qədər müraciət edib. Babam isə...

- Oğul, atamı günahlandırma! Qismət belə imiş. Qadaşımı Amerikaya çağıraram. Tanış olarıq, babanın qəbrini ziyarət edərik.

- Əməliyyatdan sonra çağırarsınız. Məni bu vəziyyətdə görmələrini istəmirəm.

Elşad səhəri gün əməliyyat keçirdi. Üzünün yanmış dərisi yaramadı. Görkəminin dəyişməsini istəmədiyindən əməliyyat uzun çəkdi. Həkimlər onun üzü üçün bədənindəki sağlam dəridən istifadə etdilər. Əməliyyat uğurlu keçsə də, o, yuxudan ayılmadı. Günlərlə, həftələrlə yatdı. Səlim lazımı yerlərə müraciət edib qardaşının ailəsini tapdı. Vəziyyəti izah edib onları Amerikaya çağırdı.

Zeynəb artıq ağır yataq xəstəsi idi. Oğlunun sağ olduğunu eşitdikdə möcüzə baş verdi. O, yataqdan qalxıb Elşadın görüşünə hazırlaşdı. Səlim az vaxtda lazımi sənədləri hazırladı. Amerika xəyalı ilə yaşayan Valeh də ata-anasına qoşuldu. Onlar İngiltərəyə, oradan da Amerikaya uçdular.

İlk təəsürat Valehin xəyallarını alt-üst etdi. O, xəyallarında yaratdığı varlı və qaynar həyatlı Amerika əvəzinə sadə, küçələri boş bir ölkə gördü.

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Ata, bəs kinofilimlərdəki, siyasi aləmdəki Amerika hanı?

- Oğul, gördüyümüz sadə, çoxmillətli amerikalılardır. Biz pərdə arxasını görmürük.

- Qəribədi. Sadə Amerika daha gözəldi. İnsanları xoşbəxt və qayğısızdır.

Səlim oğlunun burada yaşamaq istədiyini bildiyindən:

- Qayğısız yaşamaq üçün mübarizə aparmaq lazımdır. – dedi. – İnsan öz vətənində xoşbəxt olur. Qərib həmişə vətən həsrəti çəkir, gözlərindəki sevinc niskilə çevrilir.

Valeh susdu. Atasının sözləri onu qorxutdu.

Elşad sanki, doğmalarının gəlişini gözləyirdi. Onların Amerika torpağına ayaq basdıqları gündən vəziyyəti yaxşılaşmağa başladı. Əvvəlcə yuxulu vəziyyətdə danışdı və bir gündən sonra gözlərini açdı. Zeynəb oğlunun ayıldığını görüb sevincindən ağladı. Elşad qalxıb anasının ağ saçlarından, qocalmış əllərindan öpdü.

- Bağışla ana! Tez gələ bilmədim.

- Bilirəm, deyirlər uzun müddət huşunu itirmisən. Özündə olmamısan. Keşmişini xatırlamamısan.

- Düzdür... – Elşad yad planetlinin sözlərini xatırlayıb olub keçənləri danışmadı.

- Sağ olduğunu hiss etmişdim. Qardaşın da deyirdi.

- Ana qəlbi yanılmaz! – Səlim uzun illər onun sözlərinə inanmadığına indi peşman olmuşdu. – Zeynəb sənə inanmadığıma görə bağışla.

- Allah bağışlasın, inanılası deyildi.

- Ata, başıma gələnlər həqiqətən inanılmaz idi. – Ata-oğul görüşdülər.

- Qardaş mənimlə görüşmək istəmirsən?

www.kitabxana.net – Milli Virtual Kitabxana

Elşad qarşısındakı gənci səsindən tanıdı.

- Valeh, sənsən? Neçə də dəyişmisən, böyümüsən.

- Dillənməsəydim, tanımayacaqdın?

- Baxışlarından, qaş-gözündən tanıyacaqdım.

Səlim qururla oğlanlarına baxdı.

- Elşad, artıq oğlanların böyüyüb. Yeniyetmə gənclər olub.

- Təəssüf ki, mənsiz böyüdülər. Sizlərə çox əziyyət verdilər!

- Yox, oğul. Biz onlara görə yaşamağa güc tapdıq. Leyla da yaxşı ana, namuslu gəlin oldu. Əl-ələ verib yaşadıq.

Elşad yarıyolda tək qoyduğuğu qadınına etibar edirdi. Ondan xoş sözlər eşitdiyinə sevindi.

- Sizləri bir arada sağ-salamat gördüyümə şadam. Həqiqətən doğmalarsız həyat heç nə imiş.

- Oğul, qardaşın bizi çox incidir. – Zeynəb şikayətləndi. – Amerika xülyası başından çıxmır.

- Ana, bəsdi. – Valeh hirslənib otaqdan çıxdı.

- Ana, narahat olma. O, sizin oğlunuzdu. Damarlarında azərbaycanlı qanı axır!

- Amerikada yaşamaq istəyir.

- Cavandır. Xəyalpərəstdir. – Elşad yuxarıdakı dünyanı xatırladı. – Vətənimiz bizim üçün əvəzedilməzdi, cənnətdi!

Səlim:

- O, ingilis dilini yaxşı bilir. – dedi. – Amerikan ədəbiyyatını oxuyur. Ölkənin kitablardakı obrazına vurulub.

- Ona vaxt verin. Amerika yuxarıdakı planet qədər gözəl ola bilməz. Orada da insan vətəni, doğmaları üçün darıxır.

www.kitabxana.net – Milli Virtual Kitabxana

Səlim oğlunun nə dediyini başa düşmədi. Zeynəb isə Rəşıdın sözlərini xatırladı.

- Qardaşın göylərdəki dünyada yaşayacağını deyirdi. Görəsən indi xoşbəxtdirmi?

- Xoşbəxtdi. – Elşad sirri açacağından qorxub söhbəti dəyişdi. – Ata, qardaşınla görüşdünmü?

- Görüşdüm. Çiyinlərimdən illərin ağırlığı götürüldü. Ürəyim yüngülləşdi.

- Əmimin ailəsi ilə xəstəxanada rastlaşdıq. Qan çəkdi, yaxınlaşıb tanış oldum. Əmiqızı azərbaycanlı olduğumu bilən kimi atasını çağırdı. Evlərinə getdim. Babamla çəkdirdiyiniz ailə şəkilinizi onlarda gördüm.

- Bilirəm, oğul, qardaşım danışıb. Sən özünü yorma. Dincəl. Axşam yola düşməliyik.

- Ata, bəlkə, bir az qalasan. Qardaşınla yaxından tanış olarsan.

- Sağlıq olsun! Əvvəlcə səni ailənə çatdırmalıyam. Gözləyirlər.

Valeh əmisi qızı Əsli ilə əl-ələ tutmuş vəziyyətdə otağa daxil oldu.

- Ata, Əsli də bizimlə getmək istəyir.

- Yaxşı, çox yaxşı. Baba yurdunu görməyə haqqı var.

Əsli Elşadla görüşüb zarafatyana:

- Əmioğlu, çox yaraşıqlısınız. – dedi. – Burada qalsanız, qadınlar sizi oğurlayacaqlar.

Əslinin əhvalındakı qəribəlik Elşadın nəzərindən yayınmadı.

- Əmiqızı sən Valehi qoru!

Əsli qızardı. Yola hazırlaşacağını bəhanə edib getdi. Valeh gülümsəyərək razılıqla başını tərpətdi.

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Əslini yola salım...

Zeynəb illərlə öz aləminə qapılmışdı. O, sanki yuxudan ayıldı. Aradakı söz-söhbətdən şübhələndi.

- Səlim nə baş verir?

- Oğlumuz eşqə düşüb.

- Nə! Başı xarab olub! Biz hara, bura hara?

- Sevgi sərhəd tanımır ki!

Zeynəb oğlunun qıza bağlanıb Amerikada qalacağını fikirləşdi.

- Niyyətin hara, mənzilin ora! Onsuz da Amerikada yaşamaq istəyirdi.

Valeh portmüş vəziyyətdə içəri girdi.

- Ana, niyə məni başa düşmək istəmirsiz! Xaricdə təhsilimi davam etdirib vətənimə qayıdacağam. İşimi daha mükəmməl bilmək, uğur qazanmaq istəyirəm. Məgər mənim uğurum vətənimin uğuru deyil!

- Əvvəlcədən belə aydın danışa bilərdin.

- Buradakı həqiqətləri görməmişdim.

- Hansı həqiqətləri?

- Babamın, əmimin həqiqətlərini. Onlar həyatda hər şey qazanıb vətənlərini itiriblər. Babam yurd həsrəti ilə ölüb, əmim nisgillə yaşayır, özünü bədbəxt sayır. Sizcə, mən böyük məhəbbətlə sevdiyim, könül xoşluğu tapdığım vətənimi rahat yaşayışa dəyişərəmmi?!

Səlim oğlunun sualına məsəllə cavab verdi.

- Oğul, vətənsiz insan köksüz ağaca bənzəyir! Tez məhv olur. Ağac torpaqdan qida alıb böyüdüyü kimi, insan da el-

www.kitabxana.net – Milli Virtual Kitabxana

obasından, vətənindən güc alır. Arxaya çevrilib heç kimi görməsən, nə uğur qazana, nə də irəli gedə bilərsən!

Zeynəb söhbətin bu cür sonluqla yekunlaşdığına sevindi. Allaha şükürlər etdi!...

www.kitabxana.net – Milli Virtual Kitabxana

Virtual sevgi

Kəndə çatanda dan yeri sökülürdü. Elşad maşından düşüb göyləri seyr etdi. Kainatın dərinliklərinə doğru uzanan Ağ Yolda səma insanına cevrilmiş qardaşını axtardı. Səmada tüğyan edən narahat ruhları gördü. Son döyüşünü xatırladı. Özünü alovda yanırmış kimi hiss etdi. Vahiməli qışqırıq səsləri eşitdi.

- Dəhşətli gecə idi! – söylədi.

Ana:

- Kədərlənmə, oğul! – dedi.

- O gecə təbiəti alov bürümüşdü...

- Bilirəm, yuxuda görmüşdüm. – Köksünü ötürdü. – O gecə sizi məndən aldı.

Elşadın ölümü əfsanə, qayıdşı möcüzə idi. Onu görmək istəyən kənd əhli axşamdan yolunu gözləyirdi. O, dost-tanışla görüşüb başına gələnləri qısa nəql etdi. Lakin, nə uzun illər yatdığı dumanlıqdan, nə də qardaşının yaşadığı cənnətəbənzər planetdən danışmadı. Döyüşdən sonra heç nə xatırlamadığını dedi.

Kənarda dayanan iki yeniyetmənin yaxınlaşmaq istədiyini görüb ürəyində:

- Oğlanlarım olmalıdırlar! Necə də böyüyüblər! – dedi. - Mətn, Vüsal sizsiniz!

- Hə, ata! – Mətn atasını qucaqladı. – Mən Mətnəm. O, qardaşım Vüsaldı. Xoş gəlmisiniz! Həmişə qəlbimizdə idin. Yanımızda olmağın çox xoşdu.

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Sağ olun, əzizlərim! Bilmirəm sizsiz necə yaşamışam...

- Əsas odu ki, yaşamısız! Qayıtmısız... – Vüsal dilləndi.

- Qayitmaya bilməzdim. – Oğlunu başdan-ayağa süzdü. – Balaca dələduzum, heç dəyişməmisən. Nənənin tumanında gizlənirdin. İndi neyləyirsən?

- Qızların arxasınca gəzir.

- Ata, indi camaat tuman geyinmir. Hamı şalvardadı. Nənəm də çoxdan miniyə keçib.

- Eləmi!

- A bala, sarsaqlama! – Zeynəb nəvəsinə acıqlandı. – Boş-boş danışmaqdansa kömək et!

Zeynəb 13 il əvvəl hərbiçilərin gətirdiyi külü qəbul etməyib "Oğlum bir qutu kül ola bilməz!" demişdi.

İndi:

- Səlim, bir toy mağarı qurdur. – dedi. - Oğlumuz sağdı... Amma həyətdə yox bağçada olsun... – Kədərlə Rəşidin yas mağarı qurulan yerə baxdı. Gözləri dolmuş oğlunun – Rəşidin narazı baxışları ilə rastlaşdı.

- Elə olmaz Zeynəb!

- O da sən deyəni demək istəyir. Bildiyin kimi et.

Elşad şənlikdən sonra öz evinə getmək istədi.

- İcazə versəydiniz evimizə köçərdik.

- Getməsəydin yaxşıydı... – Zeynəb həsrətlə dilləndi.

- Uzaq getmirəm. Yenə bir yerdə olacağıq.

- Nə deyirəm, oğul! Özün bilən yaxşıdı. Bizi unutmayın! – Səlim nəvələrinin getməsini istəmirdi. – Onları aparmayın!

- Yaxşı. – Leyla yoldaşının razı olmayacağından qorxub tez dilləndi. – Onsuz da onlar sizsiz durmurlar.

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Əla! Biz onlarla gəzərik. - Əsli oğlanların qoluna girdi. - Siz məni Azərbaycanda gəzdirərsiz. Mən də sizi Amerikaya apararam.

- Oldu, gözəl xanım! – Vüsal Əslinin üzündən öpdü.

- Çox yaxşı. Anlaşdıq... Olmaz...

- Niyə olmur? Əminəvəsiyəm...

- Dələduz. - Vüsalın qolunu buraxdı.

Elşad oğluna tərs-tərs baxıb:

- Əmiqızı, incimə... – dedi.

- İncimirəm.

- Yaxşı, onda biz gedək!

*** *** ***

Elşad cəbhəyə yollananda yeni tikilmiş evinə baş çəkib bağcaya meyvə ağacları əkmişdi. Qaydanda o ağacların kölgəsində dayanıb xeyli fikrə getdi.

- Mənsiz çətin olub! Kişi kimi işləmisən...

- İşin öhdəsindən gəlirdim. Uşaqlarımız böyüyüb onlarla bacarmayacağımdan qorxurdum. Evin məhsuliyyəti ağır idi. İndi rahatam!

- Tanrı böyükdü! O bizi yenidən qovuşdurdu. – Leylanın əllərindən tutdu. Onun məhəbbətlə döyünən qəlbini, titrək vicudunu hiss etmək istədi.

- Bağışla, Elşad! Hislərim ölüb... Bütün məhəbbətimi oğlanlarıma vermişəm.

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Səni əvvəlkindən də çox sevirəm! Mənə qarşı hislərini necə öldürə bilmisən!

- O dərin hüznə çevrilib. Mənə vaxt ver...

- Ata, çöldə niyə əl-ələ tutub durmusunuz? Evə gedək! İşlərimə baxın. – Vüsal idi. Qısqanc nəzərlərlə anasına baxırdı.

- Nə iş? – Elşad soruşdu.

- Şəkillərə baxaq.

- Oğlun şəkil çəkməyi çox xoşlayır.

- Düzdü. Şəklinizi çəkərdim... Soyuqsunuz...

- Nə danışırsan?

Leylanın " Əhəmiyyət vermə!" işarəsini görüb susdu.

- Dərslərini necə oxuyursan?

- Atestat almışam. Çox oxumağa vaxtım yoxdu.

- Olmaz da...

- Ata, gəl...

- Gətir.

- Gətirmişəm, nootbukdadır.

- Əvvəllər az-çox bilirdim. Unutmuşam.

- Başa salaram...

- Eləmi?

Vüsal qovluqları açıb müxtəlif illərdə çəkilmiş şəkilləri göstərdi. Elşad qəhərləndi, uşaqlarının zamanla necə böyüdüklərini xəyal edib fikrə daldı.

* * *

* * *

Valeh Amerika səfərindən sonra distant təhsil almaq istədi. Lakin, bir yerdə olduqları vaxt ərzində Əsliyə daha

www.kitabxana.net – Milli Virtual Kitabxana

dərin hislərlə bağlandı. Ondan ayrılmamaq üçün Amerikada dokturanturaya qəbul oldu.

Dərslərin başlamasına az qalmışdı. Bir gün Əsli getmək istədiyini deyib çantasını yığmaqçün otağına keçdi.

Birgə getməliydilər. Qızın qəfil qərarı Valehi sarsıtdı. Otağına gedib:

- Hələ vaxta var. Niyə gedirsiniz? – söylədi. Əsli tutulmuşdu, cavab vermədi. - Mənə kömək etdiniz, ingilis elmi dilini öyrəndim. Təşəkkür etməyə də vaxt tapmadım.

- Tapmazsınız... Sizi yalnız oxumaq maraqlandırır. Məni görmürsünüz!

- Haqsızsan, əmiqızı! Hislərimdən xəbərdarsan...

- Nədən xəbərdaram? Amerikada belə deyildiniz. Məni sevdiyinizi güman edirdim!

- Əsli, əmim səni bizə etibar etdi, qonağımızsan. Sənə başqa gözlə baxa bilmərəm!

- Sevgidə nə göz!

Valeh qızın qarşısında kiçildiyini hiss etdi. Bu iki fərqli mədəniyyətin uyuşmazlığı idi.

- Əsli, səni sevdiyimi bilərək gedəcəksən!

- Baxarıq! – Qızın qəmli gözləri sevincdən yaşardı. - Səndən asılıdı. Baba yurdum gözəldi, çox sevdim. Amma məni buraya bağlayan sənsən!

Valeh Əslinin qolundan tutub diqqətlə gözlərinə baxdı. Baxışlar nələr danışdı...

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Səni sevirəm! Əllərinə toxunsam, dodaqlarından öpsəm ağlımı itirəcəyəm. Məgər nə halda olduğumu görmürsən! – Qızı qucaqlayıb etirasla öpdü.

- Valeh!!! - Rəşidin səsi idi. Şillə kimi üzünə çırpıldı. Qızı buraxıb kəra çəkildi.

- Bağışla, hislərimi cilovlayammadım!

- Bura sənə görə gəldim.

- Evlənək, əzizim!

- Hər ikimiz tələbəyik...

- Bilirəm...

Əsli eşq haqqında oxuduğu mülahizələri xatırladı.

- Bəlkə bir neçə il ömru olan hislərə görə həyatımızı çətinləşdirməyək.

- Nə demək istəyirsən?

- Valeh, eşq haqqında elmi arşdırmalar var. London universitetinin nevroloq professoru eşqi müalicəyə ehtiyacı olmayan xəstəlik adlandırır.

- Yoxsa, həkimləriniz müalicə üçün resept tapıblar?!

İncik halda:

- Yox… – söylədi. – Onların fikrincə eşq arzuolunan xəstəlikdi. Ancaq, ən çoxu üç il ömrü olur.

- Saq ol! Yaxşı proqnoz verirsən!

- Mən tələbəyəm, proqnozu alimlər verib. Onların fikfincə aşiqliyin böyük faydası var. Aşiqlərin orqanizmi sağlam, dözümlü, gümrah, xəstəliyə qarşı mübariz olur. İnsan qarşı cinsə vurulduqda orqanizmdə domafon adlanan maddə ayrılır. Həmin maddə bədən narkotikin təsiri altında olduğu zaman da yaranır. Şüura təsir edir. Məhəbbət insanı

www.kitabxana.net – Milli Virtual Kitabxana

vəsvəsəli hala gətirir. Ona görə də, insan eşqi uzun müddət yaşaya bilmir.

- Hislərimizi belə qiymətləndirirsən?!

- Səhv başa düşmə... – Qızardı. – Bunu elm deyir!

- Yanılır... Bizdə ailələr bir ömür yaşayırlar. Üç ilə sönəcək eşq kimə gərəkdi!

- Mən eşqdən danışıram. Amerikada da uzun ömürlü ailələr var. Qırılmaz ailə bağları ilə ömürlük bağlanırlar.

- Nə isə...

Onlar ailələrindən xəbərsiz evlənmək qərarına gəldilər. Valeh universitetdə oxuyan qardaşı oğluna baş çəkməyi bəhanə edib Bakıya getdi. Əsli də ona qoşuldu. Bir neçə günə sənədləri hazırladılar. Nicaha daxil oldular. Ailələr gizli evliliyi normal qarşılamadılar. Gənclər məhəbbətdə məsafəni nəzərə almadan evləndilər. Böyüklər isə övladlarının gələcəyindən qorxdular.

Gənc ailə bir müddət Bakıda yaşadı. Mətin Əslini şəhərlə tanış etdi. Bütün günü gəzdilər, günortalar yeməkxanalarda nahar etdilər. Valeh yoldaşının bəzi hərəkətlərini bəyənməsə də üzünə vurmadı. Susdu.

* * * * * * * * *

Vüsal orta məktəbi aşağı qiymətlərlə bitirdi. Kompüter oyunları və qlobal şəbəkələrə aludəçilik vaxtını aldı, qəbul imtahanına hazırlaşammadı. İmtahandan aşağı bal topladı. Məğlubiyyət və atasının danlağı onu cəmiyyətdən küsdürdü. Real həyatdan uzaqlaşıb virtual aləmə qapıldı. Burada

www.kitabxana.net – Milli Virtual Kitabxana

özünü fərqli göstərib ağıllı sözləri, baxımlı fotoları ilə tanışlar axtardı. Dostlarla şirin söhbət etdi.

Bir gün yenicə taniş olduğu qız dostunun söhbətləri onu çox uzaqlara apardı. Hiss etmədən ona vuruldu. Qızla yazışmaq üçün saatlarla şəbəkədə qaldı. Bakıda yaşadığını öyrəndikdə şəhərə getmək üçün nənəsini dilə tutdu.

- Nənəcan, hamı qaçır... Kənddə ikimiz qalmışıq. Gəlsənə bir Bakıya gedək. Oradakıların dərsini də verərik.

- Kimin!

- Kim olacaq? Xəbərsiz evlənənləri deyirəm.

- Baban tək qalır...

- Narahat olma, tək qalmaz… - Nənəsinin tərs-tərs baxdığını görüb sözünü dəyişdi. – Yəni, babamın oğlu, gəlini yanındadı. Gəl səni təzə gəlininin yanına aparım.

Ana incik səslə:

- Xoşbəxt olsunlar... – dedi. – Sənsə düz danış!

- Nənəcan, hirslənmə... – Üzündən öpdü. – Köməyin lazımdı. İnternetdə bir qıza vurulmuşam. Görməsəm ölərəm!

-Vüsal, abır-hayan olsun! Ölmədiyin qız qalmadı...

- Nənəcan...

- Dələduz, heç düzələn deyilsən! Axmaqlığın ucbatından imtahandan da keçmədin.

- Yaxşı olacaq! İkinci tur var. Kömək et, nənəcan…

- A bala, kompüterdən çıxan qızla evlənəcəksən?

- Gözəlim, babamı necə tapmısan?

- İndi də gözəlin oldum. Nişana qədər babanı görməmişdim.

- Məktub filan...

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Nə bilim, keçmiş gündü...
- Bu da elə bir şeydir.
- Allah axırını saxlasın!
- Gedirik!
- Yaxşı, gedək. Bakıda görüləcək işlərim var. Şəhəri gəzən gəlinimə, oğluma sözüm var.
- Nənə, davaya getmirik...
- Hazırlaş, ağıl öyrətmə!

Zeynəbin gəlişi gənc ailəni qorxutdu. Valeh anasının xasiyyətinə bələd olduğundan yoldaşına gəzintiləri təxirə salmağı tapşırdı. Fərqli dünyagörüşlü qaynana və gəlin çətinliklə bir müddət birgə yaşadılar. Yemək bişirməyi bacarmayan, boş vaxtını əyləncə mərkəzlərində keçirmək istəyən Əsli qaynanasının qaydalarını qəbul etməyə məcbur oldu. Amerikaya-keçmiş həyatına dönəcəyi günü həsrətlə gözlədi.

Vüsal şəhərdə mələk sandığı qız dostunu tapmadı. Taniş olduqları internet saytına baxdı. Yox idi. Sanki, qeybə çəkilmişdi. Gənc aşiqin əhvalı korlandı. Söhbətlərinin xəyal olduğunu, virtual aləmin şüuruna təsir etdiyini zənn etdi. Xəstəhal, qaradinməz oldu.

Mətn qardaşının ən yaxın sirdaşı idi. Nə baş verdiyini anlayıb narahat oldu.

- Sənə çox dedim! Eşitmədin. Virtual aləmdən əl çəkmədin. İnternetdə oxumaq əvəzinə qız axtardın. Bu da sonu!
- Sən də söz danışdın. Oxuyurdum da...

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Günah özündədi…

- Qardaş, səni başa salmaq mümkün deyil ki! O, fərqli idi.

- Xoş sözlərə vuruldun...

- Çox danışmadıq. Şəkildəki məsum çöhrəsini, təmiz, saf baxışlarını sevdim.

Mətn onun halına acıyıb:

- Allah sənə ağıl versin! – dedi.

- Allah o qızı mənə cəza göndərdi.

- Bilmirəm sənə necə kömək edim! İnternetə baxaram. Bəlkə tapdım?

- Axtarma, faydası yoxdu. Xeyli vaxtdı izsiz-tozsuz yoxa çıxıb. Hərdən mənə elə gəlir ki, şirin yuxu görmüşəm. Axırıncı dəfə ona şəkilimi göndərmişdim. Sevgidən gözlərim od tutub yanırdı. Duruşumla, baxışımla onu sevdiyimi deyirdim.

- Nə oldu?

- Yazdı ki, get qışda gələrsən!

- Niyə?

- Şəkildə qış paltarında idim. İyun idi.

- Yayda qış paltarı geyinmişdin?

- Yox. Şəkli qışda aşiq olduğum qızçün çəkdirmişdim.

- Ay səni... – Mətn əlini-əlinə vurub bərkdən güldü. – Təzəsini çəkdirməyə imkanın olmadı!

- Sağ ol! Yaxşı kömək edirsən...

Mətn ciddiləşməyə çalışsa da mümkün olmadı. Səs-kuyə nənəsi gəldi.

- Nə olub? Səsiniz aləmi götürüb.

- Nənə, bu dəfə nəvənin oxu daşa dəyib.

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Nəvəmlə işin olmasın!

- De də nənə! Məni başa düşmür, ələ salır.

- Mətn, oğlum, balaca balamla işin olmasın.

- Nənə, balanla gəzməyə çıxsan yaxşı olar. Yoxsa, qəm-qüssədən dipresiyaya düşəcək.

- O nədi?

- Xəstələnəcək!

- Allah eləməsin! Dur, oğul, parka gedək. Gəzərik əhvalın düzələr.

- Vüsal, uzaq getməyin. Bakını yaxşı tanımırsan.

- Qorxma!

Onlar dənizkənarı parkada gəzintiyə çıxdılar. Ucu-bucağı görünməyən Xəzərin romantik görünüşü Vüsalın xəyallarını qanadlandırdı. Virtual sevgilisi ilə əl-ələ tutub dalğaların üsründə gəzdi. Külək vurduqca dalğalanan qızılı rənglli saçlarını oxşadı. Sirli gözlərindən qəlbini oxumaq istədi. Bacarmadı. Qızın dərin gözləri onu başqa dənizin sahillərinə apardı-işıq və kölgənin vəhdətindən ibarət kimsəsiz virtual dənizə.

- Haradasan, kimsən, gözəlim! Niyə mənə əzab verirsən. Mövcudsan? Yoxsa, səni xəyallarımda yaratmışam.

- Oğul, kiminlə danışırsan! – Nənə qorxulu-qorxulu nəvəsini silkələdi. – Nə olub?

- Heç nə, nənəcan, qorxma. Gəmidə gəzəkmi?

- Qocayam, suya baxanda gözüm axır. Sən get!

- Birlikdə gedək. Dəniz məni sakitləşdirəcək. Dənizdən dənizə körpü salacağam.

www.kitabxana.net – Milli Virtual Kitabxana

Zeynəb maraqla nəvəsinə baxıb:

- Gedək! – söylədi.

Parkı dolaşdılar, limanı tapmadılar. Şirniyyat satan gəncdən gəminin yerini soruşdular.

- Buradan xeyli aralıdı. – söylədi. – Birazdan yola düşəcək.

Onlar limana çatdıqda ləpədöyəndə dayanıb ləngər vuran gəmi çıxhaçıxda idi.

- Oğul, tərslik etmə. Gəl qayıdaq.

- Hara qayıdırıq? Bu qədər yol gəlmişik.

- A bala, sənədlərimizi də götürməmişik. Orada sənədləri yoxlayırlar. – Gənc qadını işarə etdi. – Bizi buraxmayacaq.

- Gözlə! Hələ nəvənin üzünə bağlanan qapı olmayıb.

Qadına yaxınlaşdı. Onlar əvvəlcə ciddi, sonra gülə-gülə söhbət etdilər.

- Nənə, xanımla tanış çıxdıq. Gəl gedək, problem yoxdu.

- Haradan!

- İnternetdən.

- Nəhlət şeytana! Sənin internetin lap zəhləmi tökdü...

- Hirslənmə, nənəcan... Yaxşı olar.

Gəmiyə qalxdılar. Az keçmiş sahildən uzaqlaşdılar. Sonsuz görünən dəniz nənəni qorxutdu.

- Hara gedirik! Gəzinti gəmisi sahildən bu qədər uzaqlaşmazdı.

- Vüsal narahatçılığını gizlədib soyuqqanlılıqla:

- Bilmirəm! – dedi. – Soruşaram...

Bələdçi ilə söhbətləri uzun çəkdi. Geri qayıdanda portmüş, dilxor olmuşdu.

- İrana gedirik!

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Axmaqlama, a bala! İranda nə işimiz var?

- Səhv düşmüşük. İrana gedən gəmiyə minmişik. Yazıq qadını pis vəziyyətə saldım. İşdən qovmasalar yaxşıdı.

- Bu da xeyrin... İndi nə edəcəyik!

- Heç nə. İrana gedib qayıdacağıq.

- Biabırçılıq! Heç belə vəziyyətə düşməmişdim. Qoca vaxtımda başıma nə oyun açdın!

- Bağışla bilmədim.

Sənədsiz ölkə ərazisinə daxil olmaq mümkün deyildi. Onlar geriyə qayıdan ilk sərnişin gəmisi ilə vətənə döndülər. Gəmidə bir qız Vüsalın diqqətini cəlb etdi. O, sakitliyə çəkilib kitab oxuyurdu. İnternetdə tanış olduğu qıza oxşayırdı. Vüsal uzun müddət yaxınlaşmağa cəsarət etmədi. Gəmi limana çatdıqda qızın yolunu kəsdi.

- Sizdən bir söz soruşacağam.

Qız dayanıb yol boyu gözünü ondan çəkməyən gəncə:

- Buyurun. – dedi.

- Sizə qəribə görünə bilər… İnternetdə tanış olduğum sevgilimi axtarıram. O, sizə bənzəyir.

Qız istehza ilə gülümsəyib başını silkələdi.

- Tanımadığınızı nece sevə bilərsiniz! Mən İnternetdə sevgili axtarmıram…

- Səhv başa düşməyin. Mən virtual aləmə bağlanmışam. Ünsiyyətdə olduğum qıza təmiz qəlblə vurulmuşam.

- Halınızdan bəllidi. Bağışlayın kömək edə bilməyəcəyəm. O, qız mən deyiləm.

- İranda yaşayırsınız?

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Yox, qohumlarımın yanına getmışdim.
- Kimsiniz?
- Tələbəyəm.
- Harada oxuyursunuz? Ünvanınızı bilmək olarmı?

Qız daxilində baş qaldırmış qəribə istəyi boğaraq:

- Yox. – dedi. – Artıq getməliyəm. Sağlıqla qalın! Virtual aləmə aludə olmayın.

Vüsal bələdçi qadından üzr istəyib gəmidən aralandı. Əmisigil sahildə gözləyirdi.

- Allahım, mənə səbir ver danlaqlara dözüm! – dedi.

Əmisinin:

- Bu nə oyundu başımıza açmısan! Utanmırsan… - sözlərindən başqa heç nə eşitmədi. Qəlbində səslənən həzin musiqini dinləyərək xəyallara daldı.

Zaman keçdikcə Vüsalın fikirləri daha çox qarışdı. Vurulduğu qızı xəyallarında yaratdığını düşündükcə halsız, susqun oldu.

Nəvəsinin qaradinməzliyi Zeynəbi qorxutdu.

- Bala, gözümə birtəhər dəyirsən. Xəstələnməmisən!
- Yox, nənə, qorxma...

Əsli mənalı-mənalı gülümsəyərək Vüsalın əlini tutdu. Nəbzini yoxladı.

- Nəvəniz aşiq olub – Virtual xanıma. Real olub-olmadığını özü də bilmir. Xəyalları yerlə göy arasındadı.

Zeynəb narahat oldu.

- Uşaq xəstələndi!
- Yox, aşiq olub. Narahat olmayın keçəcək. Ən etiraslı eşqlər də zamanla sönür.
- Yanlış fikirdi. Kişi ilə 50 ildi birgə ömür sürürük.

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Birğə yaşamaq sevmək deyil. Sadəcə yaşamısınız, sevməmisiniz...

- Gəlin, nə danışırsan! Bu ağılla oğlumu yarı yolda qoyarsan...

- Dürüst olacağımıza söz vermişik. Aramızda hər şey bitsə, gizlətməyəcəyik.

- Halaldı. Yaxşı başlamısınız...

O gündən gəlininin hər sözü Zeynəbə pis gəldi. Hərəkətlərində nöqsan axtardı, onu azarladı. Vaxt keçdikcə münasibətləri kəskinləşdi. Əsli qaynanasına əhəmiyyət verməyib istədiyi kimi yaşadı. Valeh çox sevdiyi iki qadının arasında qaldı. Çarəsizlikdən Amerikaya vaxtından əvvəl getdi.

Zeynəb oğlunu yola salarkən:

- Əsli əmin qızı olaraq qalmalıydı. – dedi. – Sevgi gözünü bağlayıb, aranızdakı uçurumu görmürsən!

- Ana, narahat olma! Ona vaxt ver, yaxşı olacaq. Elə bil oda sənin qızındı. Bizim necə bağışlayırsansa, onun da bağışla.

- Allah bağışlasın! Kaş səhv etmiş olaydım.

Zeynəb oğlunu yola salıb nəvəsi ilə rayona qayıtdı. Kəndə çatanda narın yağış yağırdı. Vüsal gəzişmək istədiyini deyib yolda maşından düşdü. "Kişi ağlamaz" sözünü unudub ürəyi sakitləşincə ağladı. Göz yaşları yağış sularına qarışıb axdı.

Real həyatda özünə yer tapmayan gənc xoşbəxtliyini tapmaq ümidi ilə yenidən virtual aləmə qapandı və günlərin

www.kitabxana.net – Milli Virtual Kitabxana

bir günü sevdiyi qızla rastlaşdı. Saatlarla danışmadılar. Ruhları sevişdikcə qız ağladı, kompyuterin ekranı nəmləndi.

- Sevgilim, niyə ağlayırsan! Səni çox axtardım, tapmadım.

- Tapa bilməzdin. Mən real deyiləm, xəyalınam.

- Necə xəyalımsan! İndi danışmırıqmı?

- Danışırıq... Sən məni xəyalında yaratdığına görə görüşürük. Mən əslində yuxarıdakı planetdə yaşayıram.

- Nə demək istəyirsən!

- Mən atanın tanıdığı, əminin yaşadığı bir planetin sakini olmalıyam. Orada əbədiyyət qazanmışlar yenidən doğulurlar. Biz sizlərlə əsasən yuxularda görüşürük. Ruhlarımız qovuşur.

- Günahım nə idi? Niyə ruhumu əsir etdin! Əbədiyyəti yalanla qazanmısan!

- Allahdan qorx, oğlan! Onun seçimini günüha batırma. Sən qızlarla şirin danışıb onları aldadırdın. Mənim kimi birisini xəyal edirdin. Xəyallar bizi görüşdürdü. Hərəkətlərinə acığım tutdu. Sənə dərs vermək istədim.

- Bacardın!

- Bacarmadım. Allahın qəzəbinə tuş gəldim. İndi nə oralığam, nə də buralıq. Sənə bağlanmışam, ruhun məni buraxmır.

- Özün yoxsansa, ruhun nəyimə gərikdi! – Hirsləndi. – Çıx get!

- Həyatın qaydaya düşməyincə getməyəcəyəm.

- Narahat olursan? Nahaq, bacardığını etmisən. Get!

www.kitabxana.net – Milli Virtual Kitabxana

Vusal gicgarhını ovuşdurараq üzü üsrə divana yıxıldı. Gözlərini bərk-bərk yumdu. Sevgilisi xəyallarında canlandı.

- İlahi, özün kömək ol! Belə davam etsə ağlımı itirəcəyəm.

Qızın küskün xəyalı:

- Məni unutma! – söyləyərək kürə şəkilli parlaq işıq oldu.

İşıq Vüsalın qaralmış dünyasını nurlandıraraq ağlını başından aldı. O, huşunu itirdi. Az keçmiş havada olduğunu hiss etdi. Sonsuz kainatda işıqlı planetə tərəf uçan parlaq kürənin arxasınca uçurdu. Məkana çatdıqda işıq nura qarışıb yox oldu. Cənnətəbənzər planet parlayaraq onu salamladı. Ruhu güllərin ləçəklərinə qonmaq istədi. Nurani bir qoca onu havada saxladı.

- Dayan, oğlum! Ensən bütün xəyalların məhv olacaq. Məhəbbətinin arxasınca bura qədər gəlmisən. İndi onu itirmək istəyirsən?

- Sevgilim işığa qarışdı. Gülün ruhu olub ləçəklərimlə onu hiss etmək istəyirəm!

- Səbir et! Bura başqa planetlərdə əbədiyyət qazananların yenidən doğulduğu məkandı.

- Ölməliyəm! Özümü öldürməliyəm!

- Yox. Can Yaradanın əmanətidi. Əmanətə xəyanətlə əbədiyyəti qazanmaq olmaz. İnsanlar buranı sağlığında qazanırlar.

- Sevgilim ölüb!

- Yox, onun da ruhu buradadı. İşıq olduğunu görmədinmi? Maddi varlıq olsaydı məni kimi görünərdi. Planetimiz seçilmişlərin məskənidi. – Fikrə daldı. – Atan

www.kitabxana.net – Milli Virtual Kitabxana

bizimlə olub. Onu xilas etdik, vətəninə qaytardıq. Əmin burada yaşayır.

- Siz bizim planetdə olursunuz?

- Oluruq. Bizimçün zaman və məkan nisbidi. Biz zərurət yarandıqda müəyyən zaman kəsiyində başqa planetlərdə görünürük.

- Bizlərlə yaşaya bilməzsiniz. – Yorğun və əzgin bədənin əziyyətini çəkən ruh maraqla soruşdu.

- Yox. Qıza görə soruşursan?

- Hə...

- Axı indicə dedim ki, onun ruhu buradadı.

Vüsal başa düşməsə də heç nə soruşmadı. Qoca davam etdi.

- Biz maddi olaraq öz planetimizdə varıq. Həyat nisbi olduğundan kiçik zaman kəsiyində sizlərlə də görüşürük.

- Bəs işığın dərdi nədi? Niyə o, iki dünya arasında qalıb?

- Keçən il atasını itirib. Qız atasının ölümündən sonra xəstələndi. Atanın narahat ruhu onu tək buraxmadı. O, hələ də məkanına çatanmır. Kainatda dolaşır...

- Qızı görəcəyəmmi!

- Görmüsən. Gəmidə rastlaşdığın, o, idi.

- Məni aldatdı?

- Yox. Ruhən sənինlə görüşdüyünü bilmir. İnternetdə, yuxuda onun xəyaları ilə danışmısan. Səni görəndə hisləri coşdu. Səbəbini anlamadı.

- Qəribədi. Ruh ki, fiziki gücə malik deyil. Kompüterdə necə işləyir?

- Atası mühəndis idi. İnsan beyni kimi neyronlarla işləyən yeni kompyuter icad etmişdi. Hətta, neyronları süni

www.kitabxana.net – Milli Virtual Kitabxana

yolla yaratmışdı da. İndi onun kompüteri düşünə, hiss edə, özü işləyə bilir.

- Deməli, texnika özü aramızda əlaqə yaradıb!

- Hə.

- Qızın ruhu hər zaman atasını axtarır. Onlar istər səmada, istərsə də virtual aləmdə görüşürlər.

- Kompüter qızın istəyini başa düşür?

- Ata düşünən kompüterə süni neyron deyil öz beynindəki neyronlardan yerləşdirib. Qızı narahat olduqda onu virtual aləmə aparır. Söhbətləşirlər.

- Mənimlə də bu cür görüşür!

- Hə, o, yatanda, xəyala dalanda ruhu virtual dünyada olur. Sənə bağlandığından görüşünə gəlir.

- Kaş yenidən görüşəydik!

- Səbirli ol!

Güclü külək qəfil qapını açdı, pəncərəni çırpdı. Şüşələr şaqqıldayıb cilikləndi. Vüsal qorxmuş halda yuxudan ayıldı. Başı dumanlı, fikirləri qarışıq idi. Xəyalla gercəkliyi ayırd edə bilmirdi. Ətrafına baxdı. Kompüter işləyirdi. Ekranda sevgilisinin şəkli vardı. Nəzərlərini qızdan çəkə blmədi. Qeyri-ixtiyari gözləri yaşardı. Bu vaxt qeybdən səs gəldi. Rəşid idi.

- Səbrli ol! Zaman ən yaxşı təbibdi. Yaralarını sağaldacaq. Sevgilin ağ yolda işıqdı. Yaxın vaxtlarda görüşəcəksiniz!

www.kitabxana.net – Milli Virtual Kitabxana

Görüş

Valeh Amerika təhsilinin tələblərini yerinə yetirmək üçün çox işləməli oldu. Yenilikləri öyrənmək, dil problemini həll etmək məqsədilə çox vaxt gecəyarıya qədər araşdırmalar apardı. Yorulduqda göyləri, saysız-hesabsız ulduzları, kainatın dərinliklərinə doğru uzanıb gedən Ağ yolu müşahidə etdi. Rəşidin ruh olub kainatı gəzmək arzularını xatırladı. "Qardaşım, kainatın dərinliyinə doğru uzanıb gedən o yol Ağ yoldu. Gümüşü rəngdə olduğundan Yunanlar ona qalaktika - sud yolu deyiblər. Kainatdakı bütün qalaktikalar və Ağ yol enerjiyə malik olduğundan işıq saçır. Ağ yoldan qalaktikalara, sivilizasiyalara keçid olmalıdır. Kaş ruh olub o keçiddən keçəydim! Məncə həyatın zaman və məkan daxilində mövcudluğu nəinki kainatdakı ruhların, həm də real varlıqların qalaktikalara, planetlərə, sivilizasiyalara keçidini mümkün edir. Kənardan qaranlıq, soyuq görünən göylər əslində qaynar həyat yaşayır. Kainatdakı bütün varlıqlar enerji mənbəyidir. İnsan isə qəlbi ilə ikili dünyaya, ikiqat enerjiyə sahibdir. Heç bilirsən bu nə deməkdir. İnsan dünyanı fəth edə bilər!"

Rəşidi xatırladan gecələrdə Valeh qardaşına qovuşduğunu hiss edir, şəxsi həyatndakı problemləri unudaraq könül rahatlığı tapdı. Yoldaşı ilə anlaşılmamazlılıqlarını unudurdu.

Zeynəb ananın təxmini düz çıxır, fərqli mədəniyyət, dünyagörüşu onları uzaqlaşdırırdı. Zamanla eşqlərinin sönəcəyinə inanan Əsli Valehin çox işləyib ona diqqət yetirməməsini münasibətlərinin sonu sanır, statistik

www.kitabxana.net – Milli Virtual Kitabxana

məlumatlardan, riyazi hesablamalardan bezirdi. Boş vaxtlarını rəfiqələri, dostları ilə keçirməyi üstün tutur, onlarla zəngləşib əyləncə mərkəzlərində görüşür, şənlənirdi.

Valeh hadisələrə nəzarət edə biləyib əmisi ilə görüşdü. Səlim onu diqqətlə dinlədi.

- Qızımın hərəkətləri normaldı. Sən də ona qoşul...

- Vaxtım olmur.

- Özünə də vaxt ayır, həyatdan zövq almaq lazımdır. Yaşadığın mühitə uyğunlaş, keçmiş həyatını unut!

Əmisinin sözləri qururuna toxundu. Daxilindən gizli bir üşütmə keçdi, vücüdunu titrəkdi. Sanki yuxudan ayıldı. Aralarındakı uçurumu gördü. Qəlbi sancdı.

- Yaxşı, çalışaram...

Valeh əmisi ilə söhbətdən sarsıldı. Bir müddət nə edəcəyini fikirləşdi. Nəhayət, bir gün Universitetdən icazə alıb evə tez gəldi. Nahara yemək sifariş etdi. Əsliyə zəng edib onu evdə gözlədiyini bildirdi. Günorta oldu, gəlmədi...

- Allahım, bu nə işdi başıma gəldi! Yəni münasibətlərimiz bu qədər korlanıb! Sevgi gözlərimi bağladı, kor oldum... – Əsəbi halda otaqda var-gəl etdi. - Kaş həmişəlik kor olaydım!

Otaq başına fırlandı, kresloda oturdu. Qoltuğa söykənib gözlərini yumdu. Xəyallar onu gözəl, qeyri-adi aləmə apardı. Sərbəst, azad və xoşbəxt oldu. Bir müddət qanadlanıb uçdu. Əslini xatırladıqca kədərləndi.

- Danışmalıyıq. Sevgimiz sona çatıbsa, ayrılmalıyıq... – söylədi.

www.kitabxana.net – Milli Virtual Kitabxana

Gözlərini açdı. Qaranlıq dünyaya düşdü. Pəncərəyə tərəf boylandı. Zülmət idi. İşığı yandırdı...

- Günorta olmalıdır! - Görmədiyini anladı. – Nəyə görə! Günahım nə idi!

Əslinin narazı baxışlarını duydu.

- Əsli, buradasan! Yaxşı ki gəldin... – Cavab gəlmədi. – Bilirəm, yanımda olsan da cavab verməyəcəksən...

- Əsli deyil, qardaş, mənəm!

- Sən kimsən?

- Rəşid. – Yaxınlaşıb Valehlə üzbəüz dayandı.

- Rəşid! – Qarşısındakı şəxsin saçlarını, üzünü yoxladı. – Ola bilməz! Axı sən ölmüsən!

- Ölmüşəm... Başqa planetdə yenidən doğulmuşam.

- Başqa planetlərdə həyat var?

- Var. O seçilmişlərin məkanıdır.

- Qəribədir... Sənə toxunuram, varsan. Bu necə olur. Varlığını sübüt edə bilərsənmi?

- Əlbəttə! Qardaş, yaşamın həm dini, həm də elmi baxımdan izahı var.

- Ruh olduğunu deyəcəksən? Ola bilməz... Səni duyuram, maddi varlıq kimi toxunuram.

- Həzrəti Xızır Əleyssalam haqqında oxuduqlarımız yadındadırmı?

- Yadımdadır. Həzrəti Xızır və İlyas Əleyssalam çox vaxt insanlar arasında olurdu. Bəzən gözə görünür, aşkar və ya gizli kömək edirdilər. Sən onlar olammazsan.

- Sözsüz ki onlar deyiləm. Həyat beş mərtəbədən ibarətdi. Birinci mərtəbədə dunyaya gələn bütün varlıqlar, həmçinin adamlar yaşayırlar. İkinci, üçüncü mərtəbədə Allaha yaxın

www.kitabxana.net – Milli Virtual Kitabxana

olanların məkanıdır. Dördüncü mərtəbə haq yolunda ölənlərin-şəhidlərin məskənidir. Mən bu mərtəbədə yaşayıram. Oradakı insanlar ölmürlər, əbədiyyətə qovuşurlar.

- Allah böyükdü, qardaşım! Onun sevgisini qazanmısan. Şadam! Varlığını elmi cəhətdən sübut et! Sən ki alimsən...

- Yaxşı. Elmi işlərim nisbilik nəzəriyyəsinə aid idi. Nəzəriyyəyə görə zaman və məkan nisbidir. Mən öz həyat təcrübəmdən gördüm ki, yaşam və ölüm bəzi başlanğıc şərtlərin dəyişməsi ilə nisbilik prinsipinə tam uyğun gəlir. Buradakı ölümüm nisbi oldu. Başqa planetdə doğuldum. Ruhum yenə yaşayır. Məkan dəyişdiyimdən zaman mənimçün fərqli oldu. Doğulandan sonra tez böyüdüm. Allahın sevimli bəndəsiyəm. Sizlərin yanına kiçik zaman kəsiyində gəlirəm.

- Qardaş, gəlişinə şadam. Sözlərini tam anlamıram...

- İnanmazsan, həyat nisbi imiş. Üç ölçülü məkan (en, uzunluq, hündürlük) və zaman tamdır. Məkanın-fəzanın koordinatlarından biri və ya ikisi olmaya bilər. Zamanın varlığı mütləqdir. Kainatdakı bütün hadisələr müəyyən məkanda zaman çərçivəsində baş verir. Mən elmi işlə məşğul olarkən zamanın sükunətdə olan sistemə nəzərən digər hərəkətdə olan sistemin hərəkətliliyini xarakterizə etməsini qəbul etmirdim. Ruh olub kainatı gəzmək, zamanın sirrini açmaq istəyirdim.

- Arzuna çatdın!

- Çatdım... Nə faydası!

www.kitabxana.net – Milli Virtual Kitabxana

- İşlərin mənimçün maraqlı idi. Zamanın sirrini açа bildinmi?

- Təbiəti öyrənmək çətindi. Bəzi nəticələrim var. Zaman həyatın sürətini ifadə edir. Zaman üçün sükunət qəbul edilmiş sistem olarsa, orada həyat gec inkişaf edər. Ona görə də, planetlərdə, qalaktikalarda kəskin vaxt fərqi var. Yaşadığım planetin bir günü Yerin bir neçə ilinə bərabərdir. Hətta, hər bir fərd üçün də zaman fərqlidir. Yuxarı planetdə yeni doğulan uşaq dəqiqələrlə böyüyür, yetkinlik yaşına çatır. Kainat ümumi məkanımız olduğundan sonradan zaman ləngiyir. Həyatımız bütün yaşamların ortamı olur.

- Kaş səni görəydim.

- Səbir et! Korluğu özün arzuladın. Beynin görmə orqanlarına mənfi siqnallar ötürdü, dünyan qaraldı. Qardaşım, psixoloji problemin var. Qəlbindəki həyat eşqi sönüb...

- Nə edim!

- Sənə kömək edəcəyəm.

- Necə? Məncə sən burada yaşaya bilməzsən.

- Düz deyirsən. Az vaxtda enerjim tükənəcək. Əslində kainatdakı hadisələri əlaqələndirən zaman mücərrəd anlayışdır. Enerji daşıyıcısıdır. Zaman bu planetdə sənin o planetdə mənimçün xəyali ədəddir. Aramızdakı fərq ondadır ki, sən yaşadığın planetdən yalnız ruhən ayrıla bilərsən-təbiətin qanunudur. Mənsə həm ruh, həm də cismən başqa planetlərdə ola bilirəm.

- Qanunun izahı varmı?

- Əlbəttə, var. Nisbilik nəzəriyyəsinə görə, məkan (yer) ölçülərində (a) uzunluğundakı şablon bir qara dəlik

www.kitabxana.net – Milli Virtual Kitabxana

tərəfindən udularsa, onda (-a) uzunluğuna malik olar. Yer insanını şablon qəbul etsək udulma onunçün ölüm anlamına gələcəkdir. Çünki, varlıq mənfi ola bilməz.

- Qardaşım, yaşadığın planetdə real həyat yaşamırsan?

- Tanrı məni şəhidlik zirvəsinə yüksəldib! Yaşadığım planetin sakinləri seçilmişlədir. Biz xüsusi qabiliyyətlərimiz sayəsində alimlərin nəzərdə tutduqları keçmə səddini aşa bilirik.

- Yanımda qalacaqsan?

- Yox. Mən burada normal insan deyiləm. Vaxtı saatlarla ölçülən enerji daşıyıcısıyam. Bir müddətdən sonra enerjim tükənəcək yox olacağam.

- Necə? Yoxa çıxacaqsan!

- Öləcəyəm...

Valeh narahat oldu.

- Onda burada dayanma, get!

- Gedəcəyəm, gözlərimin nurunu sənə verdikdən sonra...

- Olmaz!

- Olar, qardaşım! Görmə problemın həll olunana qədər mənim gözlərimlə görəcəksən.

- Bəs sən nə edəcəksən?

- Narahat olma! Elmi işlərini qaydaya sal. Yoldaşınla dil tap.

- Yox! – Ətraf işıqlandı. Valeh işığa doğru hərəkət edən qardaşının nurlu simasını gördü. O, gülümsəyərək işığa qarışıb yox oldu.

- Bu nə işdi! Yuxumu görürdüm.

www.kitabxana.net – Milli Virtual Kitabxana

Səs gəldi.

- Qardaşım, Allahın izni ilə gözlərimin nurunu sənə bağışladım. Xoşbəxliyinçün ömrüm boyu kor olmağa razıyam! İşlərini qaydaya sal. Mübarizə apar, həyatı qazanacaqsan!

Valeh qəmli-qəmli köksünü ötürdü.

- Heç vaxt özünü düşünmədin. Allah səni necə yaratmışdı!

Saata baxdı. Günortadan xeyli keçmişdi. Əslinin gözləməyin mənasız olduğunu düşündü. Elektron kitabını və nootbukunu götürüb evdən çıxdı. Məqsədi universitetdəki işlərini yekunlaşdırıb buralardan uzaqlaşmaq idi.

* * * * * * * * *

Əsli dərsdən sonra xəstəxanada olmuş ağır bir xəstənin əməliyyatında iştirak etdi. Qan və ölüm qoxusuna sarsıldığından vaxtı unutdu, evə gec gəldi. O, qapını açıq, işıqları yanılı görüb qorxdu.

- Nə olub!

Otaqları gəzdi. Valehin getdiyini anladıqda göz yaşlarını saxlayammadı.

- Məni atdın! Niyə, sənə nə etdim?

O, sevgilisinin qəlbinə, şüuruna hakim kəsildiyinə əmin idi. Qəfil gedişə inanmadı. Zamanla reallığı gördü, barışmadı. Özünə qapandı, günlərlə evdən çıxmadı. Dərsə getmədi. Telefonlara cavab vermədi.

www.kitabxana.net – Milli Virtual Kitabxana

Səlim Valehlə söhbətdən sonra qızından nigaran idi. Onunla təklikdə danışmaq istəyirdi. Bir neçə gün gözlədi. Əslidən xəbər çıxmadı. Ata nəsə baş verdiyini hiss edib narahat oldu. Telefonların da susduğunu bildikdə evdə qərar tutmadı. Axşamtərəfi qızıgilə yollandı.

Günəş üfüqə ensə də hələ batmamışdı. Lakin səma tutqun olduğundan hava qaralmışdı. Qəfil əsməyə başlayan Şərq kuləyi buludları dağıtdı. Axşamüstü üfüqdə yeni gün doğdu. Qısaömürlü.

Təbiətdəki qeyri-adilik Səlimi qorxutdu. Yarımqaranlıq evə girib ətrafı nəzərdən keçirdi. Hər tərəfdə cansıxıcı sükut hökm sürürdü.

- Əsli, Əsli! – həyəcanla səsləndi.

- Gəl, ata..a..a... – qırıq-qırıq boğuq səs gəldi.

- Qızım, haradasan!

- İcəri gəl, ata! Buradayam.

Qarşılanmamağı onu daha çox qorxutdu. Astanada boynuna sarılan Əsli haradaydı! Otağa keçdi. Qızı pəncərənin qarşısında dayanmışdı.

- Ata, qürb yeridəki parıltı günəş ola bilərmı?

- Qızım, sənə nə olub?! Valeh hanı? Niyə evdə tək oturmusan?

- Bilmirəm... Artıq heç nə bilmirəm...

- Məni qorxutma, qızım! Ürəyim xəstədir.

- Valeh məni atdı. Heç bir söz demədən getdi.

Səlim qızının laqeydliyini, Valehlə söhbətini xatırladı.

- Soyuqluğun axırı belə olmalı idi.

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Ata, elə demə! Belə olacağını gözləmirdim.

- Qızım, sən azərbaycanlıya ərə getmişdin. Ailənin qayda-qanunlarına uyğunlaşmalıydın. Biz Amerikada yaşayırıq, anan da ingilisdir. O, sənə məsləhət verə bilməzdi.

- Ata, sevildiyimi, olduğum kimi qəbul ediləcəyimi fikirləşirdim. İndi nə edəcəyəm?!

- Səbirli ol! Sən yalnız özün üçün yaşamırsan. Körpəni ... – Hirsləndi. – Başa düşmürəm. O, necə sizi atıb?

- Bizi yox. Məni atıb. Körpəmizdən xəbərsiz idi. Deməmişdim.

- Niyə?!

- Sürpriz edəcəydim!

- Əcəb sürprizdi! - Ata tərs-tərs qızına baxdı.

* * * * * * * * *

Qardaşının gözü Valehin həyata baxışını dəyişdi. Elmi işləri gözləmədiyi istiqamətə yönəldi. O, statistikaya görə iqtisadiyyatın inkişafını müəyyənləşdirmək istəyirdi. Qardaşının nisbilik nəzəriyyəsinə aid fikirlərinə əsasən iqtisadiyyatın dinamik inkişafını tapdı. Planetimizdə yaşam həqiqi olduğundan məkan da, zamanda da həqiqi ədədlərlə ifadə olnur. Lakin, Rəşid zamanın dinamik inkişaf edən həqiqi məkanda xəyali qiymət ala biləciyini düşünür, onu başqa sistemlərə nəzərən xəyali qiymət alan enerji daşıyıcısı hesab edirdi. Hesablama sistemləri dəyişdikdə zaman və ya məkan xəyali ola bilərdi. Rəşid hal-hazırda yaşadığı cənnətəbənzər məkandakı həyatını yerə nəzərən xəyali hesab edirdi. Oradakı həyatı həqiqi olsa da səddi keçdikdə

www.kitabxana.net – Milli Virtual Kitabxana

sanki ruha çevrilir, nurabənzər cismi zamanla sönən enerji daşıyıcısı olurdu.

Ölmü ilə yeni dünyaya düşən Rəşid mülahizələrinin doğrulugunu gördükdə enerjinin saxlanma qanunu nəzərə alaraq müxtəlif məkanlarda enerji çevrilməsini hesabladı. Yeri-məkanı həqiqi, özünü burada dinamik dəyişən zaman qəbul edərək öz enerjisini bir, iki, üç ölçülü məkanlarda müəyyənləşdirdi-Yeri iki ölçülü məkan qəbul etdi və qardaşı ilə əlaqə yaradandan sonra fikirlərini ona ötürdü.

Valeh isə bu ideyalara səsaslanaraq iqtisadiyyatın dinamik inkişafı üçün riyazi model qurdu. Daha doğrusu qardaşının zaman keçdikcə enerji tükənir və başqa sivilizasiyaya düşmüş insan həmin məkanda yox olur ideyasını əsas götürərək həyata zaman və məkanın funksiyası kimi baxdı və iqtisadiyyatı bu funksiya üzərində qurdu. O, maliyəni-pulu arqument, inkişafı funksiya qəbul edib üç fərqli məkanda dəyişməni hesabladı. Dəyişmənin qiyməti isə Yer məkanının bəzi ölkələrində qazancı, əksər dövlətlərdə infilyasiyanı göstərdi. Hesablamanın dəqiqliyi üçün tərtib etdiyi funksiyaları sərhədləri x=1, x=a olan inteqralların daxilində yerləşdirdi. x=1, x=a zaman-enerji dəyişməsidir.

Üçölçölü məkan-fəza və zaman üçün

$f(x) = 3x^2 - x$ funksiyasını tərtib etdi.

y ilə inkişaf (infilyasiya), x –lə enerji işarə olunub. Üç ölçülü məkanda enerji $3x^2$ qədər olur. x qədər itir. Bu

www.kitabxana.net – Milli Virtual Kitabxana

funksiyanı inreqral altında yazmaqla fərqli üçölçülü məkanlar üçün dəyişməni hesabladı.

$y=\int_1^a (3x^2 - x)\,dx$

Həqiqi məkanda zaman-enerji və sahə müsbət olduğundan a>1 olur. Ağ Yolla keçilmış dünyada zaman və sahə-məkan mənfi də ola bilərdi. Valeh iqtisadiyyata da bu cür yanaşaraq infilyasiyanı hesabladı.

O, ikiölçülü məkanda $y = 2x^2 – x$ və birölçülü məkanda $y = x^2 – x$ funksiyalarının inteqrallarının köməyi ilə inkişafı (infilyasiyanı) hesabladı. Yer planeti ikiölçülü məkanın qiymətlərinə uyğun gəlirdi. Həqiqi məkanın qiymətləri inkişafı, xəyali isə infilyasiyanı göstərirdi.

Zaman yel qanadında ötüb keçdi. Valeh elmi işlərini yekunlaşdırdı. Vətəninə, doğma ocağına, ata-anasının yanına qayıtmaq istədi. Şəxsi həyatındakı uğursuzluğunu, korluğunu və qardaşını xatırladı. Özünü unudub qardaşının halına acıdı.

- Bu dünyada canını, o dünyada gözünü verdin! – dedi. – Qardaşım, cənnətini zülmətə qərq etməyə haqqım yoxdu. – Gözlərini bərk-bərk yumaraq öz qaranlıq dünyasına qovuşdu. Ətraf zülmət içində idi. Yalnız çox uzaqlarda sönməkdə olan bir cüt işartı görünürdü. Ona tərəf detdi. Lakin irəlilədikcə yol uzandı. Ümidsiz dayandı. Bu vaxt qardaşını yanında hiss etdi. Xəyalları onun ruhuna qondu.

- Mənsiz bacarmazsan. Birlikdə olmalıyıq.

- Yox, qardaşım, sənə əziyyət verdiyim bəsdi. Öz gözlərimlə görmək istəyirəm.

- Səbirli ol!

- Çətindi... Anamın üzünə sənin gözünlə necə baxım!

www.kitabxana.net – Milli Virtual Kitabxana

Valeh səhəri gün həkimə getdi. Beynini müayinə etdilər. Ara beyindəki sinirlər qaydasındaydı. Gözündə problem, fizioloji dəyişiklik yox idi. O, müayinə zamanı ətrafdaıları heyrətləndirir, tapşırıqları köməksiz yerinə yetirirdi. Həkimlər çox vaxt bu qeyri-adi xəstənin gördüyünü zənn edir, müayinədə korluğuna təəccüblənirdilər. Sonda məlum oldu ki xəstəlik əsəb sarsıntı ilə əlaqədardır. Psixoloji müalicə təyin olundu. Valeh imtina etdi.

Valeh sarsılmış, mənən ölmüşdü. O, doğma ocağı üçün darıxır, ata-ana məhəbbətinə, qohum-qardaş sevgisinə ehtiyac duyurdu. Lakin doğmalarının üzünə qardaşının gözüylə baxmaqdan qorxurdu. Axı belə saf baxışlar yalnız ona məxsus idi!

Valeh gələcəyini xəbər vermədən Azərbaycana qayıtdı. Əvvəlcə Bakıya-qardaşoğullarının yanına ğəldi. Evə yaxınlaşdıqda açarlar yadına düşdü. Ciblərini yoxladı, tapmadı.

- Nəhlət olsun. Düşüb...

Geri qayıtdı. Piyada keçidini yarı etməmiş gözlərinə qaranlıq çökdü. Dayandı. Özünü toplayıb irəlilədi.

- Nə edirsiniz! Dayanın! – Məlahətli bir səs onu saxladı.

- Nə olub ki!

- Sizi maşın vuracaqdı.

- Bacı birdən-birə gözlərim qaraldı. Huşum getdi. Yəqin, yorğunluqdandır. Kömək edə bilərsinizmi! Yaxınlıqda yaşayıram.

- Əlbəttə. Qonaq gəlmisiniz?

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Hə, sizə də əziyyət verdim. Bağışlayın...

- Xoşdu.

Evə çatdılar. Gənclər əmilərinin xəbərsiz, tək gəlişinə təəccüblənsələr də çox sevindiər.

Mətin həmişə onlarla tay-tuş kimi rəftar edən əmisinin sakitliyindən xoşlanmayıb:

- Nə olub! – dedi.

- Heç, bir az nasazlamışam.

- Əsli hanı? Bacı kimdir?

Qız nəsə problem olduğunu anlayıb qızardı.

- Əminizlə yolda rastlaşdıq. Elə bildim... – Diqqətlə bəyaqdan kor sandığı Valehin yaşarmış gözlərinə baxdı. Sarsıldığını hiss edib, susdu.

- Saq ol, bacı! Qonağımız ol.

- Yox, getməliyəm.

Vüsal bəyaqdan key kimi dayanmış, gözünü qızdan çəkmədən xəyala dalmışdı. Daxilindəki gizli ehtiras vicudunu parçalayırdı. Qız çevrilib getmək istədikdə qeyri-ixtiyari qolundan tutdu.

- Dayan, məni atma!

Hamı çaşbaş qaldı. Qız nəyisə xatırlayırmış kimi qəhərləndi.

- Kimsiniz!

- Sizinlə hər gün görüşürük. Virtual aləmdə.

- Mümkün deyil. Mən internetdə...

- Bilirəm, sevgili axtarmırsınız-gəmidə demişdiniz. Ruhunuz virtual aləmdə sizdən xəbərsiz mənimlə görüşür.

- Qardaş, nə danışırsan! Başın xarab olub? – Mətin kiçik qardaşına hirsləndi. – Bacını incitmə.

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Qolumu buraxın! – Qiz çəkilib getmək istədi. Vüsal əmisigili unudub onu qucaqladı. – Daha məndən uzaqlaşmayacaqsan. Ruhumuz birgə yaşayır. Hiss etmirsən.

Qız etiraz etməyə güc tapmadı. Vüsalın ağuşuna sığındı.

- Ola bilər. Sizə biganə deyiləm. Qəribədi. Sizinlə virtual dünyada necə görüşürük?

- Ruhun virtual dünyada atanla görüşürmü?

Qız tutuldu.

- Atamsız mənə çətindi.

- Atanın ixtira etdiyi kompüter səni virtual aləmə aparır. Mən internetdə olarkən səni görürəm. Danışırıq. Runun Ağ Yolda işıqdı. Bəzən biz cənnətəbənzər bir məkanda görüşürük.

- Xatırlayıram...

* * * * * * * * *

Vaxt keçir, Valehdən xəbər çıxmırdı. Əsli isə özünü xoşbəxt göstərməyə çalışaraq olanları ətrafındakılardan gizlədib sevgilisinin qayıdacağı günü gözləyirdi. Lakin zamanla ümidləri ölür, bədbinləşirdi. Həkim olduğundan depresiyaya düşdüyünü bilir və körpəsinə zərər verməmək üçün çıxış yolu axtarırdı.

Tibb universitetini bitirdi. Yaşamaq, işləmək və unutmaq üçün Amerikanın başqa ştatına köçdü və oradakı klinikalardan birində işə başladı. Bir gün xəstələrin xəstəlik

www.kitabxana.net – Milli Virtual Kitabxana

tarixcəsi ilə maraqlanarkən Valehin adı ilə rastlaşdı. Oxuduqlarına inanmayıb dəhşətə gəldi.

- Kor! Ola bilməz! – qeyri-ixtiyari qışqırdı.
- Nə olub? – Tibb bacısı yaxınlaşdı.
- Xəstə nə vaxt müayinədən keçib?
- Keçən ay...
- Nə olmuşdu!
- Görmürdü... Qəribə xəstə idi. Köməksiz normal hərəkət edirdi.
- Niyə?
- Görmə orqanları və ara beyini qaydasında idi.
- Bəs niyə görmürdü?
- Psixoloji problemi vardı.
- Əsəbləri pozulmuşdu?
- Yox, görmək istəmirdi.

Əsli öz-özünə danışırmış kimi:

- Mənə görə! – dedi.

Valehin ünvanını götürüb yaşadığı evə getdi. Tapmadı.

* * * * * * * * *

Nəvələri getdikdən sonra Səlimgil böyük evdə tək qaldılar. Elşadgil gəlib-getsəlr də boşluğu doldura bilmədilər.

Bir gün naharda Zeynəb ötən günlərin həsrəti ilə:

- Uşaqlarımız quşlar kimi köç etdilər. – dedi.

Səlim təsəlliverici tərzdə:

- Əzizim, fikir etmə! – söylədi. – Əvvəldə də, sonda da təklik var. Hərə öz yolu ilə getməlidir.

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Nə deyirəm? Təki canları saq olsun! Allah bizi bir-birimizə çox görməsin.

- Amin! – Leyla təklikdən qorxurmuş kimi dilləndi. Elşadın mehriban baxişlarıyla rastlaşıb, rahat nəfəs aldı.

Elə bu vaxt qapı döyüldü.

- Açıqdı, gəlin!

Ortaboylu, yaraşıqlı bir qadın tərəddüdlə içəri girdi.

- Bağışlayın, sizi narahat etdim!

- Narahatçılığı yoxdu. – Səlım diqqətlə qadına baxdı. – Xoş gəldin, qızım!

- Mən Gövhərəm... Rəşidin tələbə yoldaşı...

- Tanıdım, qızım! – Səlim ona yer göstərdi. – Oğlum dünyasını dəyişib...

- Dünən bilmişəm... – Tututulmuşdu, birtəhər davam etdi. – Rusiyada yaşayırdım. Rəşidin başına gələnlərdən xəbərim olmayıb. Bakıda maraqlandm...

- Sağ ol, qızım! – Zeynəb ürək yanğısı ilə danışan, haldan-hala düşən gənc qadının kimiyini bildiyindən: – Niyə oğlumdan ayrıldın?! – dedi.

- Özü məni qovdu. – Gövhər birgə keçirdiyi günləri xatırladıqca için-için ağladı. – İşlərinə mane olduğumu dedi. İncidim. Sözlərinin ciddiliyinə inandım. Xəstəliyə tutulduğunu bilmədim.

- Oğlum elə idi. Heç kimə əziyyət vermək istəmirdi. Səni çox sevirdi. Özündə olmayanda tez-tez adını çəkirdi.

Gövhər susdu. Qəlbinə axan göz yaşları yanaqlarını islatdı.

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Qızım, evlisən?
- Bəli! – Günahkarcasına dilləndi.
- Bizləri unutma! Yoldaşın razı olsa gəl!
- Yaxşı.

Gövhəri yola saldıqdan sonra Səlim narazılıq etdi.

- Niyə onu incitdin? Özünü bilməməzliyə vura bilərdin...
- Oğlumu onda tapdım!
- Yenə başlama...
- İnanmırsan?! Rəşidin ruhu onunla yaşayır!

Gövhər o gündən sonra Səlimğilə tez-tez gəldi. Bİr dəfə getməyə hazırlaşanda Valeh əlində yol çantası içəri girdi. Doğmaları ilə görüşüb hal-əhval tutdu. Ona yaxınlaşdıqda Rəşidin ruhu coşdu, Valeh birtəhər özünü toxtayıb kənara çəkildi. Amma qəlbindəki qeyri-adi sevincdən baş açmayan Gövhər ona diqqətlə baxırdı. Bir anlıq göz-gözə gəldikdə yerindəcə donub qaldı.

- Rəşid?!
- Yox, bacım... – Elşad vəziyyətin nə yerdə olduğunu anlayaraq tez irəli yeriyib qardaşını qucaqladı. - Əzizlərim, qardaşlarım, necəsiniz?! Niyə ikiniz bir cisimdəsiniz?
- Rəşidin gözləri məndədir.
- Niyə!
- Görmürəm...
- Dözümlü ol. Düzələr... Əsli ilə dalaşmısan?
- Haradan bilirsən!
- Rəşid dedi. Niyə dərdini bizlərlə bölmək istəmədin, tənha yaşadın?
- O halda qarşınıza çıxammazdım.
- Rəşidsiz nə edəcəkdin?

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Bilmirəm...

Qardaşlar sirlərinin açılacağından qorxub söhbəti dəyişdilər.

- Şükür, gəldin. Ev-eşiyinə sahıb çıx.

- Sağ olun! – Köksünü ötürdü.

- Əsli hanı? – anası soruşdu.

- Buradayam, anacan! – Əslinin səsi gəldi. Valehin gözlərinə qaranlıq çökdü. Rəşidin ruhu onu tərk etdi. Qorxdu. – Nəvənizi də gətirmişəm!

- Kimi?! – Valeh arxaya çevrildi. Əvvəlcə tor gördü. Bir neçə saniyəyə dünyası işıqlandı. Körpəni qucağına alıb mənalı-mənalı Əsliyə baxdı.

- Haradaydın?!

Əsli incik və küskün tərzdə:

- Atdığın yerdə... – dedi. – Dərdini məndən gizlətdin. Yəni o qədər etibarsiz idim?

- Yavaş danış, atamgil bilməsin. İndi görürəm.

Əslinin gözləri yaşardı. Yaxınlaşmaqda olan qaynanasını qucaqlayaraq:

- Anacan, tibb universitetini bitirdim. – söylədi. - Həkiməm. Daha birgə yaşayacağıq, burada işləyəcəyəm.

- Şadam, qızım! – Zeynəb gəlinini öpdü. Nəvəsini qucağına alıb bağrına basdı. – Allahımdan razıyam. Övladlarımı mənə qaytardı.

* * * * * * * * *

www.kitabxana.net – Milli Virtual Kitabxana

Görüş Gövhəri sarsıtmışdı. O, Valehin gözlərini-Rəşidin baxışlarını unuda bilmir, hər yerdə onu yanında hiss edirdi. Həmişə, hətda ondan ayrilanda da birgə idilər-ruhən. Lakin indi onun hərarətini duyur, toxunuşunu, öpüşünü hiss edirdi. O, yenə qarabasmalarının baş qaldırdığını güman edib güzgüyə yaxınlaşdı. Rəşidin gülümsəyən cöhrəsini gördü. Güzgüdə sevgilisini oxşadı. Sonra göz yaşları içində çarpayısına uzanıb doyunca ağladı.

- Tanrı, mənə ölüm ver! – Hüşunu itirdi.

Uzaqdan Rəşidin səsini eşitdi.

- Sən yaşa, sevgilim!

- Sənsiz sənlə yaşamaq çətindir. Ruhun mənə əzab verir!

- Bağışla, ruhumla bacarmıram... – Rəşid röyada ona yaxınlaşıb əlindən tutdu. Birlikdə kainatın dərinliyinə doğru uzanıb gedən Ağ yolda uçaraq səmadakı ruhların arasından keşdilər.

Rəşid:

- Şəhidlərin ruhudur. - dedi. – Vətənləri, əzizləri üçün narahatdırlar. Onlar can qoyduqları yurd yerlərinin tapdanmasına dözə bilmirlər! Fəzada tüğyan edir, səmanı qarışdırır, bulurları ağladırlar.

- Sən də məni ağladırsan...

- Bağışla, əzizim... Vaxtında sevgimi verəmmədim. İndi biliklərimi sənə verib gedəcəyəm. Yarımçıq elmi işimizi tamamlamalısan.

- Sənin kimi düşünmək sənlə yaşamaq deyilmi?!

- Hər zaman birgəyik-eyni və ya fərqli məkanda yaşamağımızdan asılı olmayaraq.

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Bilirəm, incidim, uzaqlara getdim. Qürbətdə sənsizlikdən çox əzab çəkdim, xəstələndim. Həkimlər ruhi xəstə olduğumu dedilər. Bakıya qayıtdıqda həmin vaxtlar sənin də ağır xəstə olduğunu bildim. Onda ruhlarımızın bağlılığını anladım.

- Bağışla, sevgilim, sənə əzab vermişəm.

- Yox...

- İndi nə hiss edirsən?

- Dərin həsrət və hüzn!

- Həsrətinlə yaşayıram! Hər iki dünyamda varsan.

Söhbət edə-edə səmada iki yol ayrıcına gəldilər. Rəşid sevgilisinin əlini ürəyinin üstünə qoydu.

- Qəlbim həmişə sənin olub. İndi şüurum da sənlə yaşayacaq. Yarımçıq qalmış işimizi davam etdir. Sənin elmi açıqlamaların olmasa Valehin iqtisadiyyatla bağlı elmi işləri qəbul edilməyəcək.

- Müxtəlif ətalət sisteminlərində zaman və məkan məsələsini aydınlaşdırım?

- Daha böyük anlamda. Yadındadırmı, ruh olub səmanı gəzsəydim çox şeyi aydınlaşdıra bilərdim demişdim.

- Aydınlaşdırdın?

- Hə. Bir, iki, üç və çoxölçülü fəzalar üçün zaman, məkan anlayışlarını aydınlaşdırdım. Yer planetindəki hadisələrə ikiölçülü məkanın zamana görə dəyişməsi kimi baxmaq olar. Zaman sadəcə vaxt yox, həm də enerji daşıyıcısıdır. Varlıqların ömrü bu baxımdan izah olunur.

- Bəs o biri planetlərdə zaman əhəmiyyət kəsb etmir.

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Zamansız məkan yoxdu. Üç və çox ölçülü fəzalarada zaman əsasən sürətdir. Yaşama görə enerji daşıyıcısı, planetlərarası fəzada hərəkətin sürətidir. Həyatın ikinci, üçüncü və dördüncü pillələrində yaşayan seçilmişlərin hərəkəti buna görə mümkündür. Ona görə seçilmişlər bir göz qırpımında böyük məsafələri qət edib insanların köməyinə çatırlar.

- Başa düşmədim...

- Həyat beş mərtəbədən ibarətdi. Birinci mərtəbədə dunyaya gələn bütün varlıqlar-adamlar yaşayırlar. İkinci, üçüncü mərtəbədə Allaha yaxın olanların məkanıdır. Dördüncü mərtəbə haq yolunda ölənlərin-şəhidlərin məskənidir. Mən bu mərtəbədə yaşayıram. Oradakı insanlar ölmürlər, əbədiyyətə qovuşurlar.

- Bəs beşincı?

- O qəbir evidir.

- Maraqlıdır. Nə qədər çətin olsa da səni xəyallarımda, şüurunu beynimdə yaşadacağam. İkili həyat sürmək çox çətindir. Səni qəlbimdə yaşadıb məni dünyalar dünyalar qədər sevən o, bədbəxtin üzünə necə baxacağımı bilmirəm! Çətin dözə bilim...

- Dözməlisən! Sənsiz bu dünyadakı missiyamı başa çatdıra bilmərəm. Yenidən ölərəm, həyatın beşinci pilləsinə-qəbir evinə yollanaram.

- Haqsızlıqdı!

- Taleyimizdi... Barışmalıyıq! Tanrı seçilmişlərə yarımçıq işlərini tamamlamaq imkanı verib. Amma biz bu dünyada real olmadığımızdan gücsüzük. Sevdiklərimizin ruhunda, şüurunda yaşayayırıq. – Səmada tüğyan edən narahat

www.kitabxana.net – Milli Virtual Kitabxana

ruhları göstərib: - Onlar missiyalarını başa çatdırmamış şəhidlərin ruhudur. – dedi. – Biz vətənimizin səmasını qoruyur, el-obamızın azad olacağı günü gözləyirik.

Rəşid sevgilisinin alnından, nəmli gözlərindən öpdü.

- Get, sən yaşa, əzizim! Yaşa ki məni də yaşadasan. Biz artıq yol ayrıcındayık, ayrılmalıyıq. Məni sevinclə xatırla. Bil ki sən əzab çəkəndə ruhum parçalanır. Narahat ruhlarımız göyləri tələtümə gətirir!

Ayrıldılar. Rəşid işıq olub Ağ yolda gözdən itdi. Gövhər ölü vəziyyətdə uzandığı yataqdan qalxıb həyat yoldaşı ilə üzbəüzə dayandı.

- Haradayam!

- Əzizim! – O, Gövhərin əllərindən tutub diqqətlə gözlərinə baxdı. – Məni bərk qorxutdun!

- Ölmüşdüm!

- Yox ölməmişdin... Hərdən sayıqlayırdın, Rəşidin adını çəkirdin.

Gövhər qızardı. Xəcalətindən nə deyəcəyini bilmədi.

- Narahat olma...

- Sağ ol! – Qalxıb pəncərəyə tərəf getdi. Ay bədrləmiş, göy üzü nura qərq olmuşdu. – Nə gözəl işıqlı, sakit gecədir.

- Gecə deyil, səhər açılır.

Gövhər köküs ötürüb ay doğan səmaya baxdı. Baxışları ilə Ağ yolda ulduza çevrilmiş narahat ruhlarla salamlaşdı. Şəhidlər duyulduğunu hiss edib ağladılar, yer üzünə nur çiləndi. Təbiət nurdan su içib çanlandı.

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Ey Adəm övladları, nəfsinizdən qorunun, Dünya adlı cənnətinizi qoruyun! – söylədi. – Zalımın zülmünə, dünyanın ədalətsizliyinə qalıb gəlmək üçün zamanın düşünən beyni olun!

www.kitabxana.net – Milli Virtual Kitabxana

FANTASTİK POVEST

www.kitabxana.net – Milli Virtual Kitabxana

Fateh

Yuxu

Kainatdakı qalaktikalar, sistemlər dəyişərək, planetlər fırlanaraq yaşasalar da sonsuzluqda sükünətdə idilər. Sükünətsə bəzən sükuta qərq olaraq səmanı dondurur, təbiəti, varlıqları fərqli göstərir, insanların şüuruna təsir edirdi.

Belə anlarda Gülnar ətraf aləmi yalnız hiss edir, həyatın qəribəliklərini duyur, zamana boylanıb yaxın və uzaq gələcəyi görür, reallıqdan uzaqlaşıb xəyallar aləminə düşür, xəyalən tanımadığı yerlərə uz tutur, sonsuzluğa doğru uzanan yollardan keçir, meşələrin üstü ilə uçaraq yaşıllığa qərq olmuş mənzərəli bir kənddə yerə enirdi.

Hər dəfə doğmalıq hiss etdiyi, runən bağlandığı bir ocağa baş çəkir, evin otaqlarını, bağ-bağçanı gəzir, eyvandan meyvə bağını, uzaqdan görünən meşəni, başı buludlara çatan dağları seyr edirdi.

Gülnar şəhərdə doğulmuş və yalnız şəhər həyatı görmüşdü. Həkim olduğundan bilirdi ki, yuxugörmə xarici aləmdə və orqanizmdə gedən fizioloji proseslərlə bağlıdır. Xəyallar ayıq halda görülən yuxulardır. Heç vaxt görmədiyi yerləri necə xəyal etməsini anlamır, öz sirli dunyasında tənha yaşayırdı.

Keçirdiyi hislərə həkim gözü ilə baxıb:

- Səbəbsiz nəticə olmur! – deyirdi.

www.kitabxana.net – Milli Virtual Kitabxana

O, öz üzərində müşahidə apararaq hiss və duyğularını araşdırdı. Sonda nəticələri ümumiləşdirib xarakteristika yazdı.

"Qəribəyəm. Həyatdan nə istədiyimi bilmirəm. Fərqli olduğumdan insanlar arasında özümə yer tapammıram. Sıradan birisi olmaq istəyirəm, bacarmıram. Hamı kimi düşünmək istəyirəm. Alınmır, xəyallar məni məndən alıb öz dünyasına aparır. Mənimlə ikinci bir mənin yaşadıqını hiss edirəm. O, məndən güclü, ağıllı, cəsarətlidir. Dostum, yoldaşım, sirdaşımdır. Kim olduğunu bilmək istəyirəm. İtirəcəyimdən qorxuram!"

Gülnar bilirdi ki, xəyallarının sirrini yalnız yuxuları açа bilər. İtirmək qorxusunu unudub röyalarını öyrənməyə başladı.

Bununçün yuxularının fazalarına nəzər saldı. 7-8 saatlıq yuxu 4-5 tsikldən ibarət olduğundan buna 5 gün vaxt sərf etdi. Tsiklin həm ləng, həm də tez yuxu fazalarını nəzərə aldı. Zəngli saatla gecənin müxtəlif vaxtlarında ayıldı. 2-3 gün həyatı (sevinci, kədəri, sarsıntıları) ilə əlaqədar röyalar gördü. Sonrakı günlərdə xəyalən uçduğu yerlərdə oldu, qəribə adamlarla görüşdü.

Dəyişkən simalara baxdıqca təəccüblə:

- Allahım, adamın da bu qədər üzü ola bilər! – dedi.

Qeybdən səs gəldi.

- Gördüyün simalar bir üzün arxasındadır. Adamların daxili aləmini əks etdirirlər. Həyatda Mənini tapmayanlar bu cür çoxüzlü olurlar!

www.kitabxana.net – Milli Virtual Kitabxana

Gülnar yuxularını izləməklə xəyallarının sirrini öyrənmək istəyirdi. Lakin şüuraltı duyğular onu yeni dünyaya apardı. Təxəyyülü reallığa çevrildi. Royadakı üzlərlə həyatda da rastlaşdı. Adamların düşüncələrini oxudu, çoxüzlü simalarından qorxdu.

O, işini yekunlaşdırdığını zənn edib 6-cı gün dərin yuxuya getdi. Ayılarkən əvvəlki həyatına qayıdacağına ümid edirdi. Yanılmışdı...

- Qızım, bu qədər də yatmaq olar! Dur!
- Yaxshı, anacan!
- İşə gecikəcəksən.
- Bağışla... – Heyrətdən dondu.- Anacan, çox gözəlsən!
- Nə?!

Gülnar anasının daxili dünyasında qonaq idi. Astadan:

- Qəlbini görürürəm! – dedi və onun köksündə sığındı. – İşıqlıdı, gözəldi.

Məni səsləndi.

– Anan özünü sizlərdə tapıb! Qəlbindəki işıq saf, əvəzsiz və təmənnasız ana sevgisidir!

Röyalardan ayıla bilməyən Gülnar sevginin nurundan xumarlandı. Qorxunc simaları görəcəyindən ehtiyat edib gözlərini bərk-bərk yumdu...

İnam

www.kitabxana.net – Milli Virtual Kitabxana

Günəş səmanı işıqlandırdıqca Gülnarın qaranlıq düşüncələri nurlanır, hisləri saflaşırdı. O xəyallardan azad olduğuna ümid edib göy üzünü seyr etdi. Ağ buludlar və qızmızı dumanlıqlar gözlərini qamaşdırdı, vicudunu soyuq tər basdı. Üşüdüyünü hiss edib anasını qucaqladı. Ana heç nə soruşmadan qızının alnından öpdü, saçlarını oxşadı. Gülnar sevgi və nəvazişdən xoşhal olub qəlbən sakitləşdi. Anasının fikirlərini oxuduğundan hiss və duyğularından azad olmadığını bildi. Qorxmadı. Çünki, gözəl bir aləmə düşmüş, insan qəlbindəki cənnətəbənzər məkanı kəşf etmişdi.

- Anacan, hava istidir?

- Yox, qızım, şaxtadır...

Yaşıl meşəlikləri, güllü cəmənlikləri xəyal etdiyindən yanıldığını anlayıb həyətə boylandı. Hər tərəf ağappaq idi. Həmişəyaşıl ağaclar qarın ağırlığından əyilmişdilər.

- Qar yağıb...

Ana:

- Hə, dur hazırlaş. Nişanlın gözləyir... – deyib getdi.

Onun gedişi ilə otağa qaranlıq çökdü. Gülnar pəncərəyə yaxınlaşıb:

- Salam, təbiət! – söylədi.

Səmada ulduza, yerdə od kürəsinə bənzəyən qar dənəcikləri parıldayıb gözlərini qamaşdırdı. O, hiss etmədən vaxtı unudub yaşaran gözlərini qırpmadan yenə möcüzələr aləminə düşdü.

www.kitabxana.net – Milli Virtual Kitabxana

– Allahım nədən məni seçmisən? Niyə hami üçün gizli dünyanı görməliyəm?

- Ayıl, daha bəsdi! Gecikirsən. - Məni idi-özündən güclü, cəsarətli.

Tələsik hazırlaşıb ğüzgüyə yaxınlaşdı. Özünü tanımadı. Yorğun ruhu sarsılmış, ğözləri çuxura düşmüş, bənizi ağarmışdı.

- Getməliyəm, xəstələr gözləyir! – deyib evdən çıxdı.

Yol boyu nişanlısı ilə danışmadı. Xəstəxanaya çatarkən tələsik getmək istədi.

- Sənə neyləmişəm?

- Heç nə!

- Onda niyə danışmırsan, üzümə baxmırsan. – Gülnar dinmədi, nəzərlərini yayındırmağa çalışdı. Alınmadı. Nişanlısı ətrafa fikir vermədən qolundan tutub gözlərinin içinə baxdı. – Nə olub?

- Bir az narahatam.

- Nədən?

- Deyə bilmərəm...

Vüqarın qalın qaşları düyünləndi.

- Niyə, mənə etibar etmirsən!

- İş etibarda deyil. Yaşadıqlqrım özümçün də qaranlıqdır.

- Nə yaşayırsan? – Qəzəbləndi, səsi titrədi. Beynindən yüz cür fikir keçdi. Rəngi verib rəng aldı. Məyus halda geri çəkildi.

- Səhv başa düşmə... – Fikrini tamamlaya bilmədi. Oğlanın dəyişkən simasında nifrət, gözlərində sevgililərinin surətlərini gördü.

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Görünüşə fikir vermə. – Məni səslənirdi. – Sevginizə inan. Gözlərinə inamla bax. Onun qəlbində özünü görəcəksən!

Gülnarı dəhşət bürüdü, həyəcanlı halda xəstəxənaya tərəf qaçdı. Ayaqları dolaşdı, səndələdi. Dayandı. Bir anlıq sevgilisi ilə keçirdiyi günləri xatırladı. İkili duyğulardan sarsıldı. Hiss etdi ki daxilində bir neçə qüvvə mübarizə aparır. Özü, özündən də güclü məni və istəkləri...

Xəstəxanada otağına çəkilərək fikirlərini, duyğularını nizamladı. Qeyri-adi görmələrini işinə yönəldib xəstələrə dioqnoz qoydu, ruhlarını oxşadı.

Evə gec qayıtdı. Soyuqdan üşümüş, şaxtadan düşüncələrinədək donmuşdu.

- Qızım, səni gözləyirəm. Gec gəldin...

- İşim çox oldu... – Söhbətdən qaçıb otağına keçmək istədi.

Ata qızının əhvalındakı dəyişikliyi duymuşdu.

- Qızım dərdini məndən gizlətmə. – dedi. - Atanam, sənə doğru yol göstərərəm. Kömək edərəm.

Atasının səsindəki sevgi qəlbini isitdi. Həyatındakı buzlaqların şaqqıltı ilə çatladığını hiss etdi.

- Ata, köməyinə elə ehtiyacım vardı ki! –dedi. - Bilmirəm mənə inanacaqsanmı?!

- Söylə! – Alnından öpdü. – İşlərinə qarışmayacaqdım. Əzablarına dözəmmədim.

- Ata, uşaqlıqdan qəribə duyğularla yaşayıram. Şəhərdə özümü kənddə böyümüş kimi hiss edirəm. Xəyalən heç vaxt

www.kitabxana.net – Milli Virtual Kitabxana

görmədiyim meşələrdə gəzir, doğma sandığım kənd evində oluram. Böyüdükcə xəyallarım həyatımın bir parçasına çevrildi. İndi yetkin yaşımda royalarımda və xəyallarımda movcud olan o məkanı axtarıram. – Şübhəli baxışlardan qorxdu. – Ata, narahat olma, ağlımı itirməmişəm! Sənə ehtiyacım var, mənə inan! Həyatın sirlərini yuxulardan öyrənmək olar. Özüm təklikdə yuxularıma baxdım. Sirr dünyasına yuvarlandım. İndi mənə məni sevən bir insanın köməyi lazımdır!

Ata köksünü ötürüb:

- Narahat olma, qızım, hər sözünə inanıram! –dedi. - Sənə kömək edəcəyəm!

www.kitabxana.net – Milli Virtual Kitabxana

Görüş

Kamil qızını dinləyərək fikrə getdi.

- Bağışla, ata! Dərd verdim.

- Yox, bala, dərd vermədin. Sirrini açdın. Bağışla, son vaxtlar diqqətsiz olmuşam... İndi nə edəcəyimi fikirləşirəm.

- Gedək. – Gülnat atasını iş otağınına gətirdi. Burada tibbi ləvazimatlar, vidiokamera, fotoaparat, nootbuk və kiçik aparat vardı. – Atacan, bu gecə yuxusuz qalacaqsan. Aparat yuxularımı göstərəcək. Nazarət etmək, məlumatları kompüterə köçürmək lazımdı.

- Sonra?

- Hələ bilmirəm.

Gülnar uzanıb aparatın başlıqlarını gicgahlarında yerləşdirdi. 4-5 dəqiqədən sonra dərin yuxuya getdi. Yuxularında yenə sonsuzluğa doğru uzanan yollardan keçdi, meşələrin üstü ilə uçaraq yaşıllıqa qərq olmuş kənddə yerə endi. Runən bağlandığı o ocağa baş çəkdi. Bu dəfə ev boş deyildi. Bağ-bağçada qızğın iş gedirdi. Həyətdən uşaqların səsi gəlirdi. Birdən qışqırıq qopdu. 10-12 yaşlı oğlan topu götürüb dağa tərəf qaçdı.

- A bala, yuxarı çıxma! – Ana səsləndi. – Yıxılarsan, geri qayıt!

Oğlan keçi kimi dağa dırmandı. Uzaqdan gördüyü tülküyə tərəf getdi. Sıldırım qayalığı keçmək istəyirdi ki daşlar ovxalandı. O, dağın dibinə yumalandı. Daş parçaları isə arxasınca gələn qıza dəydi. Hər ikisi əzildi. Qızsa... Kiçik

www.kitabxana.net – Milli Virtual Kitabxana

zaman kəsiyində məkan sürətlə dəyişdi. Ata-ana qocaladı, oğlan böyüdü...

Kamil ata aparatdakı dumanlı görüntülərin oxunmayacağından ehtiyat edib, şəkillərini də çəkdi.

Səhər açıldı. Gülnar ayılıb atasını yanında gördü.

- Ata, gecəni yatmamısan?

- Yox, tapşırıqlarını yerinə yetirdim.

- Narahat etdim, atacan!

- Borcumdu. Nə araşdırırsan araşdır. Mənsiz qərar vermə!

- Oldu! – Gülnar materialları nəzərdən keçirib psixoloji tarixcə yazdı. Həkim kimi belə nəticəyə ki, xülyalardan qurtarmağın yolu xəyallarını reallaşdırmaqdır. Necə?!

Meşəlik və dağlıq ərazilərə görə axtarış aparmaq ağılsızlıq idi. Dağ kəndləri muxtəlif zonalarda vardı. O, şəkillərdəki şəxsləri tapacağına ümid edirdi. Gülnar dumanlı obrazları kompyuterdə işləyib aydınlaşdırdı.

- Sizləri necə tapım?!

Ata qızını çarəsiz görüb:

- Şəkilləri polisə verərik. - dedi.

- Necə? Kimi axtardığımızı deyəcəyik?

- Düzü, çətin məsələdi. Vüqara tapşırarıq... Bir yol tapıb axtarış aparar.

- Dalaşmışıq...

- Niyə?

- Susuram, fikirlərimi onunla bölüşmürəm...

- Susma! – Qısqanc gəncliyini xatırladı. – Onun yerinə kim olsa inciyər. Atanam çalışıram səni başa düşüm. Yeri gəlsə səhvini də bağışlayaram. Yadları, üstəlik cavan bir

www.kitabxana.net – Milli Virtual Kitabxana

kişini axtarmağın qəbuledilməzdir. Bəlkə, hər şeyi unudasan!

- Bacarmıram, görmələrimdən dəli olmaq dərəcəsinə çatıram. – Doluxsundu.

- Səbirli ol,qızım! Tanrı böyükdü, özü bir yol göstərəcək!

- Sağ ol, ata! Yorulmusan, get dincəl.

- Yaxşı, qızım...

Gülnar nootbukdakı şəkillərə baxaraq xəyala daldı. Xülyalar əl-qolunu bağladı. İşə gedəcəyini də unutdu.

– Sizi təxəyyülümdə yaratmışam. Kimsiniz? Niyə mənə bu qədər yaxınsınız? Varsınız, yoxsunuz?

- Varıq! – Gənc kişi danışdı. – Təxəyyül yoxdan yaranmır. Keçmiş yenidən işlənir.

- Keçmişimdə olmusunuz! Sizi necə tapım? – Kompüter söndü və yenidən yanmadı. – Nə oldu? Məlumatları da götürmədim.

Tələsik hazırlaşıb evdən çıxdı. Nootbuku yolüstü serviz xidməti olan mağazaya verib işə getməyi planlaşdırdı.

Mağazada xeyli gözlədi. Kompyuter mühəndisləri gəlmədilər. Getmək istədikdə yaraşıqlı bir kişi ona yaxınlaşdı.

- Nootbukunuzu mənə verin. Bir azdan işçilərimiz gələcəklər. Tapşıraram baxarlar!

- Sağ olun!!! – Təəccübdən donub qaldı.

- Tanışıq?

- Yox. Şəklinizi görmüşəm...

- Harada? – Gülümsədi.

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Xəyallarımda...
- Dayan, nə danışırsan?! – Məni idi.

Özünü toplayıb:

- Nə vaxt gəlim? – dedi.
- Günortadan sonra...
- Yaxşı... Kimsiniz?
- Sabir. Mərkəzin müdiriyəm.
- Sabir... – Köksünü ötürdü. – İşdən sonra gələcəyəm. – Baxışları toqquşdu. Həyacandan titrədi. Xəyallarındakı şəxsdirmi?! Gözləri qarşısında Sabirin siması dəyişərək xəyali görüntüyə çevrildi. Görüntü bəzən mülayim, bəzən qəddar sima aldı. Gülnar onun gözlərindən qaranlıq daxili dünyasını gördü. Sabirdə qoca ata-ananın cizgilərini, ölən qızın simasını tapdı. Birdən ona elə gəldi ki, özü ilə üzbəüz dayanıb. Diksindi.
- Xanım, sizə nə oldu?
- Heç... Gecikirəm getməliyəm. Xahiş edirəm kompyuteri format etdirməyin. Vacib məlumatlar var.
- Yaxşı...

Gülnar mağazaya qayıtmadı. Xəyalları ilə qarşılaşacağından qorxub birbaşa evlərinə getdi. Səhərisi gün Sabir özü Kamil atanın qapısını döydü.

- Sizə kim lazımdı?
- Gülnar xanım.
- Atasıyam, eşidirəm.
- Qızınızındı. – Kompyuteri verdi. - Təmirə gətirmişdi.
- Sağ olun! – Qonaq Kamilə tanış gəldi. Evə dəvət etdi. – Kimsiniz, qızımı tanıyırsınız?

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Dünən tanış olmuşuq. Mağazaya-servis xidmətinə müraciət etmişdi. Mən Sabir Əhmədliyəm-İKT üzrə Beynəlxalq Mərkəzin Regional Bölməsinin sədri.

- Çox gözəl...

- Qızınız kompyuterində vacib məlumat olduğunu dedi. Bağışlayın marağım güc gəldi, baxdım. Özümün, valideynlərimin, ata yurdumun, hətta dünyasını dəyişən bacımın şəkillərini, bir vaxtlar ailəmizdə baş vermiş hadisənin videolentini gördüm. Bu nece olur?!

Sabir işin nə yerdə olduğunu anlayıb xeyli fikrə getdi.

- Qızımın xəyallarıdı. İnanılmazdır. Deməli onun gördükləri həqiqət imiş.

- Maraqlıdı. Qızınızla görüşmək istərdim.

Kamil işin sonundan qorxub:

- Oğul, bu məsələni buradaca bağlayaq. – dedi. – Qızım nişanlıdı. Sizsə yəqin, ailəlisiz. Görüşməyiniz düzgün deyil. Söz-söhbət yaranar.

- Mən gördüklərimin izahını istəyirəm!

- Qızımın yuxuları, xəyallarısız...

- Niyə? O, nə üçün bizləri xəyal edir! Axı mənbəsiz heç nə təxəyyüldə yaranmır. Mən psixoloqam...

- Bilmirəm. Fikirləri oxuyur, bir simanın arxasındakı üzləri görür.

- Həkimə müraciət edin.

- Özü həkimdi...

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Qəribədi. – Gülnarın qeyri-adi baxışlarını xatırladı. – Məndə hansı üzləri gördü?! Hər halda qızınızla görüşsək yaxşı olardı.

- Mən hər şeyi danışdım... – Cibinə baxdı.

- Nə deyirəm? Siz deyən olsun. Pul lazım deyil. – Sabir narazı halda sağollaşıb getdi.

Gülnar isə Sabiri unuda bilmirdi. Xəyaları ilə rastlaşdığını duymuşdu. Lakin, onunla görüşməkdən qorxurdu. Bir müddət özündə olmadı. Həyatına, düşüncələrinə, duyğularına ağladı. Yalnız hər an daxilində səslənən "Möhkəm ol, Gözəlim! Qalib gələcəyik!" sözləri ayaqda qalmasına kömək etdi, sınmadı. Yarımçıq işlərini davam etdirmək istədi. Kompyuteri açıb işlədiyi materiallara baxdı. İnternetdəki elektron poçtlarını yoxladı. Xəbərləri oxudu, qlobal şəbəkələrdəki məlumatlarla tanış oldu. İKT sahəsindəki yeniliklər diqqətini cəlb etdi.

İKT üzrə Beynəlxalq Mərkəzin Regional Bölməsində qeyri-adi bir layihə üzərində iş getdiyi bildirilirdi. Layihənin rəhbəri Sabir Əhmədli idi.

Gülnar internetdə axtarış verib Sabir Əhmədli haqqında məlumatlara baxdı. O, düşüncələrinə hakim kəsilən yeni tanışı idi. Tərəddüd etmədən onunla əlaqə yaratdı.

- Salam...

- Salam

- Bizə görə qulluq?

- Kompyuterə görə saq olun! Əziyyət çəkmisiniz!

- Sizsiz? Şadam, görüşməliyik!

- Niyə?

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Kompyuterinizdəki məlumatlara baxmışam. Bağışlayın...

- Eybi yox...

- Şəkillərimizi gördüm.

- Necə! Şəkildəki sizsiz?

- Mənəm, ailəmdi... Niyə bizləri xəyal edirsiz?

- Bilmirəm...

- Maraqlıdı. Aydınlaşdırmaq lazımdır...

- Bütün mümkün üsullara əl atmışam. Nəticəsiz...

- Xəyallar, hislər, fikirlər, düşüncələr idarəolunmazdır. Nə qədər özümüzü güclü göstərməyə çalışsaq da bu həqiqətdir. Psixoloq kimi deyirəm.

- Psixoloqsuz?

- İKT sahəsindəki biliklərimi psixologiya ilə birləşdirmişəm. Sizin probleminizi birlikdə həll edə bilərik. Mənə etibar edin.

Gülnar etiraz etmək istədi. Həmsöhbəti virtual aləmdən ona təsir edir, fikirlərini oxuyurdu. Bacarmadı.

- Yaxşı, səhər görüşərik!

Görüşdülər. Uzun illərin tanışları kimi söhbət etdilər. Gülnar Sabirə inandığı qədər də qorxdu-yaxınlaşdıqca ona bağlanacağından, həyatını məhv edəcəyindən. Lakin, başqa yolu da yox idi.

- Yuxularımın sirrini öyrənməliyəm!

- Narahat olmayın, kömək edəcəyəm. – Nəsə eşitmək istəyirmiş kimi: - Atanız deyirdi fikirləri oxuyursunuz. – söylədi. – Haqqımda nə fikirdəsiniz?

www.kitabxana.net – Milli Virtual Kitabxana

Gülnar ötəri onun qızarmış gözlərinə baxdı.

- Yaxşı insansınız. Qaranlıq düşüncələriniz var. Aydınlaşdırammıram.

- Bu işin xeyrinədir. Sizə kömək etmək istəyirəm. Səmimi sözümdü. İnanın!

- Ailənizlə tanış olmaq istəyirəm. Məncə xəyallarım reallaşdıqca problemlərim həll olunacaqdır.

- Əlbəttə! Hazırlaşın uzaq dağ kəndinə gedəcəyik. Xəyal etdiyiniz yerlərə. - Gülnarın incə görkəminə diqqət etdi. - Kənddə olmusunuz?

- Yox!

- Gözəl Təbiət, sivilizasiyadan uzaq həyat! Tanrının bəzədiyi, unudulmuş bir məkan.

Gülnar qorxub sözünü dəyişmək istədi. Ürəyi ilə bacarmadı. Xəyalən uçduğu, ruhən, qəlbən bağlandığı el-obanın görüşünə tələsdi.

www.kitabxana.net – Milli Virtual Kitabxana

Mələk Mən

Gülnar dağların köksünü yarıb meşəlikdən keçən yollara baxaraq xəyallarını axtardı. Maşın yüksəkliyə qalxdıqda isə sıldırımlıqdan qorxub atasına sıxıldı.

Gülümsəyərək gözlərini ondan çəkməyən Sabirə əhəmiyyət verməyərək astadan:

- Of bu kişilər! Xanımı yanında gözünü məndən çəkmir. – söylədi. Beynində ”Səndən də yaxşısını taparam!” sözləri səsləndi.

- Qızım, nə deyirsən?

- Heç! – Qızardı.

Dağların havası Gülnarı xoşhal etdi. Əsəbləri sakitləşdi, qəlbini sevinc hissi bürüdü.

- Qızım, dur! Çatdıq.

- Yuxulamışam?

- Hə.

Düşdülər. Gülnar bir müddət çaşqın halda ətrafına baxdı.

– Ata, həmin kənddi. Xəyallarımdakı kənd də bir tərəfdən qayalıq, digər tərəfdən sıx meşəlikdən ibarət dağlarla əhatə olunmuşdu.

- Bilirəm, qızım! Sabirin valideynləri də şəkildəkilərdir. – Qocaları işarə etdi. – Özünü topla. Görüşməliyik!

- Sağ ol, ata! Sənsiz nə edərdim?

Sabir valideyinlərini qonaqları ilə tanış etdi.

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Gülnar xanım həkimdi. Dərman bitkiləri ilə maraqlanır. Kamil müəllim Gülnarın atasıdır. Bizimlə qalacaqlar...

- O nə sözdü, oğlum! Xoş gəlıblər! – Yaşlı ata Kamillə görüşdü.

Gülnar qocalarla görüşdükcə həyəcanlanır, halbahal olurdu.

Ana isə onu təkrar-təkrar qucaqlayıb:

- Xoş gəldin, qızım! – deyərək doluxsundu.

- Sağ olun!

Sabir:

- Bir azdan qayıdacağam. – söyləyib yoldaşı ilə getdi.

Kamil qoca ata ilə bağçanı gəzdi. Hər tərəf qızının röyalarındakı kimi idi. "İlahi bunlar nə deməkdir!"

- Sabirdən başqa övladınız varmı?

- Hə, iki qızım var. Şəhərdədirlər.

- Kənddə darıxırsınız?

- Yox, uşaqlarımız gəlib-gedirlər. – Köksünü ötürdü. – Burada tək deyilik. Qızımızlayıq... – Uzaqdan görünən qəbiristanlığı işarə etdi.

Kamil söhbətin ölən qızdan getdiyini başa düşüb susdu.

Sabir evə tək qayıtdı.

- Qızı anası buraxmadı.

Ana narazılığını biruzə verməyib:

- Eybi yoxdu. – söylədi.

Kənddə Gülnarın xəyalları reallığa çevrildi. O, bu xoş reallıqla uzun müddət yaşaya bilməyəcəyini anlayıb onu dağlara gətirən əsl səbəbi öyrənməyə çalışdı. Lakin vaxt keçdi, nəticə alınmadı.

www.kitabxana.net – Milli Virtual Kitabxana

O, son gün:

- Bacınız hansı qayadan yıxılmışdı? - deyə soruşdu.

Sabir yaxınlıqdakı hündür qayalığı işarə edib:

- Oradan... – dedi. - Zirvəyə çatmamışdıq...

- Gedə bilərik!

- Bilmirəm...

- Qızım, başın xarab olub? – Kamil hirsləndi.

- Ata, narahat olma!

Sabir yaşını unudaraq:

- Gedək! - deyib dağa tərəf yüyürdü.

- A bala, yıxılarsınız! Geri qayıdın! – Ana keçmiş günü xatırlayıb ağladı. – Övladlarım, qızım...

Sabir irəlidə idi. Qayalığa çatanda daşların parçalandığını xatırlayıb dayandı.

- Geri qalırsınız... Əlinizi mənə verin. Bircə gedək.

- Eybi yox. Siz gedin. Gəlirəm...

- Gülnar, bacımın yolu ilə gəlirsiniz. Hadisə təkrarlanar. Sizi itirmək istəmirəm. – Cavabını gözləmədən əlindən tutdu. – Mən irəlidə tülkü görmüşdüm.Uşaqlardan qaçırtdığım topu unudub ona tərəf gedirdim. Tülküyə çathaçatda ayağımın altındakı qaya parçalandı. Daşlar bacımı tutdu.

Gülnarın daxilindən gizli bir üşütmə keçdi. Başı hərləndi. Mələyə dönmüş balaca qızın ona uzanan əllərindən tutub özünü toxtaddı.

- Kimsən!

- İndi sənəm. Daxilindəki mələk MƏN mənəm!

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Gülnar, niyə dayandınız? Gedək... – Sabir onu qayalığın üstündəki yamaca tərəf apardı. Yamac başı buludlara çatan dağların ətəyində idi.

- Yaxşı...

- Deyirsiz buralarda tülkü olur? Maraqlıdı, görmək istəyərdim.

- Görmədiz?

- Yox.

- Mən o vaxt da indi də buraya onun arxasınca gəldim. İndi də... Qarşımızda idi. Sizə tərəf çevriləndə itdi.

- Tülkü yox idi. Sizə elə gəlib.

- Yenə yanılmışam! O vaxt hər tərəfi axtardılar, tapmadılar.

Sabir gödəkcəsini yerə sərdi.

- Gəl dincələk.

- Yox... – Sən Gülnarı qorxutdu. – Qayıtmaq lazımdır...

- Yorğunuq, yol uzaqdı. Gəldiyimiz yolla qayıtmaq çətindi. Dağın başına dolanmalıyıq.

- Gec olacaq. Vaxt keçir.

- Narahat olma! – Gülnarın əllərindən tutub gözlərinə baxdı. – Sən fikirləri oxuyursan. Məni oxu görüm!

- Burada görmələrim dayanıb – söyləyərək geri çəkilmək istəyirdi ki Sabirin qaranlıq daxili dünyasına düşdü. Zamanla düşüncələri, duyğuları qaraldı.

- Mübarizə apar, bacım! Biz qalıb gələcəyik! – Balaca Mələk idi. Gülümsəyərək Gülnarın ruhuna qonub Sabirin daxili aləmini nurlandırdı.

Onlar üz-üzə dayanıb ruhlarının xatirələrini yaşadılar. Körpə vaxtlarını, cavan atalarını gördülər.

www.kitabxana.net – Milli Virtual Kitabxana

Ağlayırdılar. Ataları əllərindən tutub evə apardı.

- Nə olub? – Anaları soruşdu.

- Heç nə. Biri suya girmişdi. Təpindim. Səs-səsə verdilər.

- Ekizdirlər axı... Xətirlərinə dəymisən. Gözəllərim, sizə nə olub!

- At..a..a, at..a..a.. – İkisi də kekildədi.

- Atanın sözünə baxmaq lazımdı.

- Ata pis..s..s..

- Uşaqlarına yeyə dur! – Hirslənib getdı.

Atanın gedişı ilə zaman dəyişdi. Uşaqlar böyüyüb 9-10 yaşlarına çatdılar. Həyətdə qonşu uşaqlara oynayırdılar. Birdən Sabir topu götürüb dağlara tərəf qaçdı...

- Ay bala, getmə! Dağa çıxma, yıxılarsan! - deyən anasını eşitmədi.

Gülnar dəhşətli ağrı hiss etdi. Gözlərinə qaranlıq çökdü. Hadisələr geriyə döndü. Qonşu oğlanın zərbə ilə atdığı topun ağrısını üzündə hiss etdi. Ağladı.

Sabir Gülnarın alnından öpüb:

- Əzizim, ayıl! – dedi.

O isə özündə deyildi. Gördüyü hadisəni yaşayırdı.

Balaca qız Sabirin arxasınca getdi. Qayalığa çıxmağa başladılar.

- Bacı, qayıt!

- Yox...

- Yuxarıda tülkü var. Baxıb ğələcəyəm.

- Mən də, mən də...

www.kitabxana.net – Milli Virtual Kitabxana

Az getmişdilər qayalıq parçalanıb qızın başına töküldü. Hər ikisi yıxıldı. Sabir zədələndi, bacısı öldü.

Gülnar ağardı, vicudu titrədi, buza döndü.

Sabir onun əllərini ovuşdurub:

- Əzizim, kimsən bilmirəm! – dedi. – Qəlbimə yaxınsan, dəlicəsinə vurulmuşam. Sənə nəsə olsa özümü bağışlamaram!

Gülnarsa heç nə eşitmir, Mələk Məni ilə vidalaşırdı.

- Sən ən saf hislərim, xoş duyğularımsan. Niyə məni tərk edirsən!

- Səni Gülnarla baş-başa buraxıram. Daxilindəki ən saf Mənin ekiz tayımdı. Qardaşımıza kömək et. – O, Sabirin qaranlıq dünyasını işıqlandıraraq yox oldu. Lakin qara fikirlər yenə onun qəlbinə kölgə saldı. Gülnar onun qaranlıq həyatını oxudu.

* * * * * * * * *

Sabir təbii hadisələri proqramlaşdıraraq qeyri-adi tətbiqi proqramlar tərtib etmək, İKT – nin vasitəsilə şüurlarda inqilab edəcək yeniliyə imza atmaq istəyirdi. O, məqsədinə çatmaq üçün proqramçılığa aid biliklərini tibbi psixoloiya ilə birləşdirərək ağıllı proqramlar tərtib etdi. İşləri böyük şirkətlərin marağına səbəb oldu, birgə işləmək üçün təkliflər aldı.

Lakin ailəsinin həyatına müdaxiləsi işlərini ləngitdi.

- Oğul, evlənmək lazımdı. Vaxt keçir, yaşlaşırsan.

- Ata, ailə çətin məsələdi.

- Çətin olmaz. Təhsil almısan, işin var.

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Hələ ailə qurmağa hazır deyiləm. Bacımdan sonra həyatda özümü tapa bilmirəm. Yarımam...

- Keçmişi unut! Biz hamımız yarımıq. Xanımınla tam olarsan.

- Atan düz deyir. Xam xəyallarla yaşama. Əvvəl bacılarını bəhanə edirdin. Daha onlar da köçüb.

- Gəlindən əvvəl qızı köçürmək lazımdır da!

- Yaxşı fikirdəsən!

- Anacan, incimə! – Üz-gözündən öpdü. – Zarafat edirəm.

- Kişi ol!

- Çalışaram...

- İstədiyin varmı?

- Ay, ana, oxumaqdan başım açılıbmı ki istəyəm də! Kimi desəniz onunla evlənəcəyəm.

- Birdən sonra yollaşammazsınız.

- Mən ilanla da yola gedərəm. Təki sizi eşitsin.

Ana oğlunun hümanistliyinə bələd idi. Ona insanlığı olan bir qismət arzuladı.

- Allah köməyimiz olsun!

Az keçmiş Sabir qonşu kənddən bir qızla evləndi. Əvvəllər hər şey normal idi. Sonradan ailədə narazılıq yarandı, gənc ailə sərbəst yaşamaq üçün şəhərə köçdü. Gəlinin daha yaxşı yaşamaq arzusu Sabirin işlərini yenidən canlandırdı. O, təmannasız, sevərək yaratdığı ideyalarını satdı...

Gülnar Sabirin həyatını yaşadıqca gah təngnəfəs olur, gah da boğulurdu.

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Daha bəsdi, əzizim, ayıl! – Əllərindən öpdü. Hislərini cilovlayammayıb ağladı.

- Qardaşım, saf qardaşım! Nə ağır həyatın varmış?!

- Şükür məni elə qorxutdun ki!

- Həyatını gördüm, hislərini yaşadım. Axıra qədər dözəmmədim.

- Deməli ona görə dəhşət içində idin?!

- Hə. Mələyə dönmüş ekiz bacımız da artıq sənindədir. Narahat olma yaxşı olacaq...

- Niyə ekiz bacımız!

- Mən ömrüm boyu o balaca Mələyin ruhunu yaşatmışam. Daxilimdəki Mələk MƏN o olub.

- Bacılarım!!! Yarımlarım!!!

Mənə:

- Səni Gülnarla baş-başa buraxıram. Daxilindəki ən saf MƏNin ekiz tayımdı. Qardaşımıza kömək et. – dedi.

– Həyatındakı görmədiyim məqamları danış.

- Nə görmüsən?

- Narahatçılıq, problem...

- Bacımdan sonra yarım qaldım. Həyatımı qura bilmədim.

- İşin, ailən var.

- Hər ikisində çözülməyəcək problemlərim var.

- Danış, qardaşım!

- Bəlkə də özün başa düşmüsən. Ailəmizdə narazılıq var.

- Yoldaşın valideynlərinlə görüşmədi.

- Hə. Ailəmdəki qadınların əlində qalmışam. Sözləri tutmur. Artıq hadisələrə nəzarət edə bilmirəm.

- Ananız ANAdı.

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Anamı, bacılarımı çox istəyirəm. Bura kənddi. Anamsa savadsız qadındı. Müasirliyi qəbul etmir.

- Mən tam əksini gördüm. İKT sahəsindəki işlərinizi yüksək qiymətləndirirdi. Şüurlarda inqilab edəcək bir layihə üzərində işlədiyinizdən danışırdı.

- Layihəmi! – Sirrinin açılacağından qorxurmuş kimi mövzunu dəyişdi. - Ailədəki problemlərdən işə vaxt tapmıram.

- Yoldaşınız nə ilə məşğuldur.

- Heç nə. Şəhərdə yaşayırıq...

- Yəqin, müasirlik deyəndə geyimi nəzərdə tutursunuz.

- Hə, elə kənddə də ailələri seçilir. Narazılıqdan bezmişəm... – Zəng gəldi. – Atandı.

- Qızım, narahatıq, haradasınız? Arxanızca gələkmi?

- İmkan varsa gəlin. Zirvədə özümü pis hiss etdim. İndi yaxşıyam...

- Sabirin atası deyir dağın əks istiqamətindən maşın yolu var. Siz yola tərəf gəlin.

- Yaxşı.

- Gedək! – Sabir onun səndələdiyini görüb qolundan tutdu.

- Yox, qardaşım... – Kənara çəkildi. - Münasibətlərimiz anlaşılan deyil...

Sabir ona həsrətlə baxib bir müddət susduadan sonra:

- Həmişə bacımın ölmündə özümü günahkar bilib, hamıdan qaçmışam. – dedi. - İndi də çox vaxt fikirlərim elə qarışır ki kimliyimi də unuduram.

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Günahkar deyilsən.

- Necə?! – Gülnarın xəyallarını gördü. “Qonşu oğlanın zərbə ilə atdığı top bacının üzünü tutdu. Ağladı. Sabir yaşda özündən böyük oğlana hirslənib topu götürərək dağlara tərəf qaçdı... – İndi xatırlayıram...

Dağın döşünə enib yola çıxdılar. Kamil irəli gəlib:

- Qızım, bu nə ağılsızlıqdı? – dedi.

- Bağışla, ata!

O, qızının vəziyyətindən işin hə yerdə olduğunu başa düşdü.

- Yenə nəsə gördün?

- Hə.

- Gedək!

Yol boyu heç biri dinmədi. Gülnarın rəngi solmuş, atasına sığınaraq gözlərini yummuşdu. Sabir qızı haldan-hala salan dəhşətin işi ilə bağlı olduğunu bilir, onun hisləri ilə yaşayırdı. “ Bir az döz, əzizim! Kim olursan-ol, mənimçün çox dəyərlisən. Sənin xətrinə o cəhənnəmdən qurtulacağam. Həyatım bahasına başa gəlsə belə!”

www.kitabxana.net – Milli Virtual Kitabxana

Fateh

Günəş qürub yerinə endikcə üfüq alovlanır, təbiət qızılı rəngə boyanırdı. Sabir göylərin işarəsindən vaxtın yetişdiyini anlayıb axşam düşməsini gözləməyib maşınına oturdu. Uzaqdan dan ulduzuna bənzəyən obyektə tərəf yol aldı. İrəlilədikcə ulduz qızılı rəngli binaya çevrildi. O, həyətdə dayanıb düşdü. Qapıya yaxınlaşdıqda yaddaş kartını unutduğunu xatırlayıb geri qayıtmaq istədi. Maşınını bürüyən qarışıq rənglər gözlərini qamaşdırdı. Binadan səs gəldi.

- Sabir, gəl! Təhlükəsizlik sistemi işə düşüb.
- Orada...
- Gəl!

Bazada Sabirin məlumatları olduğundan binanın daxilində sərbəst hərəkət etdi. Ötürücüləri yoxlayıb qoca professorun işlədiyi otağa yaxınlaşdı.

- Gəl, oğlum! Xeyli vaxtdı görünmürsən.
- Bir az işim vardı. İşləriniz necə gedir?
- Qaydasındadır. Amma...
- Nə olub?
- Hələ heç nə. Məncə biz düz yolda deyilik.
- Niyə?
- Özün fikirləş. Şüurlara təsir etməklə adamları idarə etmək düzgündürmü?
- Düzü mən də narahatam! Düz yolda deyilik...

www.kitabxana.net – Milli Virtual Kitabxana

Sözünü bitirməmiş bina şaqqıldadı, qapılar kilidləndi. Ətrafı vahiməli səslər bürüdü.

- Bu da son...

- Nə olur?

- Söhbətimizi eşitdilər.

- Nə olacaq!

- Hələ bilmirəm. Yəqin işi yekunlaşdırana qədər heç nə. Ehtiyacları var.

- Lənət olsun!

- Proqramı yekunlaşdırın! – Əmiranə səs otaqda əks-səda verdi.

- Kimsiniz? – Sabir soruşdu.

- Fateh! Şüurları fəth edib dünyaya hökmranlıq edəcək qüvvə!

- Bizdən istifadə edə bilməyəcəksiniz!

- Tez ayılmışınız... – İztehza ilə güldü. – Var-dövlət hərisləri, qəlbinizi şeytana satanda fikirləşəydiniz!

- Yalandır. Bizi aldatdın. İnsanları mənən saflaşdıracağımızı dedin...

- Özünüz aldanmaq istədiniz. Məgər bilmirsiniz keçmişsiz gələcək olmaz! Yaddaşları dondurmaqla kamil insan deyil robort yaratmaq olar. Hansı ki indi mən onları idarə edib dünyanı fəth edəcəyəm!

- Əclafsan! Qarşımıza çıxa bilməyən qorxaqsan...

- Ola bilər. Siz proqramı yekunlaşdırın!

- Kimsiniz? – Sabir qışqıraraq soruşdu.

- Cavan oğlan, səsinə güc vermə. Mən heç kim və ya hamı ola bilərəm. Qaranlıq fikirlərin, bəd əməllərin yaradıcısıyam.

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Mümkün deyil. Fiziki gücə sahibsən, danışırsan, qapıları qapatmısan.

- Bəd fikir, əməlәm. Hər bir iradəsiz adamın düşüncələrıdə ola bilərəm. Səni tabe etmək asan oldu. Fikirlərin qarışıq idi. Sənin Mənini daxilindəki Balaca Mələk ayıltı. Qəlbindəki sevgiyə, saflığa məğlub oldum.

- Günahsız insanları təhlükə altıda qoya bilmərik! – Qoca professor ağır-ağır dilləndi.

Qəzəbli səs:

- Hələ nəyə qadir olduğumu anlamamısınız? – dedi. - Buradan qurtuluş yoxdu.

Professor baxışları ilə sus işarəsi verib kompyuterin arxasına keçdi. Verilənlər bazasında dəyişiklik etdi. Proqramın təsir dairəsi minimuma endi. Lakin, bu müvəqqəti tədbir effektsiz idi. Az vaxtda proqram bütün şəbəkədə yayılaraq dünyanı iflic vəziyyətə salacaqdı.

Sabir Gülnarın fikirlərindən xəbər tutduğunu, onun hislərini yaşadığını bildikdən sonra gizli işlərinə son qoymaq qərarına gəldi və yratdığı proqramı məhv edəcək başqa proqram hazırladı. Onu işə salmaq üçün şəbəkədə yayılan proqramı dayandırmaq və ya təsir gücünü azaltmaq lazım idi. Bu gün də mərkəzə ona görə gəlmişdi. Professor bilmədən onun arzusunu yerinə yetirdi.

İzləndiklərindən professorla baxışaraq danışdı.

- Neyləyək!

- Heç nə. Əl-qolumuz bağlıdı. Dediklərini yerinə yetitməliyik.

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Bağışlayın! Sizi bu işə mən cəlb etdim.

- Yox, hər ikimiz daxilimizdəki şeytana uyduq. Şan-şöhrət, pula hərislik gözlərimizi bağladı.

- Bəlkə, özümüzə qarşı qəddar olmayaq. Axı məqsədimiz cəmiyyəti inkişaf etdirmək idi. Beyinlərdən mənfi düşüncələri uzaqlaşdıracaq, saf insanlarla yeni həyat quracaydıq.

- Yaddaşa müdaxilə etməklə Yaradanın işinə qarışdıq. " Fateh" düz deyir. Keçmişsiz gələcək yoxdu. Alimik. Yaddaşlardakı məlumatları dondurub beyinlərdə öz ideyalarımızı yaratmaq istədik...

- Cəmiyyətin inkişafı naminə!

- Həm cəmiyyət, həm də öz marağımız naminə. Mən elmdə öz baxışımı təqlid etmək, sənsə İKT-ni inkişaf etdirməklə bütün millətləri vahid şəbəkədə birləşdirmək istəyirdin. Bununçün fatehlər əsrlər boyu mübarizə aparmışlar.

- Mən virtual birliyi nəzərdə tutmuşdum.

- Zamanla virtuallıq reallaşacaq. Muasir dünyanın siyasi mənzərəsinə virtual aləmin təsirini görmürsənmi!

- Siyasətçi deyiləm.

- Siyasətçi olmağa ehtiyac yoxdu. Virtual aləmdəki fikir azadlığı düşüncə tərzlərini dəyişdirir. Böyük ehtimal bizim proqramımızın da burada rolu az deyil.

- Demək istəyirsiniz ideoloji silah hazırlamışıq?!

- Daha doğrusu kəşfimiz ideoloji silaha cevrilməkdədir. Biz şüurlara təsir edəcək materialları internet vasitəsilə yaydıq. O təsir edə biləcəyi istifadəçilərin beyinlərinə daxil olduqdan sonra orqanizmlərində bioloji virusa çevrildi.

www.kitabxana.net – Milli Virtual Kitabxana

Hal-hazırda ətrafa yayılmaqda, dünyada xaos yaratmaqdadır.

- Müharibələr, dağıntılar... İlahi biz nə etmişik!

- Hələ bu başlanğıcdı. Kortəbii baş verir. Beyinlər düşünmür, xatırlamır. Proqramımızın ikinci hissəsində məqsədli yönəltmə var. "Fateh" xülyasına düşənlər ideyalarını yeridib cəmiyyəti istədikləri kimi idarə edəcəklər. İdeoloji silah millətləri, dövlətləri qarşı-qarşıya qoyacaq. Kimyəvi və bioloji silahlar işə düşəcək. Dünya məhv olacaq.

- Dəhşətdi! Proqramı dayandırmaq lazımdır!

- O artıq öz işini görüb.

Sabir bir tərəfə çəkilib baxışlarını professordan yayındırdı. Qəlbində ekiz bacısını oxşayaraq:

- Balaca Mələyim, bədxahları ruhumdan qov. Onlar fikirlərimi oxumamalıdırlar. – dedi. – Gülnara ehtiyacım var. Proqramı məhv etmək lazımdı.

- Qardaşım, artıq qəlbində bədxahlara yer yoxdu. O qədər saflaşmısan ki ruhundan çıxmışam. Amma sonacan yanındayam, kömək edəcəyəm. İşində ol!

- Qorxuram!

- Qorxma şər qüvvələr qaranlığa hakimdirlər.

- Yenə narahatam!

- Sevirsən. Onu aşkar edəcəyindən qorxursan. Narahat olma. Düşmənimiz sevgi qarşısında acizdi.

* * * * * * * * *

www.kitabxana.net – Milli Virtual Kitabxana

Gülnar gecəyarı tənginəfəs yuxudan ayıldı. Royada Sabirlə danışmış, onun olduğu məkanı görmüşdü.

Qorxulu-qorxulu atasını səslədi.

- Ata..a..a..

Kamil qızının psixi vəziyyətindən qorxduğundan gecələr də sayıq yatırdı. İlk çağırışa hazır oldu.

- Qızım, nə olub?

- Sabirə kömək lazımdı.

- Nə kömək?

- O, təhlükədədir. Məndən kömək istədi.

- Axı sən nə edəcəksən!

- Onu hazırladığı proqramı məhv etməliyəm. Sabirin dediyinə görə oradakı fayllar insanlığı məhv edəcək.

- Qızım, o adamdan uzaqlaş! Bədəməldən xeyir gəlməz...

- Ata, özüm-özümdən necə uzaqlaşım. O, elə mən özüməm.

- Qızım, nə danışdığını bilirsən?

- Mənə inanmırsınız. Onun ekiz bacısının ruhu ilə dünyaya gəlmişəm. Eyni ruhdayıq, fikirlərimizi bölüşürük.

- Görüşmə, unutmağa çalış!

- Bağışla, ata, o mənim ruhumda, xəyalımda yaşayır. Görüşməyimizə ehtiyac yoxdu ki! – Qızardı, doluxsundu.

- Yaxşı, bala, inanıram. Ona nə olub?

- Güclü şər qüvvələrin təsiri altına düşüb. Kəşfindən ideoloji silah kimi istifadə etmək istəyirlər. Kömək etməliyəm. – Koridora çıxdı.

- Gecə vaxtı tək gedəmməzsən. Məni də gözlə.

Gülnar nootbukla geri qayıtdı.

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Proqram internet vasitəsilə yayılıb. Məncə onu necə zərərsizləşdirmək lazım olduğunu bilirəm.

Gülnar Balaca Mələyin ruhuna pıçıldadığı sözlərlə internetdə axtarış verib zərərverici faylları tapdı.

- Aç görək nədi?

- İndi olmaz. Açsaq görüntülərin təsiri altına düşəcəyik. Əvvəlcə faylları zərərsizləşdirmək lazımdır. Əks proqram hazırlamalıyam.

- Qızım, sən proqramçı deyilsən. Necə hazırlayacaqsan?

- Sabir hazırlayacaq.

Kamil deməyə söz tapmadı. Mat-məəttəl qızına baxdı.

Gülnar xüsusi simvollardan əmrlər komandası hazırladı. Əmrləri fikrindəki alqoritmin köməyi ilə proqramlaşdıraraq yeni proqramlaşdırma dili yaratdı. Sabirin proqramını yaratdığı proqramlaşdırma dilində yenidən işlədi. İş yekunlaşdıqda proqramda özünü "məhv et düyməsi" yarandı.

- Qızım, dayan! Faylları aç!

- Yaxşı. Mənimçün də maraqlıdı.

Fayllar kompüter qrafikası ilə işlənmiş qarışıq şəkillər, qeyri-adi səslər və mətnlərdən ibarət idi. Onlar yenidən işləndiyindən bir neçə saniyəyə dəyişməyə başladılar. Şəkillər bənzərsiz təbiət mənzərələrinə, səslər həzin, duygulandırıcı nəğmələrə çevrildi.

- Proqram yarımçıqdı. Mətn sahələri yazılmayıb. – Kamil nəticələri xəyal etdi.- Sabir bu proqramı pis niyyətlə

www.kitabxana.net – Milli Virtual Kitabxana

yaratmayıb. Gördüklərim qəlbimdə həzinlik, sakitlik, qeyri-adi xoş istək yaratdı.

- Sabirin planı o istəyi elmə, intellektə doğru yönəltmək idi.

- Bəs nə oldu?

- "Fateh" onun planından xəbər tutdu. Yer üzərindəki qullarının köməyi ilə proqramdan öz məqsədi üçün istifadə etmək istədi.

- Necə?

- Ata, bir anlığa da olsa özünü unutdunmu?

- Hə, duyğulandım.

- Həmin an şüura istənilən təsiri göstərmək olar. Adamları robort kimi idarə etmək olar.

- Yaxşı niyyətlə də olsa bu günahdı.

- Sabir düz yolda olduğunu fikirləşirdi. "Fateh"lə bilmədən əlaqə yaradıb.

- O nə istəyir?

- Yer üzərimdə xaos, müharibələr, dağıntılar...

- Parçala hökmranlıq et!

- "Fateh" şüuraltına təsir edən qüvvə olduğundan o sadəcə hökmranlıq etməyəcək. Adamları nəfslərinin qurbanına çevirərək, insanlığı, dünyanı məhv edəcək!

- Qızım, qəribə danışırsan. Anlamıram. Yəqin yenə xəyallarınla reallığı qarışdırırsan.

Gülnar tutuldu.

- Mənə inanmirsiniz!

- İnanıram...

- Ata, bunları mən yox, Sabir danışır.

- Nə deyim, qızım! Allah böyükdü!

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Mən onu sadəcə hiss etmirəm. Duyğularını yaşayır, fikirlərini oxuyuram. Onun kimi düşünə, işləyə bilərəm.

- Möcüzədi! İndi nə hiss edirsən?

- Sabir proqramı məhv etməyimi istəyir.

- Niyə? – Şəkillərə baxdı. – Bu cür gözəlliyi də məhv etmək olar?!

- "Fateh"lər ideyasından istifadə edə bilərlər.

- Onda niyə dayanmısan? Tez ol!

- Məncə proqram məhv olsa Sabiri itirəcəyəm.

- Bacıcan, vaxt keçir. Ürəkli ol! – Balaca Mələk idi. Yenə daxilində Mələk Mənə çevrilmişdi. – İnsanlığı xilas et! Biz bir-birimizi heç vaxt itirməyəcəyik. Mələklər həmişəyaşar olurlar!

Gülnar göz yaşları içində "Özünü məhv et" düyməsini çıqqıldatdı.

* * * * * * * * *

- Möcüzədi! – Professor həyacanla qışqırdı. – Proqram öz-özünə məhv oldu.

- Gözəl... Planım baş tutdu. Proqramlaşdırmada bunu nəzərə almışdım. - Köksünü ötürdü. – Əziz müəllimim, bir neçə dəqiqədən sonra bu obyekt də partlayacaq. Sol tərəfdəki güzgü lövhəyə tərəf gedin. Oradan həyətə gizli yol var. Mən qarışıq görüntü yaradıb nəzarəti yayındıracağam. Siz qaçın!

Professor mehribancasına gülümsədi. Ətrafı qarışıq səslər, qara dumanlıq bürüdü.

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Oğul, mən əqidəmi çoxdan satmışam. Nə qədər ki qəlbimin dərinliyindəki işartını da şər qüvvələr söndürməyib dur qaç!

- Sizi bu yola mən çəkmişəm. Günahkarlıq hissi ilə yaşaya bilmərəm. Gedin.

- Səhvsən, mən sənə təsir etmişəm. İstehdadına bəlli idim. Fikirlərinin qarışdığını hiss etdikdə ideyalarımla ruhuna hakim kəsildim. "Fateh" də məni bu cür yoldan çıxartmışdı. Haradan qaynaqlandığını bilmədiyim sevgin qəlbindəki Mələk Mənini ayıltdı. Bizi məğlub etdi.

- Professor siz...

- Hə, bu işdə Fateh mən idim. Mən bir azdan işlərimlə birlikdə partlayacağam. "Fateh ideyası isə yaşayacaq! – Qəhqəhə çəkib güldü.

Sabir güzgünü fırladıb həyətə atıldı. Var gücü ilə qaçaraq tozu göylərə sovrulan obyektdən canını qurtardı. Fikirlırləşmədən aydınlıqda uzanan yolla irəlilədi. Yol ayrıcına çatdı. Yanından bir maşın ötdü. Pəncərəsinə " Həyat bitər, yollar bitməz" sözü yazılmışdı.

- Həyatım bitincə irəliləyəcəyəm! – söyləyərək fikrə getdi. – Haraya, nə üçün? – Ötən günlərini xatırlayıb kədərləndi. – Geriyə yol yoxdu. "Fateh"ə qalib gəlsəm də fateh ideyasından qurtara bilməyəcəm. Ailəm təhlükə qarşısında qalacaq. – Qəlbinin ağladığını duydu. – Bu sən olmalısan, Gülnarım! Kim olduğunu anlamadım. Səni çox sevdim!

Gülnarı gizlətmək istədiyi halda onu xatırladı, özü də bilmədən adını yüksətdən həsrətlə qışqırdı. Səsindən qorxub ətrafına baxdı. Heç kim yox idi.

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Ey qəddar dünya onu sındırammayacaqsan! Şərinə qalib gələcəyəm! – dedi. – Yaraladığın xəstə ruhları sağaldacağam.

* * * * * * * * *

- Qızım, bizi yaman qorxurdun! Necəsən?
- Sağ ol, ana, yaxşıyam. Nə olub?
- Gecə atanla işləyirdiniz. Gəldi ki naxoşlamısan.
- Yəqin yorğunluqdan olub.
- Qızım, söz eşitmirsən. Necə dəfə demişəm axşamlar işləmə?
- Oldu. Daha işləmərəm. – Anasının köksünə sığındı. – Üşüyürəm, soyuqdu. – Həyətdə qar yağır?
- Nə qar, a bala! İyunda da qar olar?

Gülnar gün işığında parıldayan dənəciklərə işarə edib:

- Bəs o nədi? – dedi.
- Qəribədi. Qar yağırmış ki!
- Atam hanı?
- Getdi, işi vardı.
- Səhər-səhər nə iş?

Ana tərəddüdlə:

- Kənddə hüzn yeri düşüb. – söylədi. – Partlayış olub. Sabir də...

Gülnar anasının sonrakı sözlərini eşitmədi. Axşamkı hadisəni xatırlayıb ağladı.

- Günahkaram!

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Qızım, bu nədir? Yad birisi üçün... – Qapı döyüldü. – Görüm kimdi? – Getdi.

- Ağlama, bacıcan! – Balaca Mələk qəlbini oxşadı. - Sabir yaşayır.

- Şükür Allaha, haradadır?

- Çox uzaqda. O, yeni həyata başlayıb. Axı bir yolun sonu o birinin başlanğıcıdır.

- Eybi yox, təki sağ olsun! Proqramı məhv edəndə onu itirəcəyimi bilirdim. Sağ ol ki dedin!

- Günahkarlıq hissi ilə yaşamağını istəmədik. Sabirlə eyni məlumata maliksiniz. Qəlbin qaralarsa "Fateh" şüurunu fəth edər. İdeyalarınızı oğurlayar, dünyanı məhv edər.

- Sağ ol, Mələyim! Sənə bacım deyəmmirəm, özümsən.

Balaca Mələyin ruhu işığa çevrilib səmadakı qar dənəciklərini parıldatdı.

- Əzizlərim, artıq mən həyatdakı missiyamı başa vurdum. Sizləri özünüzlə baş-başa buraxıb gedirəm.

Gülnar pəncərəyə yaxınlaşaraq uzun-uzadı onun arxasıca baxdı. Tənhalıqdan qorxdu. Yox olmaq, onun arxasınca uçmaq istədi. Nəinki cismən, heç ruhən də uça bilmədi.

- Ayıl, Gülnar, həyat özü sirdi. Xəyallarında möcüzə axtarma. – Sabirin səsi idi. Sevincdən gözləri yaşardı.

- Sabir! Şükür ki sağsan... Mənimləsən...

- Biz həmişə birgə olmuşuq. İndi mən də həyatın gizli tərəflərini, bir üzün arxasındakı üzləri görürəm.

- Dəhşətdi...

- Yox, gizli həmişə qaranlıq demək deyil. Diqqətli olsan təbiətin gözəlliklərini görəcəksən. Bir üzün arxasındakı

www.kitabxana.net – Milli Virtual Kitabxana

üzlərdən qorxma. Hər bir İNSANın yaxşı cəhətləri var. Çalış onu görəsən.

- Çətindi...

- Çətin olmayacaq. Birlikdə bacaracağıq. Görmələrimizdən istifadə edib insanların yaxşı cəhətlərini üzə çıxardacağıq. Xəstə ruhlar sağalacaq. – Nura çevrilməkdə olan Sabir gülümsəyərək xüdahafizləşdi. – Sağlıqla qal!

- Gedirsən...

- Yox, Ruhekizim!

Gülnar onu ruhən yanında hiss etdi. Qəlbi xoş duyğularla doldu. Ətraf gözündə gözəlləşdi. Qarlı yaşıl ağacların, gül kollarının qeyri-adi görüntüsünə heyranlıqla baxdı.

- Təbiət çox gözəl imiş!

- Doğrudur, gözəlim! – Nişanlısı məyus halda əlindəki qızıl gülləri ona verib: - Bağışla! – dedi.

Üstü qarlı güllər tikanlı olsalar da çox incə idilər. Ətirləri otağı bürüdü.

- Gözəldi! – Gülümsədi.

- Dostunun öldüyünü eşitdim. Sənin üçün ağır olacağını fikirləşdim. Başın sağ olsun!

- Dostum deyil. Ekiz qardaşımdır. Onu çox istəyirəm, incimə...

- Səni başa düşməyə çalışıram. İstəksiz həyat yoxdu. Bax o güllər də sənin əllərində gözəlləşdi. Onları sevdin?

- Sevdim...

www.kitabxana.net – Milli Virtual Kitabxana

Qeybdən səs gəldi.

Yaradanı, həyatı, insanları, təbiəti sevin! Sevin ki şüurları xeyirxah Fateh fəth etsin! Xeyir şərə qalib gəlsin!

www.kitabxana.net – Milli Virtual Kitabxana

HEKAYƏLƏR

www.kitabxana.net – Milli Virtual Kitabxana

Hədiyyə

Ana adəti üzrə səhər oyanıb süfrə hazırladı.

Övladlarını oyadırmış kimi:

- Durun vaxtdi! – dedi.

Az keçmiş qoca ata gəldi.

- Ay arvad, 50 ildir bu sözləri eşidirəm. Niyə hər gün səhər tezdən hay-küy salırsan? Uşaqlar evdə yoxdu. Mənsə çoxdan durmuşam.

Ana övladlarının quşlar kimi köç etdiklərini xatırlayıb köksünü ötürdü.

- Kədərlənmə əvvəldə də, sonda da təklik var! Bu gün bayramdı.

- Analar bayramı... – Səsində həsrət vardı.

- Səni təbrik edirəm!

- Sağ ol!

Telefon zəng çaldı. Ana sevincək dəstəyi qaldırdı. Kiçik oğlu idi. Bu gün gəzməyə çıxacaqlarını bildirdi. Şəhəhdə yaşayırdı, rayona gəlməyə vaxtı olmayacaqdı.

- Uğur olsun! Yolda diqqətli ol! – Doluxsundu.

- Oğlun səni təbrik etmədi?

- Hal-əhval tutdu... – Sıxıldığını hiss edib həyətə düşdü. Qapı döyüldü. – Açıqdı, gəl!

Qapıda şux geyinmiş yaraşıqlı gənc bir oğlan göründü.

- Anacan, bayramınızı təbrik edirəm! – Ona gül dəstəsi verdi.

Ana gülləri qoxuyub diqqətlə gəncə baxdı. Tanımadı.

Gənc kədərlə:

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Yetiməm! – dedi. – Uşaq evində böyümüşəm...

- Oğul, anan sağdırsa gülləri ona verməlisən!

- Üzünü görməmişəm. Kim olduğunu da bilmirəm. Lakin hər il adına hədiyyə alır, analara bağışlayıram. Sizi uzaqdan görüb gəldim. Etiraz etmirsiniz!

- Yox, bala! Sən də mənim oğlumsan! – Gəncin ana sevgisi qəlbini xoş duygularla doldurdu. – Evə gedək.

- Saq ol, anacan! - Əllərindən öpüb getdi. – Gələcəyəm.

Ananın nəzərləri bir nöqtəyə dikilib yol çəkdi. Ona övladlarından heç nə lazım deyildi. Səslərini, sözlərini eşitmək, üzlərini görmək istəyirdi. Köksünü ötürdü. Güllərin ətri səhər mehinə qarışıb çiyərlərinə doldu. Ümidlə yollara baxdı.

- Gələcəklər!

www.kitabxana.net – Milli Virtual Kitabxana

Xeyriyyəçi

Yayın qızmar çağı idi. İstidən yer alovlanır, bürkü ağacların altında toplanmış kənd sakinlərinin nəfəsini kəsirdi. Lakin onlar səbr edib toplantının başlamasını gözləyirdilər.

Tədbirin baş tutmadığı deyildikdə əhali narazılıq etdi.

- Necə yəni tədbir olmayacaq! Bəyaqdan günün atəşində canımız çıxır...

Təşkilatçılar xeyirxahlıq etmək istədiklərini bildirdilər.

- Təzə qəbirstanliq salmağa gəlmişdik.

Tam sakitlik yarandı.

Kəndin ağsaqqalı:

- Nə olub ki?! – dedi. – Ölüb-itən var?

- Yox, Allah sizlərə ömür versin! Hələ heç nə olmayıb. Hamının son məzili oradı. Axirətimizi fikirləşməliyik.

- Sağ olun, bala! Ən böyük savab sizindi. – Qoca xeyriyyəçinin əlini sıxdı.

- Alınmadı.

- Niyə!

- Adam azdı.

- Qəbirstanliğiniz o qədər böyük olacaq?!

- Yox, iş onda deyil. Burada çəkiliş aparacaydıq. 400-500 adam lazım idi. Məqsədimizi işıqlandıracaydıq. 30-40 nəfər var... – Güldü. – Bu dünyada hörmət, o dünyada rəhmət qazanmaq istəyirik.

Qoca geri çəkilib:

- Rəhməti də bu dünyada qazanın. – dedi. - O dünyanı hələ satın alan olmayıb!

www.kitabxana.net – Milli Virtual Kitabxana

Qorxu

Tələssəm də yeyinləyə bilmirdim. Bir yandan da istidən yumşalmış asfalt ayaqqabılarımı çəkirdi. Bakı-Gəncə avtobusu yerindən tərpənən vaxt avtovaqzala çatdım. Yenicə oturmuşdum ki, gənc bir qadın:

- Olarmı? – dedi.

- Buyurun.

- Sizi narahat etməyəcəyik. – Oğlunu qucağına alıb astadan söylədi. - Sakitdi.

- Narahat olmaram. – Kənara çəkildim. – Uşağı aralıqda oturdun. Uzaq gedəcəyik.

- Sağ olun! Allah yaxşıları saxlasın. – Doluxsundu. Sözlü adama oxşayırdı.

Yol uşağı yordu. İstidə anasına sığınıb yatdı.

Ana övladını oxşayıb:

- Atan bizi döyəcək! – dedi.

Gəlinin sözlərində dərin kədər, qorxu vardı. Fikir verirdim Bakıya yaxınlaşdıqca həyacanı artır, rəngi avazıyırdı.

- Niyə? – soruşdum.

- Günortaya qədər gəl demişdi. Çatdırammadım. Neçə ildi evdən çıxmışdıq. Həyət-bacanı təmizlədim.

- Döyməz, burda nə var ki!

- Döyəcək, bacı! Onu tanımırsınız. Qızımı yanında qoymuşam. İndi yazığı döyüb.

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Atası deyil?

- Atasıdır. Ele atanın varlığından yoxluğu yaxşıdır. – Danışdıqca titrəyirdi. – Bəyaq zəng etmişdi. Necə gəlmisən eləcə də qayıt deyir.

- Gecə avtobuslar işləmir. Necə qayıdacaqsınız?

- Bilmirəm. Televizorunu gətirmişəm. Onu aparmağa gələcək.

- Onda yaxşı olar. Narahat olma. Gəlməsə taksi tutub özün gedərsən. Yəqin hirslənib...

- Qaldığımız yeri tanımıram. Evdən çölə çıxmamışam...

Ona yazığım gəldi.

- Ərin gələnə qədər gözləyəcəyəm.

Avtovağzalda saata qədər gözlədik. Gəlin uzaqdan ayaqları dolaşa-dolaşa gələn uzunboy, qarayağız, arıq, uz-gözünü tük basmış adamı göstərib:

- Odur, gəlir! – dedi.

O çatar-çatmaz qışqıraraq gəlinin ustünə yetirdi. Amma nə fikirləşdisə vurmadı. Söydü. Telefonunu alıb kartını tulladı, özünü cibinə basdı.

- Dədən oğraş səni niyə göndərib? Necə göndəribsə eləcə də aparsın. – Oğluna: - Gedək! – dedi.

- Anamla gəlirəm! – Ağlayaraq anasının ayaqlarına sarıldı.

- Sən də qal! – Televizoru da götürüb getdi. Gəlin uşaqla, gətirdiyi pay-puşla gecə saat 11 – də avtovağzalda qaldı. Ağlayırdı.

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Televizoru da, telefonu da o almışdı. Özününkü bildiyini apardı. Günümü görürsünüzmü?! Namusuma sığınıb qalmışam.

Bu yerdə özümü saxlayammadım.

- Nə qədər ağılsızsan! – dedim. – Nə namus! Gecə yarı tanımadığın şəhərdə yolun ortasında qalmısan.

- Anam sağ olsaydı bu zülmə dözməzdim. Altı ildi ölüb. Atama da hər dərdimi deyə bilmirəm.

- Təhsilin varmı?

- Yox. 15 yaşımdan ərdəyəm. 13 ildi bunun zülmünə dözürəm. Qorxuram!

- Qorxma, Gəlin! Deyirlər qaradan o yana rəng yoxdu. Uşaqlarını başına yığ işlə! Çətin də olsa dolanacaqsan. Öz eviniz varmı?

- Yox. Qaynımgillə birgə yaşayırıq. O qədər də bacarıqsız deyiləm. Özümü oda-közə vurub daldalanacaq tikə bilərəm. Atam ustadı. Yeri gəlsə fəhləsi olaram.

- Yaxşı, onda indi gedək bizə. Səhər yola salaram gedərsən.

Utandı. Telefonumu istədi.

- Burada ailəvi dost olduğumuz ailə var. Telefonunuzu versəydiniz onlara zəng edərdim. Qızımı onun əlində qoyub gedəmmərəm.

Zəng etdi. Gözlədim ərini dostu gəldi. Sağollaşıb getdim. Amma ürəyim yanında qaldı... Fikirləşdim, belə tale onun alın yazısıdır. Həyatda ayaqyalın, çarəsiz qalmağının günahkarı isə onu 15 yaşında ərə verən ata-anasıdır.

www.kitabxana.net – Milli Virtual Kitabxana

Aradan 4-5 həftə keçdi. Bir gün qohumlardan biri dedi ki, Gəncədə uzunboy, arıq, qarayağız, üzü tüklü "kişi" telefonla dəli kimi çığıra-çığıra danışır.

- Mən hələ Bakıdayam. Gələnə qədər uşaqlarını da götür evdən itil! – deyir.

www.kitabxana.net – Milli Virtual Kitabxana

Kar

Aləmzər bacısını küsgün görüb soruşdu.

- Nə olub! Fikirlisən...

- Heç...

- Danış, bacı deyilikmi?!

- Dünən oğlumgilə getmişdim. Qonaq otağında uşaqlarla xeyli söhbət etdim. Anaları gəlib əhvalımı soruşmadı. Uşaqlar deyirdi qonşu otaqdadır. Gedərkən koridorda rastlaşdıq. Bilirsən nə dedi?

- Nə dedi?

- Gəldiyini bilmədim. Dedim bəyaqdan uşaqlarla danışdım. Dedi səs gəlirdi. Elə bildim televizordu.

- Karlığı yoxdu ki!

- Xalamın səsi karın da qulağını deşər. Ay kefin olsun xala! – Bacıoğlu qəhqəhə çəkib güldü.

- Kəs səsisini! – Anası hirsləndi.

- Anacan, xalamı eşitməmək olar?

- Can bacı, səninki yaxşıdı. Bizimki tamam kardı.

Xala bacıoğlunu tərs-tərs süzdü.

- Mənimki ayrıdı, ağır eşidir. Səninki isə yanındadır. Kar olmalıdır da!

- Xala, xoş gəlmisiniz! – Gəlin gülümsəyərək çayları stolun ustunə qoyub xalanı öpdü.

- Sağ ol,qızım! – Bacıların baxışları toqquşdu. – Allah bu xoşbətliyi sizə çox görməsin!

www.kitabxana.net – Milli Virtual Kitabxana

Arxa

İstidən otaqda nəfəs almaq olmurdu. Koridora çıxdım. Ora da od tutub yanırdı. Növbə gözləyən xəstələrsə dişlərini sıxıb durmuşdular.

- Stamotoloqun da işi qəribədir. – fikirləşdim. – Bu qədər insan var. Danışan yoxdu. Həkimin iynə-dərmanı hamını susdurub. - Sükutdan darıxdım, bir tərəfdə oturub kitab oxudum.

- Olarmı? – söyləyən oğlanın səsinə diksindim.

- Olar?

Gəncin üzü şişmiş, ağrıdan rəngi avazımışdı.

- Gördüm riyaziyyat kitabı oxuyursunuz. Gözəl fəndir.

- Çox gözəl! Tələbəsiniz?

- Bəli. Riyaziyyatı həvəslə, sevə-sevə oxuyuram. Oxumaq gözəldir, elə deyilmi?

- Əlbəttə. – Oğlanın danışığı, təhsilə sevgisi çox xoşuma gəldi. – İstehdada bütün qapılar açıqdı. Hərdən maneələr də olur...

- Bilirəm. Həyat asan qazanılsa dəyərsiz olar.

Gəncin yetkin fikrinə heyran qaldım. Söz tapmadım. Gülümsədim. O, oxuduğu universitetdən, fənlərdən danışdı. Təhsilini xaricdə davam etdirmək istədiyini bildirdi.

- Əla fikirdi. Uğur olsun!

- Sağ olun! – Yaxınlıqdakı qadını işarə edib: - Anam narahat olur. – dedi.

- İnşallah, oğul! Həkim çağırdı. Get.

Ana oğlunu yola salıb nigarançılıqla:

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Bütün günü oxuyur. – dedi. – Bilmirəm necə olacaq, iş tapa biləcəkmi? Kömək etmək istəyənlər də var...

- Yaxşı olar...

- Atası müharibəyə gedəndə bir yaşı yox idi. Üç aydan sonra qara xəbəri gəldi. Ölüsünü görmədik.

Oğlanın səsində kədər hiss etmişdim. Lakin atasız olduğu ağlıma belə gəlməmişdi.

- Allah rəhmət etsin! Yəqin çox əziyyət çəkmisiniz...

- Kipriklərimlə köz götürmüşəm. Yenə talehimdən narazı deyiləm. Ovladlarım ağıllı oldular. Mən evdar qadınam. Qızım, oğlum isə ali təhsillidir. Üstlərində çox durdum. Ataları yox idi. Fikirləşdim, təhsilləri arxaları olar.

Qadının sözü məni tutdu. Bir az əvvəl marşurutda gördüyüm körpəni xatırladım. 4-5 aylıq olardı. Anasının qucağında yatmışdı. İstidən pörtmüşdü. Puçur-puçur təpləyirdi. Düşərkən anası nə qədər etdi oyanmadı. Axırda yuxulu-yuxulu atasının köynəyindən tutdu.

Atası:

- İncitmə! Oyanmır qoy yatsın! – deyib oğlunu qucağına aldı. O, gülümsədi, ləngərləyərək yuxuladı. Rahat, sakit, xoşbəxt idi. Dünyadan xəbərsiz olsa da özünü güvəndə hiss edirdi.

- Sizinlə əlaqə saxlaya bilərəmmi? – Gənc idi.

- Hə. - Saytlarımı verdim. – Uğur olsun, oğul! Oxu, yaxşı olar.

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Oxuyacağam. Həyatda sözümü deyəcəyəm. – Zarafatyana: - Heç kim, hətta diş həkimi belə məni susdurammayacaq. – dedi.

Gənc danışdıqca hiss etdim ki, yaxasından tutacağı, sığınacağı, arxalanacağı atası olmasa da güclü iradəsi var.

- Öz gücünə arxalan.– söylədim. –Allah köməyin olsun!

O sağollaşıb, kimliyini deyib getdi. Lakin fikirli olduğumdan eşitmədim. Bilmirəm indi İnternetdəki dostlarımın arasındadırmı! Hadısəni yazaraq o və onun kimi ümidlə oxuyan gənclərimizin arzularını çatdırmaq istədim.

Gələcəyimiz naminə istehdadlarımıza sahib çıxmalıyıq!

www.kitabxana.net – Milli Virtual Kitabxana

İnsan

Payızın son günləri idi. Bayırda dumanlı hava vardı. Pəncərəyə yaxınlaşıb həyətə baxdım. Tutqun təbiət ürəyimi üşütdü. Düşüncələrimi, duyğularımı işıqlandıracaq, ruhumu oxşayacaq bir Günəş arzuladım. Qəlbim işıqlandı, Təbiətin ruhunu duydum. Son vaxtlar o ruhu daxilimdə yaşatdığımı hiss edir, qeyri-adi hissiyatımdan istifadə edib İnsan psixologiyasını araşdırmaq istəyirdim. Məqsədimə çatmaq üçün İnsan psixologiyasını tədqiqi edəcək proqram hazırladım.

İşə ruhumu təslim etməklə başlamalıydım. Doğmalarıma xaricə gedəcəyimi bildirib laboratoriyaya gəldim. Qapıları kilidləyib "həyat" adlandırdığım aparatın altında oturdum. Bir neçə saniyədən sonra aparat şüşə örtüklə ətrafdan tədric olunaraq qapalı sistem yaratdı. Vaxt keçdikcə bədənimin süstləşdiyini, gözlərimin qapandığını hiss etdim. Nə qədər ki, şüurumu itirməmişdim monitoru izlədim. Kompyuter arzularıma uyğun işləyir, düşüncələrimi əks etdirirdi.

Sadəcə arzulamaqla müxtəlif saytlara baxır, qlobal şəbəkələrdəki profillərimdə statuslar yazırdım. Xatırladığım son statusum belə idi. "Zamanımı suallarıma xərcləyirəm. Cavablarımdan yeni suallar doğur. Son vaxtlar isə həyatın zaman və məkan daxilində mövcudluğuna inanmaq istəyirdim. Lakin, İnternet və virtual aləm fikirlərimi qarışdırdı. Düşüdüm ki, virtuallıqda zaman məkansız irəliləyirsə, varolma nisbidir."

www.kitabxana.net – Milli Virtual Kitabxana

Zaman keçdikcə hiss etdim ki, ruhum cismimdən ayrılaraq virtual aləmdə doğulur. Burada ilk rastlaşdığım sevgilim oldu. Yeni dünyamda hamıdan gizli yaşamaq istəyirdim. Onu isə qəlbim arzulamış, ruhum tapmışdı.

Həyat mənimçün qeyri-adi idi. Təbiəti duyur, hadisələrin gizli tərəflərini görür, fikirləri oxuyurdum. Kədərliydi. Ətrafımdakı hər şeyi öyrənmək istəyi isə ömrümü yeyirdi. Nəhayət, nəticəsiz axtarışlardan sonra yaxın sandığım İnsanı-Təbiətin ən böyük möcüzəsini araşdırmaq qərarına gəldim. Uzun tədqiqatlardan sonra müəyyənləşdirdim ki İnsanı reallıqda öyrənmək mümkün deyil.

Uşaqkən nənəmdən eşitdiyim sözlər yadıma düşdü.

Babam evə sarsılmış vəziyyətdə gəlmişdi.

- Dost sandığım adamlar qanıma susayıblar. - dedi. – Təəssüf, tanımamışam...

Nənəm nə olduğunu soruşmadan televiziyanın yanına getdi.

- Bu bir möcüzədi. İnsan hazırlayıb. – dedi.

- Nə olsun ki!

- İnsan bundan dəfələrlə artıq möcüzəli və sirli olmalıdır ki belə iş görsün. Üzülmə!

Hafizəmdə həkk olunan bu sözlər hər məğlubiyyətimdə mənə təsəlli olur, ruhdan düşməyə qoymurdu. Virtual aləmdə məkanın nisbiliyini gördükdə burada doğulmaq şüurlara yol tapmaq fikrinə düşdüm. Proqramlaşdırdığım "Həyat" aparatının köməyilə həyatdan ayrılaraq virtual aləmdə yaşadım, şüurlara nüfuz etdim.

Düşüncələrin rəngarəngliyinə baxmayaraq insanların daxili dünyası ağ və qara rənglərin vəhdətindən ibarət idi.

www.kitabxana.net – Milli Virtual Kitabxana

Dəyişkən rənglər sanki, xeyirlə şərin mübarizəsini əks etdirirdi. İşığa tərəf getsəm də çox vaxt kölgədə qalırdım. Bir gün yaranışı məhv edəcək gücə malik əjdaha peyda olduğunu eşitdim. Virtual dünyada, ruhlar, düşüncələr aləmində əjdaha nə gəzir deyə fikirləşdim. Lakin, maraq güc gəldi. Mübarizəyə hazırlaşan gücləri izlədim. Güclər əjdahayabənzər qara qüvvəylə döyüşdülər. Bəzilərini əjdaha uddu. Bəziləri isə əjdahanı uddu. Əjdahanın udduğu düşüncələr yox olurdu. Bu qaranlıqda işığın sönməsinə bənzəyirdi. Ruh qalib gəldikdə isə düşmən qara tüstüyə çevrilib itirdi. Az keçməmiş isə qalib özü daha böyük əjdahaya çevrilirdi. Anbaan böyüyən şərdən qorxub qaçmaq istədim. Qaranlığa qərq oldum. Hər şeyin sonu çatdığını fikirləşdim. Axı mən həyatım bahasına burada idim. Məğlubiyyətim ölümüm demək idi.

- Oğul, oğul! Ayıl, bala! Mənə yazığın gəlsin! – Anamın səsi idi. Qəlbim parçalandı.

- Anacan! Narahat olma! – deyə bildim.

Ətrafı tüstü bürüdü. Bu əjdaha idi. Can verirdi. Uzaqdan doğmalarımın surətini gördüm. Anam məni qucaqlayıb ağlayır, sevgilim onu sakitləşdirməyə çalışırdı. Baxışlarımız rastlaşdı. Qışqırmaq istədi. Sus işarəsi verdim. İşi yekunlaşdırmaq lazım idi. Yaratdığım proqramı və oraya əlavə etdiyim məlumatları mən virtuallıqdan ayrılmadan ləğv etmək lazım idi. Əks halda həyatdakı əjdahaların silahı olacaqdı. Düşdüyüm vəziyyətdə özünü məhvetmə sonum ola bilərdi. O bunu bildiyindən ağladı. Qəlbim titrədi.

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Bağışla, əzizim! - deyib gözlərimi yumdum. Ona inanırdım. Susacağına əmin idim.

Ayılanda onu yanımda-proqramlaşdırdığım aparatın altında gördüm.

- Nə etmisən! – Qışqırdım.

- Heç... – Yavaş-yavaş özünə gəldi. – Unutmamısansa, mən də proqramçıyam. – Gülümsədi.

Qorxudan dilim söz tutmurdu.

- Nə ixtiyarla işlərimə qarışmısan! – Qızardı, dinmədi. – Səni itirsəm necə yaşayardım! Heç məni fikirləşmirsən!

Astadan:

- Onu özündən soruş! – dedi.

Soruşmadım. Cavabsız suallarımı artırmaq istəmirdim. Günahkarcasına doğmalarıma baxdım. Anamın əllərindən, nəmli gözlərindən öpdüm. Onun oxşamaları, əzizlərimin sevgi dolu baxışları qəlbimə sevic bəxş etdi, düşüncələrimi saflaşdırdı. Gözəl duyğularıma görə Allahıma təşəkkür etdim. "Əjdaha"ya daxilimdəki sevgi ilə qalib gəldiyimi anladım. Tanrıdan yaratdıqlarına sevgi dolu bir ürək bəxş etməsini dilədim.

www.kitabxana.net – Milli Virtual Kitabxana

Azad

Səhər quşların səsinə oyandım.Çaşbaş ətrafıma baxdim. Harada olduğumu aydınlaşdırammadım. Səsə diqqət kəsildim. Quşlar cəh-cəh vurub nəğmə oxuyurdular. Mənə elə gəldi ki onlar səmada gəzirlər. Fikirləşdim "Xoşbəxtdirlər. Ayaqları üstə dayanmağı bacarırlar".

Zaman keçdikcə düşüncələrim aydınlaşdı. Axşamkı ağır sözləri xatırlayıb:

- Quşlar qədər də cəsarətim yoxdur! – dedim.

- Qızım, bu işlərin bir xətası çıxacaq! Ətrafında söz-söhbət yaranacaq. Nə qədər gec deyil dayan...

Hər işdə köməkçim olan atamsa:

- Yazmaq qadın sənəti deyil! Cəmiyyətimiz buna yaxşı baxmayacaq. – dedi. – Anan düz deyir. Dillərə söz olacaqsan. Səhvini biz bağışlayarıq...

- Ata, cəmiyyət yaşadığımız bu kiçik məkanla məhdudlaşmır. Qəbul ediləcəyəm. Narahat olmayın səhvim olmayacaq! Yazmaq özümdən asılı deyil. Bütün gəncliyimi özümə qarşı mübarizə aparmışam. Artıq bacarmıram! Daha gənc də deyiləm. Qorxmayın!

- Sənə görə qorxuruq! Sevgini ailənə ver.

Yoldaşım ikinci dünyam oldugundan xəbərdardı. Bəzən susur, bəzənsə narazılığını bildirirdi.

Axşam:

- Yazıların sənə bizdən irəlidir?! – dedi. - Hamımız narazıyıq niyə işlərindən əl çəkmirsən?

www.kitabxana.net – Milli Virtual Kitabxana

Sözlərində qeyri-adi qısqanclıq vardı. Nədən? Bilmədim.

Gecəni qarışıq fikirlərlə, dağ ağırlığında yüklə yatdım. Səhər quşların nəğməsi ruhumu oxşadı, yüngülləşdim.

Bu gün ilk kitabımın təqdimatı olmalıydı. Hazırlaşdım. Narazılıqlara baxmayaraq tədbirə getdim. Vaxta az qalmış yaxınlarım, doğmalarım yanımda oldu...

Anladım ki, öz istəyimə deyil cəmiyyətə qarşı mübarizədə quşlar kimi AZADam!

www.kitabxana.net – Milli Virtual Kitabxana

Nəğməkar

Samir Təbiəti çox sevirdi. Bağda gəzərkən yaşıllığa, gül-çiçəyə heyranlıqla baxır, saatlarla quşların nəğməsini dinləyirdi.

İşə başladıqda bu gözəllikdən ayrıldı. Şəhərdə təmtəraqlı həyat yaşadı. Lakin ata ocağındakı son gününü həyatı boyu unutmadı.

O məhkəmədə işləyəcəyini öyrəndiyi gün çox sevinmişdi. Universiteti yenicə bitirmiş bir gənc üçün hakimlik böyük uğur idi. Sevincini yaxınları, dost-tanışları ilə bölüşdü.

Sonra Təbiətin bir güşəsinə çəkilib duyğuları ilə təkbətək qalmaq istədi. Bağı gəzib həyətdəki tut ağacının altında dayandı. Yayın istisində cəh-cəh vuran quşların nəğməsi ruhunu oxşadı, qəlbini sərinləşdirdi.

- Kaş o bülbülü görəydim. – deyərək budaqları axtardı. Yarpaqların arasından sərçəyəbənzər balaca quş tapdı. Yaxınlaşdıqda o uçub yuxarı budağa qondu.

- Oxumaqçun bülbül olmaq vacib deyil! – dedi. – Qəlb oxumalı, duymalıdır!

- Necə qəlb oxuyub duymalıdır?

- Dinlə!

Samir Təbiəti dinlədikcə özünü unutdu. Səslərin sehrinə düşdü. Qəlbi tel-tel olub o balaca nəğməkara qoşuldu. Hər an eşitmək istədiyi həzin bir nəğmə oxudu.

Lakin işi və həyat tərzi onu tez dəyişdirdi. Hakimliyin qanun çərşivəsində "düzəlişləri" hislərini kütləşdirdi, ürəyini

www.kitabxana.net – Milli Virtual Kitabxana

susdurdu. Vaxt keçdikcə cismən yaşadığını anladı. Nəğməkarı xatırladı. Ata ocağına üz tutdu.

Payız olmasına baxmayaraq, ətraf gül-çiçəyə qərq olmuşdu. Quşlar oxuyur, sərin meh əsirdi. Samir tut ağacının altında-hovuzun kənarında oturdu. Dinlədi. Eşitmədi, duymadı.

Ürəyi sıxıldı. Köynəyinin yaxasını dartaraq sinəsini açdı.

- Haradasan, Nəğməkarım! Niyə susmusan? Vaxt vardı hər yerdə, hər zaman səni eşidirdim. Qəlbimin nəğməsiydin.

Qışqıraraq oxuyan bir quş diqqətini çəkdi. Səs güllükdən gəlirdi. Yaxınlaşdı. Bülbül idi. Sinəsini irəli verib oxuyurdu. Hənirti hiss edib uçdu. Samir onun qonduğu gül kolunun qönçələrini dərdi. Əli sancdı. Tikan batdığını zənn edib gülləri yerə qoydu. Gözləri dolmuş nazik, qara bir ilan sürünüb kənara çıxdı. Özü ilə götürdüyü incə, təravətli qoncəyə sarılmışdı.

- Qəlbsiz! Sevgimi öldürdün!

- Zalım ilan, gül ömrü qədər olan sevgin üçün məni sancdın?!

- Özünü ağıllı sanma, İnsan! Sən o gülü mənim qədər də sevmədin!

Kəskin ağrı Samirin ağlını aldı. Yerə çökdü.

- Allahım, günahımdan keç!

Səhəri xəstəxanada ayıldı.

Anası:

- Şükür Allaha! – söyləyib oğlunu qucaqladı.

- Nə olub, ana!

- Heç...

- Xəstəxanadayam... Hələ yaşayıram...

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Hə, oğul, ilan zəhərli deyilmiş...
Samir uşaq kimi anasına sığınıb səssiz ağladı.
- Qəlbim zəhərlidir. Ruhumu öldürüb! Bilmirəm...
Pəncərəni döyəcləyən quşcuğaz sözünü kəsdi.
- Təbiəti dinlə! – Xoş avazla oxudu.
- Bu sənsən! – Pəncərəyə tərəf boylandı. – Nəğməkarım!
İlahi səs Samiri özündən aldı. Həyəcanlandı.
Nəgməkarla səsləşən qəlbi ruhuna:
- Hələ son deyil! – söylədi.

www.kitabxana.net – Milli Virtual Kitabxana

İmtahan

Yaşlı inspektor telefonla danışan qıza hirsləndi.

- Bu nə deməkdir?

- Telefondan istifadə etməmişəm. – Zirəkliyi ilə seçilən qız qorxulu: - Evdən zəng gəlmişdi... – dedi.

- Düz deyir. – Nəzarətçi dilləndi. – O qızda telefon yox idi.

- Danışdığı nədi?– Müəllimi tərs-tərs süzdü. - Şərait yaradırsınız! Onun nəticələri ləğv ediləcək!

Dilavər qiz dillənmədi. Pörtmüş halda imtahandan çıxdı. Həyətdə tanış axtardı.

Psixoloq uzaqdan şagirdini görüb işin nə yerdə olduğunu anladı. Yaxınlaşıb:

- Səbirli ol, qızım! – söylədi. – İmtahanda belə hallar olur.

- Necə sakitləşım! Oxumaq istəyirdim...

- Səbir et! Yaxşı olar...

- Müəllim, bəlkə, kömək edəsiniz!

- Kömək! Bizi heç icəri buraxmırlar...

- Atam olduğunuzu deyərsiniz.

Psixoloq təbiətən sakit və xeyirxah insan idi. Qızardı.

- Qızım, nə danışdığını bilirsən?

- Xahiş edirəm! Anamın öldüyünü məni tək böyütdüyünüzü söyləyin. Bəlkə yetimə yazıqları gələr!

- Qızım...

- Xahiş edirəm, yox deməyin! Arzularımı öldürməyin!

www.kitabxana.net – Milli Virtual Kitabxana

Müəllim qıza yox deyə bilməyib imtahan komissiyasının rəhbəri ilə görüşdü. Qızın uydurduğu yalanı dedi. Sədr atanın xətrinə

- Baxarıq... –dedi.

Müəllim otaqdan çıxmaq istəyirdi ki qızın anası tənginəfəs içəri girdi.

- Qadanız alım, qızımı bağışlayın! Yetim uşaqdı. Atası təzə ölüb.

- Anasısız? Atası təzə ölüb deyirsiniz!

Qadın kinayəli sözləri anlamayıb:

- Hə. – dedi. – Saçlarımın ağardığını görmürsünüzmü? Rəhmətliyin hələ 40-ı çıxmayıb.

İnspektor əlini-əlinə vuraraq bərkdən güldü.

- Bəs bu kişi kimdi? Ruhdu bəyəm. Yoxsa, ruh sizsiz. İmtahanlardan hər şey gözləyirdim. Ruhlarla görüşəcəyimi yox.

Qadın qorxub geri çəkildi.

- Bunun başı xarabdır ki! Yalan danışmıram... Qaynanam ölüb...

Psixoloq:

- Gedək, xanım! – deyərək onu həyətə çıxartdı.

- Bu necə işləyir? Çatmır...

– Yox, siz gələnə qədər ağlı yerində idi.

- Nə etdim ki!

- Dəli etdiz! Sizin yalanınızın əksini mən söyləmişdim. Atası olduğumu, anasının öldüyünü demişdim.

- Niyə?

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Şagirdimə kömək etmək istədim. Bağışlayın, səhv etdim. Onu başa salmalıydım ki həyatdakı ən böyük biclik düzlükdür!

Qadın qızına görə utandı.

- Tanrı günahlarımızı bağışlasın!

www.kitabxana.net – Milli Virtual Kitabxana

Həyat

Şaxtalı bir qış günündə səmadakı ağ buludlar ağladılar. Onların gün içığında ulduz kimi parıldayan göz yaşları-qar dənəcikləri zaman keçdikcə Təbiəti bəyaz toza qərq edərək həyatı dondurdu. Öz hərarətləri ilə qızınan varlıqlar isə sabahlarını Günəşli görmək ümidini itirməyib qarda yem axtarmağa başladılar.

Belə havada bayıra çıxmaq mümkün deyildi. Lakin yaradacağım saytla bağlı müraciətimə münasibəti öyrənməli idim. Hazırlaşıb şəhərə getdim. Yolum parkın yanından düşdü. Hamının görəcəyi bir yerdə "LEYLAM" sözü yazılmışdı. Fikirləşdim ki, görəsən bu sözü yazan Məcnun sevgisi də qarın ömrü kimi Gün çıxana qədərdirmi? Kənardan baxıb gülümsəyən qızlara fikir verməyib yoluma davam etdim.

İşimə görə bir neçə şəxslə görüşdüm. Planlarımı söylədim. Sonda bir gənc məni başa düşdüyünü, lakin hələ məsləhətləşməli olduğunu söylədi. Sağollaşmaq istəyirdim ki, orta yaşlı bir əlil gəldi. Söylədiyinə görə, muayiədən gec keçdiyindən təqaüdünü almamışdı. Ehtiyacı vardı. Zəruri tələbatını ödəmək üçün borc pul istəyirdi.

Onun problemi həll edildi. Bir neçə günə pulunu alacaqdı. Lakin, o, gedərkən simasında sevincdən çox kədər vardı. Qoltuq ağacına söykənərək sürünürdü-ona bu günü

www.kitabxana.net – Milli Virtual Kitabxana

yaşamaq üçün pul lazım idi. Pis oldum. Arxacınca çıxmaq istəyirdim ki bəyaqkı Gənc məni qabaqladı.

Qayıdanda "LEYLAM"ı görmədim. Qar yağıb izi itmişdi. Oradan keçərkən isə bir anlığa Günəş parlayaraq şəfəqləriylə yolumu kəsdi. Parkda qeyri-adi canlanma hiss etdim.

Təbiət sanki:

- Günəş həyat mənbəyi, sevgi rəmzidir! İz itirən soyuqluq, biganəlik və məhsuliyyətsizlikdir! - deyirdi.

www.kitabxana.net – Milli Virtual Kitabxana

Təsadüf

Rayonda:

- Get səndən xoş xəbər gözləyirik! – dedilər.

- Nəzərə alın ki, şansım yoxdu.

Yarızarafat-yarıciddi:

- Yaradıcı xanım, müəllimlik də yaradıcılıqdır. Özünü göstər. – söylədilər. – Ürəyin nə deyir?

- Heç nə...

- Yaradıcı insanlar Tanrıya yaxın olurlar. Nəsə hiss etməlisən.

Astadan:

- Sağlıq olsun... – deyib söhbəti kəsdim. Boş ümidi xoşlamadım. Həm də nədənsə narahat idim.

Bakıya gəldim. Nazirliyə tez çatmaq üçün taksi çağırdım. Sürücü yolu itirdi. Gecikdim.

Təqdim olunacaq materiallar kompyutere yüklənəndə flash kartım açılmadı. Mövzunu diskdən götürdük. Təqdimatda isə kompyuter dondu. Tutuldum.

Misir müəllim şəklimi çəkən gəncə:

- İmkan verin danışsın sonra çəkərsiniz! – deyəndə bir az sakitləşsəm də fikirlərim dolaşmışdı.

Aşağı bal aldığımı eşidəndə təəccübləndim. Çünki, "Yeni virtual dünyaya niyə məktəbdən başlamayaq?" mövzusunun gərəkli olduğunu zənn etmişdim. Lakin, 10 dəqiqəlik çıxışı 6 dəqiqəyə yekunlaşdırdığımı və riyaziyyatdan çox az danışdığımı öyrənəndə reallıqla barışdım.

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Qismət deyilmiş!

Xəbərdarlıqları anlaşaydım bəlkə, səhvlərimi düzəldərdim. Görünür Yaradana o qədər də yaxın deyiləmmiş. Maraqlısı isə sonrakı hadisələri də anlamamağım oldu.

Müxtəlif yerlərdən birgə işləmək təklifi aldım. Xalaoğlu bu cür işləməkdənsə, elmi iş götürməyin məsləhət olduğunu dedi. Səhərisi qərarsız lazımı yerə müraciət etdim.

Nəhayət, evə qatarla qayıtmağı planlaşdırmışdım. Bilet alarkən oğlumun sənədində anlaşılmamazlıq oldu. Yer satıldı. Yol yoldaşım dokturluq işinin müdafiəsinə hazırlaşan gözəl bir qadın oldu. Ünsiyyətcil xanım yol boyu məni danışdırdı və mudafiə üçün real imkanlarım olduğunu dedi.

Bir neçə gün keçdi. Olub-keçənləri bir yuxu zənn edib unutmaq istədim. Lakin, nədənsə qeyri-adiliyi ilə seçilən o xanımdan narahat idim. Zəng etdim.

- Allah razı olsun! – söylədi. – Evdəyəm... Təsadüfi görüşümüz düşərli oldu...

- Sağ olun! Şadam! – dedim. - Həyatda təsadüfi heç nə yoxdu.

Sözlər öz düşüncələrimi də aydınlaşdırdı.

- Təsadüflər taleyimizdir. – deyə fikirləşdim. – Onu anlamalı deyil yaşamalıyıq.

www.kitabxana.net – Milli Virtual Kitabxana

Ərşad Məmmədov

1992-ci ilin soyuq qış gecəsi idi. Səssizliyə çəkilib imtahanlara hazırlaşırdım. Həyətdən xalamın səsini eşitdim. Deyinirdi.

- Niyə isti evini qoyub düzlərə düşmüsən!

Evə keçdilər. Atamgillə uzun-uzadı söhbət etdilər. Arabir danışıqlarını eşidirdim.

- Buna deyin, başa salın... Evində otursun! Rahat çarpayısını qoyub samanın üstündə yatmasın.

Həmişə hövsələsizlik edib ucadan danışan atam bu dəfə susmuşdu. Ərşadsa böyüklərin hörmətini saxlayaraq astadan danışırdı.

- Vətəni qorumaq borcumuzdur! Sənin və uşaqlarımızın xətrinə cəbhədəyəm! Mən getməyim, sən getmə, o getməsin... Vətəni kim qorusun?!

Atam:

- Qızım, bəsdi aşıb-coşma!-dedi.-Ərşad düz deyir. 50% onun kimi fikirləşsəydi müharibə çoxdan qurtarardı. Bir də ki, o, maya qədər vaxt istəyir.

- Müharibə tezliklə qurtaracaq. Sağ-salamat qayıdacağam.

Xalam ağlaya-ağlaya incimiş halda evdən çıxdı. Yanına gedib sakitləşdirmək istədim. Bacarmadım. Həyəcandan titrəyirdim.

Ərşad:

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Əzizim, səbirli ol! - deyirdi. - Ermənilərin qarşısını almaq lazımdır. Çaykənd və onun ətrafında, Murovdağda düşmən azgınlaşıb...

- Sən nə məni, nə də uşaqlarını fikirləşirsən. Sənsiz üç uşaqla neyləyəcəyəm?

- Mənsiz olmayacaqsınız.

Söhbətləri məni sarsıtmışdı. Gizlincə ağlayırdım.

- Qızım hanı? Heç mənimlə görüşmədi. - Məni axtarırdı. Özümü toplayıb görüşmək istədim. Kimsə çiyinlərimdən aşağı basıb divandan qalxmağa qoymadı. - Yatır?

Anam:

- Dərs oxuyurdu. - söylədi. - Yəqin yuxulayıb. Oyadım...

- Yox, tez qayıdacağam. Gələndə görüşərik. Mayda hamınızı dağlara gəzməyə aparacağam. Qızıma de hazırlaşsın. Dərsləri bəhanə etməsin.

- Sağlıq olsun! - Anamın səsi titrədi. Sanki qışın soyuğunda üşüyürdü.

Zamandan daş asıldı. Aylar uzandıqca uzandı. Cəbhədən dəhşətli xəbərlər gəlməyə başladı. Ölən, İtən, əsir düşən soydaşlarımızın faciəsinə dözəməyən yüzlərlə vətən övladı könüllü müharibəyə yollandı. Əsgərlərimiz yüksək səviyyədə təlim keçmiş, müasir hərbi sursatla silahlanmış ermənipərəst imperiya qoşunlarına qarşı qəhrəmanlıqla vuruşdular.

Ərşad cəbhə xəttinin müxtəlif yerlərində döyüşürdü. Son döyüşü Qolan dağının ətrafında oldu. Ermənilər gecə hücuma keçdilər. Onlara ilk zərbəni döyüş zonasındakı batalyon vurdu. Qüvvələr bərabər deyildi. Əlavə kömək gəldikdən sonra əsgərlərimiz üstünlük qazandılar. Lakin az

www.kitabxana.net – Milli Virtual Kitabxana

keçməmış düşmənin zirehli texnikası işə qarışdı. Əksəriyyəti tələbələrdən ibarət döyüşçülərimiz mühasirəyə düşdülər.

Ərşad tank komandiri idi. Vəziyyət ağırlaşdıqda, o, yoldaşlarına yerə düşməyi əmr etdi.

- Tələbələrə kömək edin. Gələcəyimizdirlər. Mən özüm tək bacaracaqam.

- Tək bacarmazsan! - Cavanların düşməsini gözləyən yaşlı əsgər dilləndi. - Nə etmək istədiyini bilirəm. İşində ol!

- Cücüm özümə çatar!

- Çatmaz... Can Tanrının əmanətidir. - Gülümsədi. - Taleyimizi O yazıb. Narahat olma, səninləyəm.

Tank döyüş meydanında bir neçə dəfə dövrə vurdu. Düşmənin uç tanqını partlatdılar. Silahları qurtardı. Qəzəbli düşmən ustlərinə gəlirdi.

Ərşad dostunun üzünə baxdı.

- Sən tullan.

- İrəli! - Tanqlar toqquşaraq alovlandılar. Düşmən idarəni itirdi. Əsgərlər döyüşə-döyüşə mühasirədən çıxdılar. Səmaya qalxan alov yollarına işıq saldı.

Ərşad mayda qayıdacağına söz vermişdi. Ölüm xəbəri gəldi. Basdırmaqçün cəsədi də yox idi. Ruhu göylərdə, cəsədi isə düşmən əsarətindəydi. Xalam inanmadığı qara xəbərin yasını qurdu. Gəlib gedənləri yola saldı.

- Ərşad ölməyib. - deyirdi. - Bir gün qapını açıb gələcək.

40 gün sonra Qolan dağı düşmənlərdən azad edildi. Ərşadın yanmış cəsədi tanqdan çıxardıldı.

www.kitabxana.net – Milli Virtual Kitabxana

İndi həmin vaxtdan illər keçib. Xalam hələ də yoldaşının qayıdacağına inanır, yolunu gözləyir. "Onu yanımda hiss edir, çətin günlərimdə məsləhətləşirəm" deyir.

www.kitabxana.net – Milli Virtual Kitabxana

Daxilimdəki mən

Günəşli yaz günü idi. Bağ-bağça gül-çiçəyə qərq olmuşdu. Quşlar oxuyur, çiçəklər ətrafa ətir saçırdı. Qəflətən güclü yağış yağmağa başladı. Gün yağışı az keçmış kəsdi. Səmada göy qurşağı yarandı.

Mənzərəyə baxaraq fikirləşdim:

- Ağ rəngin bu qədər çaları varsa, görəsən qaranın neçə çaları olar!

Daxilimdən bir səs:

- Qara elə qaradı! - dedi.

Öz-özümə danışırmış kimi:

- Qəlbimdən qara qanlar axır! - dedim.

- Ay oğul, niyə elə deyirsən? - Anam idi. - Qəlbinə nə olub!

- Ana, nə vaxt gəldin!

- İndi gəlmişəm. Qardaşın yazıq çoxdan torpaq olub. Yalandan daşın yanında niyə duraydım! Otağında onun xəyalları ilə yaşamaq mənimçün daha çanlıdı!

- Ana, qardaşımı xatırladıqca qəlbim parçalanır. Onu ölümün pəncəsindən qurtara bilmədim!

- Sən hər şey etdin. Müalicəyə dünyanın pulunu tökdün. Həyatı isə pulla satın almaq mümkün deyil!

Həyatımı dəyişib ruhumu öldürmüş pullara nifrət etdim. Nəzərlərimi heç xoşlamadığım gül-çiçəkdən çəkib yazı masasının kənarında oturdum. On beş il əvvəl özümə

www.kitabxana.net – Milli Virtual Kitabxana

verdiyim vədə xələf çıxıb qəlbimin səsinə qulaq asaraq nəsə yazmağa başladım.

Xəyalımdan o vaxtlar baş vermış hadisələr keçdi.

- Azad, oğlum, bu nə işdi tapmısan? Vaxtını keçirirsən...
- Atam əsəbi olsa da mənimlə mülayim danışmağa çalışırdı.
- Səni oxutmuşam, təhsil vermişəm. Yaxşı ixtisasın var. Bir neçə il müəllim işlədikdən sonra iqtisadiyyatın müxtəlif sahələrində işləyə bilərsən.

- Ata, yazılarımın ixtisasıma nə dəxli var!

- Vaxtını alır, səni dəyişdirir. Bu işdən əl çək.

Atama böyük hörmətim vardı. Bu dəfə onun sözünə qulaq asmadım. Pedaqoji universitetin riyaziyyat və informatika fakultəsini bitirmişdim. Məni riyaziyyatçı görmək atamın arzusu idi. Mən də ixtisasımdakı dəqiqliyi çox xoşlayırdım. İşimlə arzularım bir-birinə mane olmurdular.

Arzularım bəzən reallıqdan uzaq olurdu. Yazıçı dostlarım bu nöqsanımı mənə tez-tez deyirdilər.

- Sən özünçün bir dünya yaratmısan! O dünyada yaşayırsan. Yen real dünyaya!

Real dünyanı həyatda görürdüm. Nə fikirlərin, nə də əməllərimlə o dünyaya qarışmaq istəmirdim. Həyatda çoxüzlü adamlarla tez-tez qarşılaşırdım. Yaradıcı adamları Tanrının istəklisi qəbul edib onların səmimi olacaqlarını güman edirdim. Vaxt keçdikcə bəzi adamlar haqqında yanıldığımı gördüm. Olduğu kimi görünmək istəməyən adamlarla əlaqə saxlamaq məni tez bezdirdi. Ətrafımdakıların daxili aləmlərini gördüyümdən onların

www.kitabxana.net – Milli Virtual Kitabxana

sözlərinə inanmadım. Zahirən gözəl görünən bəzi adamların çirkin mənəviyyatı mənə pis təsir etdi.

Həyatda hər şeyi pul həll etdiyini bildikdə ideyalarımdan əl çəkdim. Daxilimdəki hislərə-mənə qalib gəldim. Pul qazanmaqçün mənim öz işim vardı. Pula və şöhrətə görə kiminsə qarşısında alçala, dəyişə bilməzdim. Atamın istədiyi kimi bir müddət müəllim, sonra isə iqtisadiyyatın müxtəlif sahələrində işlədim. Lazım olan qədər pul topladım. Daxilimdəki mən mənə imkan versəydi daha çox qazana bilərdim. Ancaq, pul mənə məimçün əziz olan adamın həyatını xilas etməyə kömək etmədi. Həyat gözümdən düşdü. Fikirlərimi heş kiminlə bölə bilmədim, tək qaldım. Bu vaxt xəyallarım mənə kömək etdi. Daxilimdə öldürdüyüm mən dirildi. Məni sadəcə dinləyərək xoşbəxt etdi. Ötən illəri yaşamadığımı, süründüyümü hiss etdim.

Hislərimi köçürdüyüm hekayəmi tamamlayıb pəncərənin qarşısına keçdim. Təbiət gözümdə dəyişdi. Gül-çiçək sanki, dil açıb mənimlə danışdı. Onların gözəlliyinə heyran oldum.

- Sizləri sevməmişəmsə, yaşamamışam! - Dərindən nəfəs alıb güllərin ətrini ciyərlərimə çəkdim. Daxilimdəki mənə görə Allahıma təşəkkür etdim!

www.kitabxana.net – Milli Virtual Kitabxana

Görüş

Günəş uca dağların arxasına keçərək gözdən itdi. Şəfəqləri üfüqü qırmızımtıl rəngə boyadı. Ağ dumanlıqlar üfüqü özündə əks etdirərək səmada bənzərsiz mənzərə yaratdı. Mənzərəni müşahidə edərək xəyallara daldım. Günəşin doğuşu kimi batışının da cazibədar olması məni heyran etdi. Birdən telefon zəng çaldı. Qardaşım idi. Səsi həyacandan titrəyirdi.

- Bacı, sənə ehtiyacım var!

Narahat oldum. Onun yanında olmadığımçün özümü qınadım.

- Nə olub!

- Bu gün anamızı Bakıya-xəstəxanaya yazdılar. Getmək istəmir... Gəl danış. Bəlkə, səni eşitdi.

Qocalığın ikinci uşaqlıq olduğunu çox eşitmişdim. İnanmamışdım. Deyilənlərin həqiqət olduğunu gördükcə bəzən nə edəcəyimi bilmirdim. Həmişə düzgün hərəkət etməsəm də səmimi olmağa çalışırdım.

- Yaxşı, gəlirəm. Sən danışdığımızı evdə demə.

- Bacı, gör nə edirsən! Sən mənim həm qardaşım, həm də bacımsan! Kömək et!

Nə edəcəyimi bilmirdim. Anam qardaşımı çox istəyirdi. Onu eşitməmişdirsə, məni də eşitməyəcəkdi. Bu yerdə yalnız yalan söyləmək lazım idi. Atamla danışıb Bakıda işim olduğunu, axşam yola çıxacağımı bildirdim. Telefonda anamın səsini eşitdim.

- O, qız kimlə gedir?

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Heç kimlə. Tələsik oldu. Kiməsə deməyə vaxt tapmadım.

- Gəl mənimlə gedək!

Bu sözləri gözləyirdim. Bakıda onu yola gətirib həkimə aparacağıma ümid edirdim. Axşam Gəncədən qatarla yola düşdük. Yalanın mənə baha başa gələcəyini bilirdim. Ona görə də, sıxıldığımdan onun yerini rahatlayıb kupedən çıxdım. Pəncərənin qarşısında mənə oxşayan orta yaşlı kişi gördüm.

Kişi çaşqınlığımı görüb:

- Sizə kömək lazımdırmı! - dedi.

- Yox, sağ olun...

Qatarda anama həqiqəti dedim. Acığı tutdu. Məni xeyli danladı. Ancaq, daha iş-işdən keçmişdi. Geriyə qayıda bilməzdik.

Səhər tezdən Bakıya çatdıq. Şəhər on beş il əvvəl gördüyüm şəhər deyildi. Dəyişmiş, gözəlləşmişdi. Gedəcəyimiz xəstəxananı birtəhər tapdım. Xəstəxanada bizi yaxşı qarşıladılar, yüksək səviyyədə qulluq etdilər. Kollektivdəki mehribançılığa və işgüzarlığa heyran oldum. Arada qatarda gördüyüm adamla rastlaşdım. Həkim imiş. Kömək etməyi təklif etdi. Razı olmadım. Xəstəxanadan çıxacağımız gün mənə yaxınlaşdı.

- Bacı, gedirsiniz... Kim olduğunuzu bilənmədim! İcazə versəydiniz ananızla görüşərdim.

www.kitabxana.net – Milli Virtual Kitabxana

İlk görüşdən aramızda qeyri-adi doğmalıq hiss etmişdim. Onun kim olduğunu bilmək mənimçün də maraqlı idi. Razılaşdım.

Anam bizi gördükdə sevincək çarpayıdan durub onu qucaqladı.

- Şahin, oğlum, nə yaxşı gəldin! Xeyli vaxtdı səni görmürəm. Artıq mən qocalmışam, sən də yaşa dolmusan!

Şahin anamın əllərindən öpdü. Gözləri yaşla doldu.

- Sizi doğma anam kimi sevirəm. Burada olduğunuzu bilmirdim. - Mənə baxdı. Onu baxışlarından tanıdım. Uşaqlıqda hamıdan çox istədiyim əmim oğlu idi. - Əmim necədi!

- Yaxşıdı, sağ ol! Bizləri tamam unutmusan... Qardaşların da şikayət edir.

- İşim çox olur. Vaxt tapa bilmirəm.

- Doğmaların üçün həmişə vaxtın olmalıdı!

- Bilirəm... Rəhmətlik anamın xəstə vaxtlarında da yanında ola bilmədim! Ömrüm boyu peşmançılıq çəkdim. Bu gün bir az rahatlandım...

Pullu xəstəxanada bir çox xidmətlərin nədən pulsuz olduğunu indi başa düşdüm. Hesabları, o, ödəyibmiş.

Anam:

- Qocalara var-dövlət lazım deyil, oğul! - dedi. - Biz sizdən diqqət gözləyirik!

Əmim oğlu başını aşağı saldı. Dinmədi.

- Ana, biz təsadüfən qarşılaşdıq.

- Qızım, təsadüf də zərurətdən doğur!

- Əmiqızı, yığışın bizə gedək! - Xalatını soyunub bizimlə getməyə hazırlaşdı.

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Yox, artıq gecdi. Getməliyik.

- Gec olmaz!

O, sözündən dönməyib bizi evinə apardı. Ailəsi ilə tanış etdi. Xoşxasiyyət həyat yoldaşı, mehriban uşaqları vardı. Axşama qədər bir yerdə olduq. Ayrıldıqda vaxtın tez yetişdiyinə, itirdiyimiz illərə heyfsləndik.

Gedərkən məni narahat edən fikirləri əmioğlu ilə bölüşdüm.

- Əmioğlu, biz bu gün bir-birimizi tanımırıqsda, sabah uşaqlarımız tamam yadlaşacaqlar!

- Günahkarıq! Nə qədər sağıq, çalışaq səhvlərimizi düzəldək! Həyatda ayaqda qalmaq üçün çırpınırıq. Bir gün də sönüb gedəcəyik. Uşaqlarımızı onlar üçün yaratdığımız zülmətdə tək qoyacağıq.

Xəyallarımda batan günəşin səmada yaratdığı mənzərə canlandı.

- İnsan həyatın günəşidi! Günəşin səmadakı parlaq izi kimi insanın da həyatda izi olmalıdı!

Anam:

- Allah köməyiniz olsun! – söylədi.

www.kitabxana.net – Milli Virtual Kitabxana

Qorxu

Günlərin bir günü kitab yazmaq - daha doğrusu yazdıqlarımı nəşr etdirmək fikrinə düşdüm. Kitab riyaziyyatın tədrisi metodikasına aid olduğundan məsləhət və icazə üçün müraciət etdim. Baxmaq istədilər. Baxacaq səxslərdən biri riyaziyyatçı, diğəri isə dərsliklərin müəllifi olmadığını dedi. Işin yaxşı tərəfini görməyib başqaları ilə görüşmədən kor-peşiman geri qayıtdım. Yolda böyük çətinliklərlə qarşılaşdım. Əvvəlcə bilet tapılmadı. Sonra yolda avtobus qırıldı, kondisioner işləmədi.

Bütün işlərim internetlə bağlıdır. Evdə saytlarıma baxmaq istədim. Açılmadı. Qlobal şəbəkələrdəki profillərim, poçtlarım da bağlanmışdı. Bir həftə İnternetdə işləyib işlərimi qaydaya saldım. Lakin hadisələr ürəyimə xal saldı. Haqsızlıq etdiyimi fikirləşdim. Zəng edib üzr istədim. Sənədləri hazırlayıb gətirməyimi istədilər.

Sənədləri hazırlamaq elə ilk cəhddən alınmırdı. Materialları çap etmək istədim. İki printerdən biri işləmədi. 20-dən çox kompyuter merkəzinə müraciət etdim. Hər yerdə bir cür problem yarandı. Lazim olan yerə materialları diskdə verdim. Böyük ehtimal ki həmin yerdə disk açılmayacaqdı. Materialları 2007-ci ilin mətn redaktorunda yığmışdım.

Təqdimat hazırladım. Təqdimat başlayan vaxt netbukum söndü. Nootbuk gətirdilər. Gah projektoru

www.kitabxana.net – Milli Virtual Kitabxana

tanımadı, gah yanıb keçdi. Sonda projektor söndü. Şifahi məlumat verməli oldum.

Bütün çətinliklərə baxmayaraq materiallar haqqında iki ay yetərincə danışdım. Lakin, sonda mənə dedilər ki yuxarıdan (Allahdan deyil) qorxurlar, sənəd verə bilməzlər. Düzü çaşdım, yazdıqlarımdan şübhələndim. Materiallara bir daha baxdım. Çinayət tərkibi görmədim!

Fikirlərimi aydınlaşdırmaq üçün şəxsiyyətinə hörmət etdiyim bir müəllimimlə görüşdüm. Hadisəni danışdım. Məsləhət istədim. O məni dinlədikcə tutuldu, rəngi qaraldı. Bir neçə dəqiqə alnını sıxıb dayandı. Susdu. Mən onda başa düşdüm ki niyə doğmalarım bu işlərdən əl çək deyirlər!

www.kitabxana.net – Milli Virtual Kitabxana

Zərərsiz

Gənc müəlliməmiz nişanlanmışdı. Təbrik etdik, xoşbəxtlik arzuladıq.

Yoldaşlar:

- Ailə quran kimi yoldaşınla Rusiyaya get! İşləmə! - dedilər. - İmkan olandan sonra işləməyə ehtiyac yoxdu.

Müəllimə qızarıb köksünü ötürdü.

- Məni qovursunuz?

- Get, amma orada işlə. - dedim. - İşsiz çətin olar. Mən imkan olsa da işləyərəm.

Sözümü qurtarmamış bəzi yoldaşlar:

- Sən öyrənmisən. - söylədilər. - Yoldaşındı ki səni saxlayır. –Hətda biri otaqdakı yeganə kişini çıxardıb mənə söz deyəcəyini dedi. Kişi getdi, sözünü deyəmmədi.

Tutulmuşdum.

- Hansı pis işi görmüşəm? - soruşdum.

- Yazılarını, get-gəllərini heç kim qəbul etməz.

Yoldaşların nə demək istədikləri mənə aydın oldu.

- Sizlər kimi müəlliməm. - dedim.- Evdə də işləyirəm, çoxlarınızın yaxın belə getmədiyiniz təsərrufatda da. Yazarlığım isə uşaqlıqdan qəlbimdə var. Uzun illər bu cür münasibətlərə görə hislərimi öldürdüm. Sonda bacarmadım. İndi həm bədii, həm də elmi əsərlər yazıram. Qəlbən rahatam. Kimsəyə də zərərim yoxdu. Siz niyə narahat olursunuz?

Hərə sözünü bir tərəfə yozdu. Düzü qulaq asmadım. Boş sözlərə sərf ediləcək vaxtım yox idi. Uğurlarıma "Təbrik edirəm" belə deməyən yoldaşımı xatırlayıb köksümü ötürdüm.

www.kitabxana.net – Milli Virtual Kitabxana

Xətrini çox istədiyim müəllimimin - Fatma xanım Bünyatovanın problemlərimi biləndən sonra soylədiyi sözləri xatırladim.

- Həqiqət+İradə=Nurlu həyat. Onu hec kəs üstələyə bilməz. Allah güc gələnlərə fiziki güc yox, bolluca düşüncə versin!

Daxilimdə yaşayan və mənə güc verən Mənim:

- Möhkəm ol, Nurlan! Biz bu həyata qalib gələcəyik! –dedi.

Özümə inamim artdı, güclü olduğumu hiss etdim. Ancaq, bir sual məni çox düşündürdü. İrəli gedənini, xüsusilə də irəli gedən qadınını bu cür qarşılayan bir cəmiyyət inkişaf edə bilərmi?!

www.kitabxana.net – Milli Virtual Kitabxana

Tər çiçəklər

Havadan bahar fəslinin ətri duyulurdu. Quşlar nəğməsilə, təbiət nəfəsilə yazın gəlişindən xəbər verirdi. Hər yerdə həmçinin, məktəbimizdə də bayram şənliyi keçirildi. Bütün kollektivimiz tədbirdə iştirak etdi. Mənsə vaxtım olmadığından şənliyin rəsmi hissəsində iştirak etdim. Ancaq, fikrim tədbirin ikinci hissəsində iştirak edib Elçin müəllimlə qeyri-rəsmi şəraitdə görüşmək idi. Onunla dərs ilinin əvvəlində müzakirə etdiyimiz bir məsələni aydınlaşdırmalıydım.

Dərs ilinin əvvəlində məktəbimizə cavan bir müəllim gəldi. Universiteti yenicə bitirmişdi. Təcrübəsiz olduğu aydın görünürdü. Kollektivə uyğunlaşa bilmirdi. İxtisasımız eyni olduğundan ona kömək etməyi qərara aldım. Bir müddət məsləhətləşdik. Onda bəzi zəif cəhətlərin olduğunu gördüm.

- Şagirdlərə zəif cəhətlərini bildirmə! - dedim.

Müəllim özündən razı halda:

- Narahat olmayın, mən çox sərtəm. - dedi.

Elə həmin vaxt sözlərimi səhv anladığını bildim. Mən əsasən onun təcrübəsizliyini nəzərdə tuturdum. Çünki, şagird qarşısındakı müəllimin zəif olduğunu bildikdə ona hörmət etmir...

Aradan xeyli vaxt keçdi. Bir gün məktəbin həyətində Elçin müəllimlə rastlaşdım. Əsəbi halda harasa gedirdi. Məni görüb dayandı.

- Elçin müəllim, sözlü adama oxşayırsınız. - dedim.

Elşin:

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Sizə bir söz demək istəyirəm.- dedi. - Sizdən icazəsiz işlərinizə, jurnallarınıza baxmışam...

- Əcəb etmisiniz. İcazəyə ehtiyac yoxdu.

- Siz şagirdlərə aşağı qiymətlər yazmışdınız. Nə yaxşı narazılığınız alınmır...

- Niyə narazılığımız alınmalıdı? Onlar neçəyə layiq olduqlarını bilirlər.

Elçin:

- Sağ olun! - deyib getdi. Danışığından baş açmadım. Sonradan, o, bir müddət məktəbdə olmadı. Dərslərini mən əvəz etdim. Onun siniflərinə dərs deyəndə vəziyyətin nə yerdə olduğunu başa düşdüm. Gənc müəllim sinifdə özünü çox sərt aparmış, şagirdlərlə ünsiyyət qura bilməmişdi. Müəllim və şagird arasında konflikt yaranmışdı. Özümü günahkar hiss etdim.

Bu gün isə həmin müəllimi şənlikdə görə bilərdim. Tələsik işlərimi qaydaya salıb evdən çıxmaq istəyirdim ki, güclü yağış yağmağa başladı. Əhvalım korlandı. Çünki, bəzən mənə elə gəlir ki, yağış ya bir xoşagəlməz hadisə olduğunu, ya da olacağını xəbər vermək üçün yağır. Bu dəfə hər şeyin yaxşı olacağına ümid edib evdən çıxdım. Bağçada yenicə çiçəkləmiş zoğal ağacı diqqətimi çəkdi. Yağış çiçəklərin gözəlliyini daha da artırmış, olara füsünkar gözəllik vermişdi.

Şənliyə xeyli gecikdim. İçəri daxil olduqda şagirdlərim məni qapıda qarşıladılar...

Tədbir yüksək səviyyədə təşkil olunmuşdu. Burada müəllim, şagird və valideynlər arsında mehribançılıq vardı.

www.kitabxana.net – Milli Virtual Kitabxana

Çiçəklərdən də gözəl görünən uşaqların təmiz və məsum çöhrələri sevgidən parlayırdı. Özlərini xoşbəxt hiss etdiklərindən onların daxili dünyasını görmək olurdu. Bir anlıq mənə elə gəldi ki, nağıllar aləminə düşdüm. Elşin müəllim yadımdan çıxdı.

- Arzu müəllim, indi sizin sirrinizi bildim. - Elçin müəllim idi. Stulu çəkib yanımda oturdu. - Deməli, şagirdləriniz sizi sevirlər... Nə desəniz qəbul edirlər.

- Düzdü...

- Onları çox istədiyiniz aydın hiss olunur. Qəribədi. Bu qədər şagirdi necə sevə bilirsiniz.

Məktəbi bitirmiş şagirdlərimi xatırladım. Onlar buradakılardan dəfələrlə çox idilər. Hamısının da xətrini istəyirdim.

- İnsan sevgisi sonsuzdu. - dedim. - Uşaqların hər birinin gözəl tərəfləri var. Görə bilsəniz siz də sevərsiniz.

- Siniflərdə çətin uşaqlar var...

- Ailəmizdə də çətin uşaqlar olur. Şagirdlərimiz bizim övladlarımızdı. Onları öz uşaqlarımız kimi qəbul etsək sinifdə yaxşı ünsiyyət qura bilərik!

Elçin müəllim xeyli fikrə getdi.

- Uşaqlar, tər çiçəklərə bənzəyirlər. - dedi. - Onları soldurmaq günahdı! Səhvlərimi düzəltməyə calışacağam. Məktəbdə olmadığım müddətdə həqiqətən darıxdım. Amma bunu onlara deyə bilmərəm!

- Sözə ehtiyac yoxdu. Onlar sizin davranışınızdan münasibətinizi başa düşəcəklər. Uşaqlar safdılar, kin saxlamağı bacarmırlar.

www.kitabxana.net – Milli Virtual Kitabxana

Elçin müəllim sinifdə yaşanan konflikti bildiyimi hiss edib məndən utandı. Mənsə bir-birimizi düzgün başa düşdüyümüz üçün sevindim.

www.kitabxana.net – Milli Virtual Kitabxana

Kosmosa səyahət

Aysel balaca qardaşı Ayxan ilə oynamağı çox xoşlayırdı. Ayxan sözə baxmayan, davakar, dəcəl olsa da şirin uşaq idi. Həmişə bir az oynadıqdan sonra ya dağallıq edər, ya da həyətdəki toyuq-cücəni daşa basardı. Bir dəfə də əlinə ağac alıb həyətə düşdü. Toyuqları qovmağa başladı.

- Yaramazlıq eləmə! Heyvanları incitmə! - deyən anasına da əhəmiyyət vermədini. Ağacı atıb toyuqun ayağını zədələdi. Xoruzun hirslənib ona tərəf gəldiyini görəndə isə qorxub bacısının yanına qaçdı.

- Qaqaş, sən heyvanları incitməkdənsə, onlarla dost ol. Anam deyir ki, onları Allah baba yaradıb. Biz onları sevsək. Allah da bizi sevər. Arzularımızı yerinə yetirər.

- Heç sənin arzularını yerini yetirib?

- Hə! - Fikirləşdi. - Mən göyləri gəzmək istəyirdim. Gəzdim. Göylərdə dostlarım, iri kosmonavt xoruzum var. Onlar hər gün dəlib məni kosmosa aparırlar.

- Haraya! - Ayxan təcüblə soruşdu.

- Göylərə...

- Mən də gəzmək istəyirəm.

Ayxan bir qab dən gətirib həyətə tökdü. Xoruz dənə tərəf yüyürdü. Qaqqıldayıb toyuq-cücəni də başına yığdı.

Axşam oldu. Hamı yatdı. Ayxan isə çarpayısının ortasında oturub onu gəzməyə aparacaq xoruzu gözləyirdi. Gözləyə-gözləyə yuxuladı. Yuxular Ayxanı uzaqlara - göylərə apardı. Buludların icində gəzdi, dumanlıqları yarıb keçdi, ucu-bucağı görünməyən kainatda uçmaga başladı.

Yuxusunda:

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Yaxşı ki, yaxşı iş gördüm! - deyərək pıçıldadı. - Göylər gözəldir! Gəzməyə dəyər...

www.kitabxana.net – Milli Virtual Kitabxana

RİYAZİ HEKAYƏLƏR

Riyazi hekayələrin əksəriyyəti "Riyaziyyatın konstruktiv təlimlə tədrisi metodikası (Düşüncənin riyazi dili)" adlı metodik vəsaitdə nəşr olunub.

www.kitabxana.net – Milli Virtual Kitabxana

F.D. Bünyatova,
İdrak məktəbinin direktoru

“Nurlan Quliyevanın pedaqoji tapıntıları”

Təqdim olunan “Düşüncənin riyazi dili” adlı metodik vəsaitin adından bəlli olur ki, müəllim öz işində, qələmə aldığı təcrübəsində, riyaziyyat fənnin tədrisində yaddaşa yox, düşüncəyə önəm verir. Bu çox diqqətə layiq, önəmli bir cəhətdir ki, müəllim dünya pedaqoji məkanında ən öndə gedən koqnitiv – dərketmə nəzəriyyəsinə əsaslanan konstruktiv təlimdən istifadə edərək dərslərini düşüncə, anlam yolunda qurur. Bu qeyri-adi bir metodik vəsaitdir, qeyri-adiliyi ondan ibarətdir ki, müəllimin verdiyi dərslərin quruluşu yeni üsuldadır, şablon yoxdur, yaradıcı yönümündə təqdim olunubdur. Müəllimin rəvan izahı, şagirdlərin qarşısında qoyduğu anlam sualları, bu suallardan yaranan şagird bilikləri, müəllimin əlavələri ilə genişlənərək püxtələşib və hər bir şagirdə öz riyazi dünyasını qurmaq üçün gözəl imkan yaradıbdır. Bu imkanlar hər dəfə rəngbərəng olaraq müəllim-şagird yaradıcılığından yeni çalarlar alır.

Üç hissədən ibarət olan metodik vəsaitin birinci hissəsi “Riyazi təfəkkür” adlanır. Bu hissədə müəllim öz dərslərindən çıxarış verərək, şagirdlərin öz riyazi təfəkkürlərinin qurulması yolunu göstərir.

www.kitabxana.net – Milli Virtual Kitabxana

Təfəkkürün bilik strukturları necə qurulur? Bu strukturlar müəllimin ardıcıl şəkildə qoyduğu suallardan doğur. Suallar şagirdləri özünə qaytarır, onlara biliklərini ortalığa çıxartmaq, müəllimin suallarına və şərhlərinə əsasən öz yeni biliklərini yaratmaq imkanı verir. Ortalığa çıxan, yaradılan yeni bilik isə ətraf mühitdə öz tətbiqini taparaq real biliyə çevrilir. Çünki, burada müəllim şagirdlərini riyaziyyat biliklərini həyatı biliklərə tətbiq etməyə yönəldir. Kitab bu baxımdan dəyərlidir. Belə ki, müəllimin yalnız, funksiya və həndəsi fiqurların məğzinin açma yolu, metodiki cəhətdən yeni bir addımdır. Bu addımı uğurlu saymaq olar.

Kitabın ikinci hissəsi "Riyaziyyat konstruktiv təlimlə" adlanır. Bu hissədə müəllim yenə də öz pedaqoji tapıntılarını oxucularla bölüşür.

Nədir bu pedaqoji tapıntılar? Bunlar konstruktiv təlimlə qurulan dərslərdə şagird düşüncəsinin inciləridir; bunlar müəllimin ardıcıllıqla qoyduğu suallarla, şagirdlərin biliklərinin keyfiyyətcə dəyişmə yoludur; bunlar çətin sayılan riyaziyyat elminin anlamlarını dərk etmək üçün şagirdlərin bəsit anlamlarından riyaziyyata atılan körpüdür. Burada bir müəllimin tutduğu yol aydın görünür; bu ənənəvi öyrətdim, öyrəndin, yadında qalsın, yeni problem qoydum, onu axatarıb tapıb həll etdim yolu deyil. Bu yol təfəkkür yoludur, bu yol düşüncə yoludur. Bu yolun öz qanunu, öz ahəngi vardır. Əvvəlcə anla, sonra onu biliyə çevir, onun üzərində çox işləyərək bacarığa çevir, ondan yeni bilik yarat.

www.kitabxana.net – Milli Virtual Kitabxana

Biliyin yaradılmasını vəsaitin "Riyaziyyatın obrazlı dili" adlanan üçüncü hissəsində də görmək olar. Bölmədə şagird təfəkkürü müəllim yaradıcılığının təzahürüdür. Müəllimin sualı şagirdlərin düşüncə məhsuludur. Hər bir şüurlu varlığın düşüncəsi vardır. Onu o vaxt inkişaf etdirmək olar ki, bu yolun yolçusu olasan. Bu vəsaitdə də biz həmin yolun yolçularının – müəllim və şagirdlərin birgə getdiyini görürük və bu yolun yolçularının çoxalması naminə vəsait tövsiyyə olunur.

www.kitabxana.net – Milli Virtual Kitabxana

Ala-dəymiş

Qarpız yaşıl tağların arasından boylanıb:

- Özümdən yoxdu! – dedi. – Kürəşəkilliyəm. Günəş də mənə bənzəyir.

Günəş hirsindən qızararaq alov püskürdü. İsti nəfəsi külək olub Yer səthində əsdi. Bostanın oynatdı, tağları araladı. İsti küləklər çətirsiz qarpızı çatlatdı.

Yemiş:

- Nə oldu, Günəbənzər! – dedi.

Qarpız özünü sındırmadı.

- Nə olacaq ki! Şirinliyimdən çatladım. Niyə istehza edirsən! Kainat da mənə bənzəyir.

- Sənə yox, kürəyə.

- Kürə də məndədi, sfera da. – Çatını göstərdi. – Qabığım sfera, daxilim kürədi. – Şişərək iki yerə bölündü. Qırmızımtıl, kalımsoy idi. – Kəsiyim isə dairədir. Diqqətlə baxsan dairənin kənarındakı çevrəni də görərsən.

Yemiş gülərək söylədi:

- Tamamilə həndəsi fiqurlarmışsan ki!

- Sənsə, uzaqbaşı ellips ola bilərsən...

Şamba söhbətin bu yerində dözməyib:

- Biz ellipsvari də oluruq, kürəşəkilli də! - dedi. - Sən-sə, qırmızımtıl, hələ yetişməmiş qarpızsan.

Balacanın sözü Günəşə xoş gəldi. Gülümsəyib nəfəsi ilə bostanı oxşadı.

- Kalla da danışmaq asandı, dəymişlə də. Vay aladəymış əlindən. – söylədi. - Aladəymiş olmayın!

www.kitabxana.net – Milli Virtual Kitabxana

Münasibət

Triqonometriya səmada yarandı. Həyat üçbucağında (ömür, əməl və əbədiyyət) münasibətlərini müəyyənləşir-di. Əbədiyyəti əməllərin yasama nisbəti kimi qəbul etdi. Zamanı xeyrə və ya şərə bölərək adamların həyata baxış bucaqlarını hesabladı.

Triqonometriya özünü təsdiqləmək üçün fəzadan müstəviyə endi. Düzbucaqlı üçbucaqda bucaq (əbədiyyət-həyata baxış) və tərəflər (əməllərin zamana-ömrə nisbəti) arasında münasibət oldu.

Veril*miş bucağın sinusu =qarşı katet/hipotenuz*

Verilmiş bucağın kosinusu= qonşu katet/hipotenuz

*Verilmiş bucağın tangensi= qarşı katet/*q*onşu katet*

Verilmiş bucağın kotangensi= qonşu katet/qarşı katet

Sonra elmin dərin qatlarına baş vurdu. Triqonometrik eynilikləri, sinuslar və kosinuslar teoremini ifadə etdi. İrəlilədikcə əməlinin nəticələrinə - xeyir yaxud, şər olduguna fikir vermədi. Bir vaxt ayıldı ki, tənlikdə məchul olub. Əvvəlcə özünü tapmalıdı. Tənlik isə onu qaydalara uyğun (cəbri tənliyə gətirmək, yardımçı bucaq daxil etmək, triqonometrik ifadələri qiymətləndirmək…) həll etdi.

Bu yerdə özünü hakim sayan triqonometriya Təbiətə və qanunlara tabe olduğunu anladı. O, həyat naminə münasibətlərdən şəri uzaqlaşdırdı. Əbədiyyətə qovuşmaq üçün xeyri ömürə yoldaş etdi.

www.kitabxana.net – Milli Virtual Kitabxana

Qələm

Sehirli qələm müstəvidə bir neçə xətt çəkdi. Onları nizamlayıb adlandırdı. Birinci xəttə toxunmadı. O kainatın dərinliklərinə doğru sonsuz uzandı. İkinci düz xətti kəsdi. Şüa oldu. Üçüncü düz xətti isə hər iki tərəfdən kəsib parça adlandırdı.

Sonsuzluğuna qürrələnən düz xətt şüaya:

- Bir bunun boy-buxununa bax! – dedi. – Bir tərəfə uzanaraq mənə tay olmaq istəyir. Unutma ki, sən yarım düz xətsən.

- Onda iki mən ol! - Şüa cavab verdi.

Düz xətt qatlandı. Bucaq oldu.

- Kor bucaq oldun.

- Fərqi nədi? Bucaq ortaq təpəli iki şüa deyilmi?

- Doğrudu. Adı ki bucaqdı.

Xətt hirslənib tərəflərini düz saxladı.

- Düz bucaq oldun. Özünü öymə. Açıl, bir dənə düz xətt ol.

Düz xətt dilxor bükülərək iti bucaq oldu.

Şüa lovğalanaraq:

- Bir daha mübahisə etməyin! – dedi.- Sizlərdən qüdrətliyəm. Günəş də işıq şüası saçır. – Parçaya baxdı. – Sənsə çox kiçiksən.

- Doğrudur. Lakin, sən mənsiz nə ədədi şüa, nə də şkala ola bilərsən. Kəmiyyətləri ölçmək qüdrətin olmaz.

Sehirli qələm ağıllı balacadan (parçadan) razı halda düz xətti açdı. Yanında onu kəsməyən ikinci düz xətt çəkdi. Onları paralel düz xətlər adlandırdı. Mübahisəni kəsdi-yini

www.kitabxana.net – Milli Virtual Kitabxana

zənn etdi. Az keçmiş mübahisə qızışdı. Xətlər kəsişdi. Sehirli qələm bu dəfə onları düz bucaq altında kəsişdirib perpendikulyar adlandırdı.

- Düz dayanıb, düzgün mübarizə aparın!

Xətlər qələmin əmrindən çıxıb istədikləri kimi kəsişdilər. Əyildilər.

Qələmsə, sakit halda:

- Həyat mübarizədir! Güclü qalib gələcək! – deyərək DÜZün qələbəsini arzuladı.

www.kitabxana.net – Milli Virtual Kitabxana

Təfəkkür dünyası

Kainat yarandığı gündən Allah sevgisindən güc aldı. Ümumdünya cazibə qanunu qalaktikanı, planetləri vəhdətdə saxladı. Tamlığa can atan bütün yarımlar bu sevdaya həyat verdilər. Bütün münasibətləri elə ilk gündən funksiyalar müəyyənləşdirdi.

Rəvayətə görə, riyaziyyat ölkəsində funksiyalar ailəsi yaşayırdı. Təfəkkür dünyasında onun mühüm yeri vardı. Ana arqumentlə ata funksiya çox xoşbəxt idilər. Ata ana funksiyanın sərbəst fikirlərinə hörmətlə yanaşır, ondan asılı olaraq dəyişirdi. Bir gün arqument müəyyən olunmuş səddi keçdi. Funksiya ətrafındakıların qınağına tuş gəldi.

İnteqral dostuna hirsləndi.

- Sən necə kişisən ki, ailəni sərbəst buraxmısan! Mən inteqralam. İşarəm altında olan bütün münasibətlər – funksiyalar mənə tabedirlər.

Sözlər funksiyaya ağır gəldi. Arqumentdən ayrıldı. Arqument sıfra bərabər-tənlik, funksiya sıfır-koordinat başlanğıcı oldu. Ayrılıqda mənalarını itirdilər. Kor-peşman barışdılar.

Ailə övladlarını başına toplayıb həyatına davam etdi. Müxtəlif münasibətləri ifadə edən övladlar böyüyərək funksiyalar oldular. Ata onlardan razı idi. Lakin, kiçik oğlu ərkəsöyünlük, özbaşınalıq edirdi. Funksiya keçmiş günlərini, səhvlərini xatırladı. O, $y = kx + b$ münasibətini ifadə edən oğlunu danladı.

Oğul:

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Ata, ailəmiz sərbəstdir. – dedi. – İstədiyimiz kimi hərəkət edə bilərik.

Ata acıqlanıb y = kx + b - də b = o etdi. y = kx funksiyası arqumentin sıfır qiymətində sıfıra çevrildi.

Oğul atadan incidi.

- Məni sən sıfır etdin. Ailəmi dağıtdın.

- Günah özündədir. Sərbəst idiniz...

- Xanımım səhv etdi - sıfır oldu. Ayrıldıq.

- Hələ yaxşı qurtarmısan. Allahın səni sevib. Mənfiyə düşsəysdi mənliyini, mənəviyyatını itirərdin.

- Qadındakı gücə bax!

- Bəs bilmirsən qadın yıxmayan ev yüz il tikili qalar!

- Qardaşlarım necə yaşayırlar? Kvadrat, kök və kəsr funksiyaları deyirəm.

- Onların da hər biri üçün arqument – qadın təhlükəsi var! Kvadrat funksiya arqumentdən asılı olaraq sıfra çevrilə, əmsala görə mənfi ola bilər.

- $y = \sqrt{x - b}$ münasibətini ifadə edən qardaşım xoşbəxtdi. Kökün qanunları onu həmişə müsbət edir.

- Doğrudur... Unutma ki, kökaltı ifadə sıfır ola bilər. Normal yaşayışımız üçün hamımız diqqətli olmalıyıq. Kəsr funksiyanı ifadə edən oğlumun həyatı da arqumentdən asılıdır.

- Niyə?

- Arqumentin məxrəci sıfra çevirən qiymətində oğlum sonsuzluqda yox olur! Axı sifra bölmə əməli yoxdu.

Gənc funksiya xeyli fikrə getdi.

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Deməli, biz funksiyaları arqumentlər idarə edir!

- Düzdür. Bizlər yenilməz, məğrur, güclü görünürük! Lakin, hamımız bizi idarə edən o qadından asılıyıq!

www.kitabxana.net – Milli Virtual Kitabxana

Qanun

Riyaziyyat təfəkkür dünyasını fəth edərək:

- Elmlərin şahıyam! – dedi.

Təfəkkür:

- Oğul, böyük danışma! – söylədi. – Səni təxəyyülümdə yaradıb öz dünyamda böyütmüşəm.

- Ustad, hirslənməyin! Mən nəinki dünyanın, hətta bütün kainatın şahıyam. Axı elmlər dünyanı öyrənir.

- Belə de... Elmdə şahlığını qəbul etdik. Dünyada şahlığını sübut et!

Riyaziyyat xeyli fikrə getdi. Təxəyyül köməyinə gəldi. Sözə başladı.

- Dünyanı riyazi qanunlar idarə edir. – dedi. - Böyük partlayışdan sonra dünya zərrə-zərrə toplanaraq yarandı. İndi hissə-hissə çıxılaraq məhvə doğru gedir.

Allah yaratdıqlarına sevgisinin qüvvətini bəxş etmişdir. Lakin nifrət onu bölür və ya kök altına salır.

Yaşam həyatın sürətindən asılıdır. Sürətsə, zamana görə dəyişən məkanın törəməsidir. Xeyrin törəməsi xeyirxahları, bədinki isə bədxahları yaradır...

Təfəkkür ağıllı riyaziyyatın sözünü kəsib:

- Xeyirxahları inteqralla, bədxahları kök altına sal! – dedi. - Qoy xeyir yüksəlsin, şər alçalsın.

Riyaziyyat qələbəsinə sevindi.

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Oldu! Dünyanı riyazi qanunlarla yaşadacağam!
Təfəkkür gülümsəyərək susdu. Qəlbində:
- Bizi Yaradan yaşadır! – söylədi.

www.kitabxana.net – Milli Virtual Kitabxana

Çoxüzlü

Zaman səthi sonlu sayda müstəvi çoxbucaqlıdan ibarət olan məkanda durmadan irəliləyir, zamanla təfəkkürü kamilləşdirəcəyinə inanırdı. O, həyatı qaydaya saldığını fikirləşərkən müstəvi fiqurlarının narazılığı fəzanı bürüdü.

Müstəvi fiqurları:

- Ədalətsizlikdir! – dedilər. – Fəzadakı cisimlər əsasən, düzbucaqlı çoxbucaqlılar üzərində qurulubdur. Ayrılıb müstəvi fiqurları olacağıq.

Fəza susdu. Zaman dayanmaq, yaşam məhv olmaq təhlükəsi ilə üzləşdi.

Məsələnin ciddiləşdiyini görüb təfəkkür işə qarışdı.

- Dostlar, gəlin yaşama zərər vurmadan problemimizi həll edək! Nədən narazısınız?

Prizma:

- Oturacaqlqrım istənilən çoxbucaqlı, yan səthim düzbucaqlılardan ibarətdir. Əsasən düz (tilləri perpendikulyar) və düzgün (tərəfləri bərabər) olan halıma baxılır, həllim zamanı düzbucaqlının və düzbucaqlı üçbucağın düsturlarından ($S = ab, d^2 = a^2 + b^2$ – Pifaqor teoremi) istifadə olunur. Düzlərlə yaşadıöıma görə başqa çoxbu-caqlılar məndən inciyir!

Paralelopiped onunla razılaşdı. Kub problemi olmadığını, onsuz da düz bucaqlardan ibarət olduğunu dedi.

www.kitabxana.net – Milli Virtual Kitabxana

Silindr və konus kölgələrinə baxaraq kədərləndilər. Görüntülərində düz bucaq yox idi.

Təfəkkür bu cisimlərin obrazlarını oxşadı.

- Silindr sən düzbucaqlı üçbucağın katetlərindən biri ətrafında fırlanmasından, Konus sən isə düzbucaqlının tərəflərindən biri ətrafında fırlanmasından alınmısan.

Pramida tillərində perpendikulyarlıq tapmayıb:

- Oturacağım çoxbucaqlı, yan səthim ortaq təpəli üçbucaqlardan ibarətdir. – söylədi. - Məndə müstəvi fəzaya yüksəlir. Bu yersiz söhbətləri yığışdırın. Dostluğumuza kölgə salmayın!

Prizma piramidadan narazı qaldı.

- Sənin düz bucaq problemin yoxdu. Ona görə, arxayın danışırsan.

- Düzlük özümdədir. Görmürsən necə möhtəşəməm!

Təfəkkür çoxüzlüləri dinləyərək fikrə getdi. Dahilərdən birinin "Danış ki, görüm səni!" sözlərini xatırlayıb gülümsədi.

- Sizi başa düşdüm. Adınız çoxüzlü olsa da, həlləriniz düzdən asılıdır. Ey çoxbucaqlılar, real olun. Düzbucaqlıların hesabına ayaq üstə dayandığınızı qəbul edin. Forma-nızdan asılı olmayaraq düz olmağa çalışın. Ədaləti zamanın ixtiyarına buraxın. Allahın köməyi ilə düzlər həmişə qalib gəlir!

Zaman ağıllı təfəkkürün sözlərindən xoşlanıb öz axarına düşdü.

- Günün yox, tarixin qalibi olmağa çalışın! – söylədi.

www.kitabxana.net – Milli Virtual Kitabxana

Həqiqət

Həqiqət həyat yollarda zamanını itirib uzaqdan işartı kimi görünən elm diyarına üz tutdu. İlk rastlaşdığı riyazi qanunauyğunluqlar oldu. O özünü elmdə tapacağına ümid edirdi. Elmsə ona həyatdakı rolunu anlatmağa çalışdı.

Elm yaranmanı p ilə işarə etdi. Həqiqət varolmanın $\frac{k}{n}$ şəklində hissəsi oldu. Kəsrə uyğun ədəd isə $\boldsymbol{p \cdot \frac{k}{n}}$ kimi tapıldı. Sonra yaşamın həyatın neçə faizini təşkil etdiyi müəyyənləşdirdi.

a yasamının $b\% - i$, $\boldsymbol{a \cdot b\%} \rightarrow \boldsymbol{a \cdot \frac{b}{100}}$ düsturu ilə hesablandı.

Həqiqət həyatın əsasında dayanmaq istəyirdi. Onun hissəsi olduğuna kədərləndi.

Elm:

- Təmkinli ol, dostum! – dedi. – Həyatın işıqlı üzü, haqqın səsi sənsən!

- Təəssüf! Belə vəziyyətdə görünməyən üz, eşidilməyən səs ola bilərəm!

- Yox, məni sən yaşadırsan.– söyləyərək Elm nur saçdı. - Məndə yaşayırsan!

Həqiqət elmin dərin qatlarına baş vurdu. Hər addımında açıqlanmalı olan məhcullarla rastlaşdı. Anladı ki, elm dəryasıda üzmək də olar, itmək də.

www.kitabxana.net – Milli Virtual Kitabxana

Həqiqət Elmdə hissə göstərən ədədə uyğun kəsr olmasına kədərlənsə də qanunların-dürüstlüyün izahı olduğuna sevindi.

O, $\frac{m}{n}$ hissəsinə uyğun qiyməti k olan elmi $\boldsymbol{k}:\frac{\boldsymbol{m}}{\boldsymbol{n}}$ düsturu ilə müəyyən etdi. c % - i d olan elimin həyatiliyini isə $\boldsymbol{d}:\boldsymbol{c}\% \rightarrow \boldsymbol{d}\cdot\frac{\boldsymbol{100}}{\boldsymbol{c}}$ düsturu ilə hesabladı.

Beləliklə, həyatda itmiş Həqiqət özünü Elmdə tapdı. Uduzduğunu qəbul etməyərək yaşama da bir elm kimi baxdı.

www.kitabxana.net – Milli Virtual Kitabxana

Arzu

Nöqtə qələmdən süzülüb müstəvi üzərindəki nöqtələr çoxluğuna düşdü. O zirvəyə çatmaq arzusu ilə düz xətt boyunca irəlilədi. Lakin, xətt uzanaraq, müstəvi sonsuz genişlənərək nöqtənin istəyini əlçatmaz etdi.Nöqtə küskünləşib bir parçada var-gəl etdi.

Az keçmiş nöqtə özündə güc tapıb:

- Arzular sonda ölür! - dedi və müstəvidən qopub arzularının qanadlarında səmaya qalxdı.

www.kitabxana.net – Milli Virtual Kitabxana

MƏNZUM TƏMSİLLƏR

www.kitabxana.net – Milli Virtual Kitabxana

Qanmaz

Qonşular meşəyə şərikli odun yığmağa gedəcəydilər. Şəhərdən yenicə qayıtmış Səlimdən başqa hamı balta, kəndir götürüb gəldi.

Yaşlı qonşusu dağın ətəyindən onu səslədi.

- Qonşu, ay qonşu... Oduna gedirik, gəl!

O yuxulu-yuxulu:

- Kəndçinin güzəranına lənət! – dedi. - Şəhər heyf deyil.

- Şəhərdən gətirdiyin dostunla gəl. Gəzər...

- Əşi səhər-səhər nə olub? – Qonaq narazı dilləndi.

- Özünüz bilərsiniz... – Getmək istədi.

Səlim oduna ehtiyaclarını olduğunu fikirləşib tələsik dilləndi.

- A qonşu, bir ayaq saxla. Bu gün bizdən adam olmayacaq eşşək olacaq. Gözlə açım, gəlsin.

Kəndçi yoxuşla enən eşşəyin noxtasıdan tutub alçaqdan:

- Onsuz da sizdən adam olası deyil! – dedi. – Uzunqulaqsınız...

Eşşək narazı dartınıb:

- Adamlara yaxşılıq yoxdu ki! – dedi. - Hə qədər işləsəm də yenə istinad yerləriyəm.

Kəndçi onu təzə biçilmiş biçənəyə - mal-qaranın yanına buraxıb meşəyə düşdü. Uzunqulaq palçıqlıqdakı camışa yaxınlaşdı.

- Necəsiniz?

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Yaxşı...

- Mənimçün maraqlıdı...

- Nə?

- Niyə eşşək eşşəkdi palçığa bir dəfə batar deyib bizi qanmazlara məsəl yeri ediblər. Axı siz bizdən də çox palçığa batırsınız.

- Hm! Mən gönüqalınlığımdan buradayam. Sərinləşirəm. Sənsə qanmazlığından palçığa batırsan.

Qonşular odun yığıb getdilər. Qoca kəndçi eşşəyi yükləyib onlarla yola saldı.

Axşam oldu. O, mal-qara ilə evə qayıtdı. Eşşəyi hələ yüklü görüb:

- Yazıq heyvan! – söylədi. – Bütün günü günün altında yüklü qalib!

Camış:

- Eşşək qardaş, niyə məsəl yeri olduğunu anladınmı?! – dedi.

- Yox...

- Yükdən çökmüsən...

- Nə edim? Sahibim boşaltmır...

- Yerə at!

- Atammaram, sədaqətliyəm!

- Qanmazsan!

Uzunqulaq hirslənib silkələndi. Odunlar töküldü.

Sahibi:

- Qudurmuş! – deyib ona tərəf cumdu. Uzunqulaq arxaya baxmadan dağlara tərəf qaçdı.

Kəndçi:

- Qonşu, sabah da oduna getməliyik. – dedi.

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Siz gedərsiniz. Bizdən eşşək də olmayacaq...
- Bilirəm! – Gülümsədi.

www.kitabxana.net – Milli Virtual Kitabxana

Bəy quş

Göyərçin günəşin şəfəqlərilə oynayaraq səmada süzürdü. O, aşağı enib qoca palıd ağacının ətrafında dövrə vurdu. Yaşıl yarpaqların arasından kecərək budağa qonmaq istədi. Gövdəyə yaxınlaşdıqda ağacın koğuşunda böyük bir bayquş gördü. Qorxusundan yerində qanad çala-çala durdu.

Ağayana oturmuş bayquş ağır-ağir gözlərini açdı.

- Qorxma bizlər qonağa toxunmuruq. - Əyri dimdiyini şaqqıldatdı. - Ac olsam da səni yeməyəcəyəm. Yaxın gəl!

Göyərçin dinməzcə budağa qondu. Ürəyində özünü danladı.

- Mənim ağacda nə işim vardı! Niyə bağçaları, həyətləri qoyub buraya gəldim!

Bayquş onun fikrini oxuyurmuş kimi:

- Gəldiyinə peşman oldun? - dedi. - Sənin gəzdiyin yerlər mənimçün yaddı. Rahatlığı, tənhalığı xoşlayıram...

- Nahaq yerə bayquş deyilsınız ki! Məskəniniz xarabalıqlardı...

Göyərçinin cəsarəti bayquşun xoşuna gəldi.

- Biz bəy quşlarıq! Özümüzü gözə soxmadan bir kənara çəkilib təbiətə və insanlara xidmət edirik! - Göyərçini tərs-tərs süzdü. - Hirsli vaxtıma düşsəydi boğazını üzərdim. Bil ki, xarabalıqlarda siçan və siçovul çox olduğu üçün yaşayıram. Onlar mənim əsas qidamdı. Xarabalıqlar olmasa qidamı dəyişər, lazım olsa onu başqa yerdə axtararam. Bir də xarabalığı mən yaratmıram ki!

- Arzulayırsınız...

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Səhvin var! Biz ekoloji tarazlığı qoruyuruq. - Bayquş xeyli fikrə getdi. - Yaxşı, sözlərimin doğruluğunu sübut edəcəyəm! Mən ən böyük bayquşam. Bütün bayquşlara adi quşlar kimi yaşamağı əmr edəcəyəm! Onsuz da 189-dan artıq olan növlərimizin hamısı gecə həyatı keçirmir.

Bayquşlar adi quşlar kimi yaşamağa başladılar. Onların diskvari tüklü sifətləri və alınlarındakı iri gözləri insanları qorxutdu. İnsanlar bədbəxtlik baş verəcəyindən ehtiyat edib həyətlərə duz-çörək qoydular. Bədbəxtliyi özlərindən uzaqlaşdırmaq istədilər.

Bayquşlar çətinliklə adi həyata alışdılar. Onlar gündüzlər quşlar kimi görmə qabiliyyətinə malik idilər. Gecələr isə göyərçindən 100 dəfə artıq görürdülər. Gecələr ov etmədiklərindən qidaları xeyli azaldı. Yem azlığı onların nəsil verməsinə təsir etdi.

Bayquşların sayı azaldıqca xarabalıqların sayı artdı. Yer kürəsini bürüyən çəkişmələr, müharibələr və təbii fəlakətlər ölkələri xarabalığa çevirdi. Xarabalıqlarda yaşayan gəmiricilərin sayı artdı. Onlar zəmilərə, tarlalara, əkin sahələrinə və ümumiyyətlə, yaşıllıqlara ziyan vurdular. Təbiət məhv olmaq təhlükəsi ilə üzləşdi. İnsanlar aclıq və xəstəlikdən əziyyət çəkdilər.

Vəziyyətin gərginləşdiyini görən göyərçin ağacda rastlaşdığı bayquşu axtardı. Onu dəniz kənarında tapdı. Yaxınlaşmağa cəsarət etmədi.

- Qorxma, yaxın gəl!

- Elə bildim məni görmədiniz. Dənizə baxırdınız...

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Başım 360 dərəcəlik bucaq altında dönür. Səni uzaqdan görmüşdüm. Nə demək istəyirsən?

- O vaxtkı sözlərimə görə peşmanam. Siz bayquşların bəyliyini o vaxt başa düşmədim.

- Təəssüf... Axı mən ekoloji tarazlığı qoruduğumuzu demişdim. Yaradan özü hər şeyi çox dəqiqliklə hesablayıb. Biz nəyisə dəyişdikdə təbii tarazlığı pozmuş oluruq.

- Nəticədə xarabalıqlar çoxalır. - Göyərçin əlavə etdi.

- Xarabalıqları əsasən adamlar yaradır!

- Bəs təbii fəlakətlər!

- O da adamların günahı ucbatından yaranır. Hərə dünyaya bir cür "bostan" əkmək istəyir.

Bu vaxt qeybdən səs gəldi.

- Ey yaradılmışlar, dünyaya "bostan" əkməyin! Dünya özü "bostan" əkən dünyadı!

Səs quşları vahiməyə saldı. Onlar qorxmuş halda səmaya qalxdılar. Göyərçin insanların yanına qayıtdı. Bayquş xarabalığa üz tutdu.

www.kitabxana.net – Milli Virtual Kitabxana

Xəyanət

Kənddə ətrafı daş hasara alınmış meyvə bağının içində iki mərtəbəli, yaraşıqlı ev vardı. Bu evdə böyük bir ailə yaşayırdı. Ailə üzvlərinin hamısı heyvanları sevirdi. Ona görə də, onların həyətində müxtəlif ev heyvanları və Pələg adında it vardı.

Balaca Murad tez-tez pələnglə yaxınlıqdakı meşəni gəzməyə gedirdi. O, həmişə meşədə müxtəlif heyvanlarla rastlaşırdı. İt yanında olduğu üçün heç nədən qorxmurdu. Bir meşə isə pişiyi ondan əl çəkmirdi. Pişik çox vaxt onu uzaqdan təqib edib hasarın yanına kimi gəlirdi. Ancaq, itin qorxusundan həyətə girə bilmirdi. Pişik bir gün cəsarətini toplayıb itə yaxınlaşdı.

- Necəsiniz, it qardaş!

İt çəp-çəp baxdı.

- Cəsarət etdiyim üçün bağışlayın. Sizinlə çoxdan danışmaq istəyirdim. - Özünü sındırmadı. - Bu gün fürsət düşdü.

- Nə danışacaqsan?

Pişik cəsarətləndi.

- Dost olmağı təklif edirəm. Onsuz da hamımız bir evdə-planetdə yaşayırıq. Ömrümüzü birgə keçirsək, olmazmı?

Qoca it fikfə getdi.

- Həyat belə qurulub. Qurdla quyun bir yerdə otlamır. İtlə pişik dost olmur.

www.kitabxana.net – Milli Virtual Kitabxana

- Quyun qurda yemdir. Qurd həmişə onu necə yeyəcəyini fikirləşir. Biz ki, bir-birimizi yemirik!

- Məsələ yeməkdə deyil. Torpaq da üstündəki hər şeyi yeyir. Ancaq, torpaq olmasa həyat olmaz.

Pişik ürəklənib əsl mətləbə keçdi.

- Buralar xoşuma gəlir. İcazə versəydiniz mən də yaşayardım.

İt sakitcə çevrilib getdi.

- Ev sahibi bilər.

Pişik qorxusuz həyətə girdi. Uşaqlara mehribanliq etdi. Ona çörək verib evə apardılar. O, evdə itdən də yaxşı şəraitdə yaşamağa başladı. Zaman keşdi. Köhnə adətləri yadına düşdü. Həyətdəki cücələrdən bir - ikisinə göz qoydu. Pələg uşaqlarla gəzməyə gedəndə cücələrdən birini tutub it damının arxasında yedi. Axşam ev sahibi cücəni axtaranda tükünü tapdı. İti günühkar bildi.

- Toyuq yeyən it bizə lazım deyil. - dedi. - İti azdırmaq lazımdır.

Baba qoymadı.

- Səbrin olsun, oğul! Pələg uzun illərdi qapımızdadır. Hələ heç vaxt toyuq yeməyib.

Pələng yersiz ittihamlardan və inamsızlıqdan inciyərək evdən getdi. Uşaqlar nə qədər axtarsalar da onu tapmadılar. Ev sahibi əlacsız qalıb yeni it gətirdi. Pişik işini bildi, çölə çıxmadı. Bir gün gecə fürsət tapıb hinə girdi. Cücələrdən birini tutub damın dalına çəkdi. Onu yemək istəyirdi ki, qarşısında Pələngi gördü.

Pişik:

- Sənə pislik etmək istəmirdim. - dedi. - İş belə alındı.

www.kitabxana.net – Milli Virtual Kitabxana

İt pişiyi pəncəsinin altına aldı.

- Bir-birimizi yeməsək də, yeməyimiz eynidir. Birimizin bu yeməyi halal, digərimiz haram qazanırıq. Sən mənim etibarımdan istifadə etdin. Yalniz mənə yox yaşadığın evə də xəyanət etdin.

Pələng onu boğub cücənin yanına qoydu.

Səhər açıldı. Həyətdəki cücə və pişik meyidlərini hamı gördü. Mənzərədən hər şey aydın idi. Murad ağlamsınıb babasını qucaqladı.

- Baba, Pələg heç vaxt gəlməyəcək!

Babası onun başını sığalladı.

- Bilmirəm, bala. O, sədaqətli olduğunu bir daha sübut etdi.

Pişiyi ölmüş bilib meşənin kənarına atdılar. O isə ölməmişdi. Bir müddət keşəndən sonra ayılıb həmişəlik meşədən yox oldu.

Pələng xəyanətkarı tapıb cəzasını verəndən sonra:

- Ən böyük xoşbəxtlik azadlıqdır! – deyib meşənin dərinliklərinə üz tutdu.

www.kitabxana.net – Milli Virtual Kitabxana

KİÇİK HEKAYƏLƏR

www.kitabxana.net – Milli Virtual Kitabxana

Vicdan

Maddiyyat sonunu duyub qazanmaq iddiasından əl çəkəcəyinə söz verdi. Var-dövlət dalınca qaçan nəfsini səslədi.

- Gəl özümüzçün yaşayaq. Mənimlə ol, sadə həyatdan, gözəllikdən zövq alaq.

Nəfs sahibinə etiraz gücünə malik olmadığından əmrə tabe oldu.

- Günahlarını yumaq istəyirsən?! – dedi. – Gec deyilmi!

- Yox. Tanrı böyükdü, bağışlayandı! – Maddiyyat rahat nəfəs aldı. Qara fikirləri qovdu. Nərs bu dəfə işıqlı qəlbə tərəf getdi.

- Bəs var-dövlətim kimə qalacaq! – düşüncəsi xoş duyğularını alt-üst etdi.

Nəfs:

- Qaranliq qəlbində boğuluram. – söylədi. – Ətrafına nəzər yetir, nəsə istə. Buradan qurtulmalıyam!

- Sus... Dünyam qaraldı.

Bu vaxt susmuş vicdanı səsləndi.

- Təşvişə düşməyin. Siz əvvəlcədən kor idiniz. Var-dövlət gözünüzü bağlamışdı. Şükür edin ki hələ məni eşidirsiniz!

www.kitabxana.net – Milli Virtual Kitabxana

Uzaqgörən

Dərsimizin mövzusu veb-sayt yaratmaq idi. İşə başlamazdan əvvəl şagirdlərin internetə münasibətini öyrənmək istədim. Fikirlər müxtəlif oldu. Mubahisə düşdü. Gördüm ki internet əleyhdarları ondan xəbərsizlər və əyləncə axtaranlardır. Sinfin 80%-90%-ni təşkil edirdilər. Maraqlarını soruşdum. Teleseriallar və şou proqramlar haqqında danışdılar.

- Maraqlarınız daha çox zərərlidir! – dedim. -Yeniyetmə olduqlarından dərinə getmədim. Lakin, onlar "müəllim"lərindən tam dərs almışdılar, nə demək istədiyimi başa düşüb gülüşdülər. – Siz ki internetden xəbərsizsiniz! Zərərli olduqunu haradan bilirsiniz?

Virtual kitabxanalardan və onların oxu zalından istifadə edən şagirdlərimdən biri:

- Bizimkilər uzaqgörən deyillər, uzaqdakını göründilər! – dedi.

Söz məni tutdu. Müdrik uzaqgörən yox, uzağı görən yox, naməlumu görən...

www.kitabxana.net – Milli Virtual Kitabxana

Həqiqət

Sarayda bayram idi. Şənlikdə əyyamdan nökərədək hər bir kəs iştirak edirdi. Şah oxuyub-oynayanlardan ləzzət alaraq qarşısında beşqat əyilmiş "nökər"lərinin bayram sovqatından daddı. Gecə halı dəyişdi. Məmləkətin təbibləri xəstəyə əlac edə bilmədilər. Şahın son nəfəsində aqil bir qoca peyda oldu.

- Şahım, cismini sağaldacağam. Lakin, ruhun yenə xəstə olacaq. – dedi.

- Kömək et qoca! Səni dünya malından xali edərəm!

- Dünya malını neyləyirəm! – Gülümsədi. Nuru sarayı işıqlandırdı. – Sənə həqiqəti göstərəcəyəm. Düzgün qərar versən sağalacaqsan. Sabah öldüyünü bəyan et! – Qoca yox oldu. Şah əzgin halda ölüm yatağından qalxdı.

Səhəri carçılar şahın ölüm xəbərini yayaraq sarayda vida mərasimi keçiriləcəyini bəyan etdilər. Halallaşmağa yalnız sadə xalq gəldi...

www.kitabxana.net – Milli Virtual Kitabxana

Damla

Ruh sahibindən ayrılb

- Azadam! – deyə sevinclə qışqırdı. Lakin ətrafdan əks-sədadan başqa səs eşitmədi. O yumrulanıb işıq damlası oldu. Yer kürəsini dolanaraq sərbəst yaşayacağı bir məkan axtardı. Hər dövrün sonunda eyni yerə gəldi. Göylərə uçmaqla yüksələcəyini fikirləşdi. Səmaya qalxdı. Sonsuzluğa doğru irəlilədikcə onu ucalda biləcək yeganə varlığın İNSAN olduğunu anladı.

www.kitabxana.net – Milli Virtual Kitabxana

Oyun

Ara qızışmışdı. Hamı - bacaran da, bacarmayan da rəqs edirdi. Bənzər musiqilər altında dəyişməz rəqsləri gördükcə mənə elə gəldi ki, burada hərə özünü oynayır.

Papağı gözünü örtmüş bir körpə də ağzında əmzik oynayanlara qoşuldu. Dünyadan xəbərsiz idi. Təmiz, saf qəlbi rəqsində əks olunurdu. Az keçməmiş böyüklərin ayağına dolaşıb yıxıldı.

- Əzilmədinki, balaca! Əlini ver kömək edək. – deyənlərdən iməkləyərək qaçdı.

- Yox..x..x.. – söyləyib uzanan əlləri geri qaytardı. – Qorxu..u..u...

Dili soz tutmayan körpənin böyüklərin qorxulu ola biləcəyini hiss etməsindən çox qaçıb qurtarmaq istəməsi cəhti diqqətimi çəkdi. Sonra kənarda dayanıb əmziyini axtardı. Tapmadı. Nəmli gözlərini ovxalayıb köksünü ötürdü. Halı dəyişmişdi. O, hıçqıra-hıçqıra anasının uzatdığı konfeti alsa da qorxudan titrəyirdi.

Körpəyə baxaraq fikirləşdim.

- Görəsən, nə vaxtsa bu körpə özünü oynayanda heç kimi tapdalamayacaq ki!

www.kitabxana.net – Milli Virtual Kitabxana

İz

Yazın son günləri uzanır, sanki, zamanda sürünürdü. Fikirləşirdim, yəqin Təbiət gözəlliyini təslim etmək istəmir. Vaxtı dəyərləndirib yoldaşlarla gəzintiyə çıxmağı planlaşdırdıq. Birlikdə təbiəti seyrə çıxdıq. Yol boyu yaşlı müəllimlərimizin xatirələrini dinlədik. Onlar dünyasını dəyişmiş yoldaşlarını xatırlayıb, keçən günlərdən ürək dolusu danışdılar. Yaşlı bir müəllimimizin gözəlliyindən bəhs etdilər. Lakin təsvirdə yaraşıqlı insan obrazı yox idi – balacaboy, qarayağız, arıq...

Nə qədər ciddi görünməyə çalışsaq da alınmadı. Gülüşduk.

Kolektivdə hörmət qazanmış diğər yaşlı müəllimimiz hirsləndi.

- Gozəlliyinizə qürrələnməyin. Tez solar...

Kiçik əhvalat söylədi.

“Deyirlər, şah arvadının eybi olur və o, bunu hamıdan gizlətməyə çalışır. Sözbaz saray qadınları isə onu güdüb keçəlliyini öyrənirlər.

Xanım işdən halı olanda:

- Başıma yox, baxtıma baxın! – deyir.”

Müəlliməmizin əhvalatı hamımızı susdurdu.

- Mən də gözəl olmamışam, çətin həyat yaşamışam.- söylədi. - Siz bizim üzümüzə yox, izimizə baxın!

www.kitabxana.net – Milli Virtual Kitabxana

Xəyal və Real

Real bir gün ekiz qardaşı Xəyala hirsləndi.

- Nə qədər xəyallar aləmində yaşayacaqsan!

Xəyal ətrafına nəzər salıb səmaya qalxdı.

- Öz dünyam gözəldir! Təmizdir, safdır!

- Sən dünyanı xəyallarında yaratmısan. O mövcud deyil. – Real qardaşının arxasınca səsləndi. – Ekizik, ruhumuzu paylaşırıq. Məni ata bilməzsən.

Qardaş sevgisi Xəyalı geriyə-Yerə qaytardı. Lakin sərt həyat onu tez məhv etdi. Real Xəyalı xəyal edib yaşadı. Xəyallarsa onu özündən alıb səmaya, qardaşının dünyasına apardı. Ondan sonra Real və Xəyal bir cisimdə doğuldu.

www.kitabxana.net – Milli Virtual Kitabxana

Müftə

Oğul şəhərdən qayıdarkən iki mobil telefon aldı. Birini atasına verib zeng qebul etməyi öyrətdi.

- Ata, texnologiya sürətlə inkişaf edir. Bilməməyimiz ayıbdır. Lazim olsa zəngləşərik.

- Oğul, dağda bunu neyləyəcəyəm? Biz ki telefonsuz bir-birimizi eşidirik.

- Universitetdə oxuyuram. Yanıma gəlib gedirsən. Ayıbdır...

Ata oğlun sözünü yerə salmadı. Onlar dağlara ot yığmağa getdilər. Günorta oğul telefonuna əl atdı ki konturu qurtarıb. Səsləndi:

- Ata..a..a, ay ata..a..a.. konturum qurtardı. Mənə zəng et!

Ata çaşbaş halda qonşu dağdan cavab verdi.

- A bala, necə zəng edim? Mən qəbul edə bilirəm...

Oğul qışqıraraq başa salmağa çalışdı. Alınmadı.

- O zibili niyə kontursuz saxlayırsan! - Ata hirsləndi.

- Pulum olmadı.

-Pulun yoxdu müftədən istifadə et. Bala, bizlərdə telefon pulsuzdur. Allah versin səsimizə və qayalara!

www.kitabxana.net – Milli Virtual Kitabxana

Həyat

Tanrı insanı saf yaratdı. Həyat onu bərkə-boşa saldı, sınağa çəkdi. O bütün varlıqlar kimi yanaraq yaşadı. İllər əsən küləklərə qarışıb uçdu. İki dünyanı birləşdirən insan sonda ruhən səmaya, cismən torpağa sığındı.

www.kitabxana.net – Milli Virtual Kitabxana

Görüş

İnsan zamanla dəyış, cəmiyyətdə korlanır sözləri heç vaxt mənə çatmırdı. Ətraf aləm mənəviyyata təsir edə bilməz deyirdim. Bu gün doğru fikirdə olduğuma bir daha əmin oldum. Tələbəlik illərindən gözəl insan kimi tanıdığım müəllimimlə görüşdüm. O, ömrü boyu müxtəlif vəzifələrdə işləməsinə baxmayaraq dəyişməmişdi. Simasından nur yağırdı.

www.kitabxana.net – Milli Virtual Kitabxana

Maddiyyat

Maddiyyat özünə mənəvi sığınacaq axtarırdı. O, varlı qız olub kasıb ziyalı gəncin ömür yoluna çıxdı. Gəns var-dövlətə uyub qıza elçi düşdü. Lakin ona yaxınlaşdıqca ruhunun ağırlaşdığını, həyat eşqinin söndüyünü hiss etdi. İrəliləyərək Allahdan geriyə dönmək üçün güc dilədi!

www.kitabxana.net – Milli Virtual Kitabxana

Qadağa

Yeni kitabımdan bir neçəsini məktəbimizə bağışladım. Müəllim yoldaşlarım uğurlarıma sevindiklərini bildirib təbrik etdilər.

Birisi yarızarafat-yarıciddi:

- Kitab buna deyərlər də! – söylədi. – Riyaziyyatla başlayıb Leyli- Məcnunla qurtarır.

- Doğrudur! – dedim. – Riyaziyyatla başlayır, hekayələrlə bitir. Amma hekayələrdə sevgi-məhəbbət yoxdu. Onu ayrıca yazıram. Ədəbiyyatda…

Dilçi müəllimə:

- Ədəbiyyat da riyaziyyatdı. – söylədi. – Məgər sevgi toplama, eşq vurma, ayrılıq çıxma, nifrət bölmə deyilmi?

Təəccübdən donub qaldım. Bu mənim uzun müddət ədəbiyyatda axtardığım riyazi asılılıq idi. İdeyaya əsasən qeyri-adi əsərlər yazmağın mümkünlüyünü fikirləşərək "Ya riyaziyyatdan, ya da ədəbiyyatdan yaz. Elmləri qarışdırma!" qadağasını unutdum.

www.kitabxana.net – Milli Virtual Kitabxana

İnsan

- Salam müəllim! Sizi bir dəqiqə olar!
- Olar!

Məzunlar idi.

- Müəllimlərimizlə halallaşırıq. Zəhmətinizi bizə halal edin.
- Halal olsun! Allah köməyiniz olsun!

Bir dəcəl şagirdim:

- İnsanlara heç etibat yoxdu? - dedi.
- İnsanlara var...

www.kitabxana.net – Milli Virtual Kitabxana

Paltaryuyan

Qadın qazanca gedən ərindən soruşur.

- Əzizim, işlərin necə gedir?

- Yaxşıdır. Amma paltarlarımı yuyan yoxdu.

- Paltaryuyanı burada qoymusan. Pul göndər gəlim.

Kişi özünü bilməməzliyə vurub xanımının sözünü kəsir.

- Əzizim, narahat olma! Mən burada paltaryuyan alacağam.

Qadın isə az qala qışqıraraq:

- Qadınlar paltaryuyan deyillər! – söyləyir.

www.kitabxana.net – Milli Virtual Kitabxana

Səs

Hər gün səhər tezdən quşların nəğməsinə oyanıb xoş xəyallara dalırdım. Bu gün isə gecəyarı küçüyün zingiltisinə ayılıb yağışın qəmli nəğməsini dinlədim və nədənsə mənə elə gəldi ki, göylər ağlayır.

Səslər axşamdan ağırlaşmış qəlbimi qaraltdı, fikirlərimi dolaşdırdı. Vəzifəsinə görə özünü ixtiyar sahibi sanan məmuru xatırlayaraq:

- Ay yazıq... - dedim.

Yağış yağarkən Təbiətin qoxuduğu nəmli ətri çox sevirdim. Pəncərəni açdım. Lakin, otağıma qoxu əvəzinə gecənin vahiməsi doldu. Vəhimədən və küçüyün zülm-zülüm ulamasından səhərəcən yata bilmədim.

Səhər dərsə getdim. Bir neçə saatdan sonra zəlzələ oldu. Hamı qorxa-qorxa yeni təkanların daha güclü ola biləcəyindən, elmin təbii fəlakətlər qarşısında gücsüz olduğundan danışırdı.

Gecənin təəssuratından ayrılmadığımdan:

- Gecə Yaradan özü Təbiəti agah etmişdi. – dedim.

Qeybdən səs gəldi.

- Ey İNSANlar Allah sizi sevərək ən kamil varlıq kimi xəlq edib. Onu duymaq və anlamaq üçün qəlbinizi qoruyun, Təbəti sevin!

www.kitabxana.net – Milli Virtual Kitabxana

Dünya evi

Pişik balası saymazyana sinfə girdi. Titrəyə-titrəyə sobanın yanında dayandı. Sanki, qovulacağını gözləyirdi. Uşaqlar yerbəyerdən səs saldılar. Hirsləndim. Səsə Sahil müəllim gəldi.

- Müəllimə, məktəbdə 500 nəfərik. Bir pişiyi yola verə bilmirik. Gah qovur, gah vururuq. Bu insanlıqdandır! – Yarıciddi, yarıyarafat – "Qəzetəndə" yazarsan – söylədi.

- Maraqlı fikirdi... – dedim. – Dünya evində heyvanlarla birgə yaşayırıq. Onlar bizi yola verirsə, biz niyə onları yola verməməliyik!

www.kitabxana.net – Milli Virtual Kitabxana

Sirr

Əhməd savadlı, sayılıb-seçilən, sözükeçən kişi idi. Amma nə sirr salaya, nə də "siyasət"lə danışa bilirdi. Səhvlərinin xoşagəlməz nəticələri ilə qarşılaşdıqda isə:

- Dünənki uşaq-muşad mənə ağıl öyrədənməz! – deyib heç kimə danışmağa imkan vermirdi.

Bir gün 12 yaşlı nəvə:

- Nənə, yaxşı ki babam facebookda yoxdu. – dedi. – Olsaydı sirlərimizi dünya bilərdi.

www.kitabxana.net – Milli Virtual Kitabxana

Tapşırıq

Növbətçi idim. Testləri də yoxlamalıydım. Məktəbin həyətini nəzərdən keçirib işlədim.

Direktorumuz:

- Növbətçi olduğunuzu unutmayın! - dedi.

- Yaxşı.

Getdi. Testləri yekunlaşdırdıqda dərslər qurtatmışdı.

- Növbətçilik etmədiz. - Yenə direktorumuz idi.

- Vaxtım olmadı. Məncə sakitlik idi.

- Düzdü. Mənə maraqlı gəldi nə əcəb...

Uşaqlarla söhbətimi xatırladım.

- Nəzarəti dəcəllərə tapşırmışdım.

www.kitabxana.net – Milli Virtual Kitabxana

Daş

Müharibə illərində əri cəbhədə olan bir ana bişirməyə heç nə tapmır. Ac uşaqlarının başını qatmaq üçün daş qaynadır. Yemək istəyənlərə bir az da gözləyin bişəcək deyir. Daş bişmir, amma ümid uşaqları yaşadır.

www.kitabxana.net – Milli Virtual Kitabxana

Ruh

Ruh eybəcərləşməkdə olan cismindən uzaqlaşıb:

- Dünyada korlanmadan ayrılmalıyıq! – dedi. – Vaxtdır, artıq birimiz torpağa, diğərimiz Təbiətin ruhuna çevrilməliyik.

Ağıl ömür yoluna nəzər salıb gələcək üçün xəyallar qurdu.

- Tələsməyin hələ vaxta var!

Urək:

- Yaşamaq eşqi ilə alovlanıram. – söylədi. – Məni həyatdan məhrum etməyin!

Ruh ürəyə hirslənib cismi silkələdi.

- Sus...Hamımız sənin əzabını çəkirik...

Ürək qan ağlayıb balacalaşdı.

- Neyləyim? Həyatdan ilk zərbəni mən alıram. Elastik deyiləm, əzilirəm. Sınıram, parçalanıram...

Ağıl ürəkdən irəli keçib:

- Dünyanı əyri görüb düz olmalı, çirkin görüb gözəlləşməliyik. – söylədi.

Ürək sevindi, cisim tərəvətləndi. Ruh nurlanaraq əbədiyyət qazandı.

www.kitabxana.net – Milli Virtual Kitabxana

Yoldaş

Uşaqlıqdan yazaraq xəyallar qurur, fikirlərimi, düşüncələrimi dəftər və qələmlə bölüşürdüm. Lakin, gün gəldi o qələm sındı, yazılarım alovlanıb qaranlıqdakı arzularımı işıqlandırmağa çalışsa da illər keçdikcə onların xatirələrimdəki izi də silindi. İndikilərinsə mənim olduğuna bəzən inanmır, hamıya qarşı gedib işlərimə davam etməyimə şübhə edirəm. Axı bu mən olsaydım çoxdan sınmışdım. İllər əvvəl olduğu kimi. Amma bu mən və MƏNəm!

www.kitabxana.net – Milli Virtual Kitabxana

Nəfs

Nəfs adəm övladını ovsunladıqdan sonra düşüncəsinə hakim kəsildi. Ağlını aldı, onu məhv etməyə çalışdı. Sevgi nəfsin özbaşnalığına dözməyib mübarizəyə başladı.

Nəfs əməllərindən razı halda:

- Adamlar var-dövlətə, şan-şöhrətə meylli, pula hərisdilər! - dedi. - Məni məğlub edə bilməyəcəksən.

Allah bəndəsinə xoş hislər bəxş etdi. Sevgi könülləri öxşadıqca qara qüvvələr insan ruhundan çıxdı.

- Sən artıq mən sevgiyə məğlubsan!

- Hələ bilmək olmaz...

Beləliklə, sevgi iə nəfs arasında sonu görünməyən mübarizə başladı. Hansı qəlbdə ki sevgiyə yer oldu, o, nəfsə qalib gəldi.

www.kitabxana.net – Milli Virtual Kitabxana

Kin

Kəndçi həyətində müxtəlif növ ev heyvanları saxlayırdı. Heyvanlar mehriban yaşayırdılar. Bir gün ördək hinduşkanın da yemini yedi. Həmin vaxtdan kinli heyvanlar arasında qanlı münaqişə başladı. Axırda hinduşka ördəyin gözünü çıxartdı. Ördək qanı axa-axa gücünü toplayıb onu boğdu.

Kəndçi:

- Bağışlamaq böyüklükdü! Kinin axırı faciədir! – deyərək heyvanların ölüsünü meşəyə atdı. Onlar qurd-quşa yem oldular

www.kitabxana.net – Milli Virtual Kitabxana

Pul

Ata ilə oğul çayın mənsəbində gəzirdi. Oğul çayın kənarında parıldayan bir daş gördü. Götürdü.

- Oğul, o briliyant daşdı. Çaya at! Suda saf görünməyinə baxma, adamlara bədbəxtlik gətirir. Qızıl miras maldı.Yiyəsinə qismət deyil!

- Ata, nə danışırsan! Güzaranımız düzələcək. - Oğul atasına qulaq asmayıb daşı götürdü.

Var-dövlət ailəyə xoşbəxtlikdən çox bədbəxtlik gətirdi. Ailə üzvləri arasında haqq-nahaq söz-söhbət, narazılıq yarandı. Oğul içkiyə, qumara qurşandı. Bir gün bütün pulunu uduzdu. Onu sürüyüb çayın kənarına atdılar. Daşların üstündə xeyli yatdı. Ayıldıqda cibindəki sonuncu qəpiyi suya atdı. Həyatını dağıtmış parıldayan daşa da, pula da lənət oxudu!

www.kitabxana.net – Milli Virtual Kitabxana

Vəzifə

Kobudluğu savadsızlığından da üstün olan direktor yoldaşları ilə yola gedə bilmirdi. Özünü yüksək tutub kəndçilərə yuxarıdan aşağı baxırdı. Bir gün şəhərli olmaq arzusuna düşdü. Mal-qarasını dəyər-dəyməzinə satıb şəhərə üz tutdu. "Dostlarını" görüb məktəb direktoru keçdi. Elə ilk gün kollektivi tanımaq məqsədilə iclas çağırdı. Xəbərsiz muəllimlər gəlməmişdilər. Hirsləndi. Özünü göstərmək istədi.

- Məktəbinizdə 150 baş muəllim var. İclasda heç 50 baş yoxdu. Yoxsa, siz də toyuq kimi günaşırı...

Heyvana bənzətmədən hirslənən müəllimlər yerbəyerdən dilləndilər. Dikertor yad kollektivdən ehtiyat etdi. Məktəbdən çıxdı.

- Nahaq yerə papağımı günə yandırdım. Ariflər düz deyirlərmış çox oxuyub müəllim olmaqdansa, az oxuyub kolxoz sədri olmaq yaxşıymış. – Yadına düşdü ki quruluş dəyişirilib. Təəssüflə başını yellədi. – Axı mən də yaşamalıyam! Sağamsa muasir "kolxozda" yer tapmalıyam!

www.kitabxana.net – Milli Virtual Kitabxana

Ağa

Babam deyirdi: SSRİ-nin elektrikləşdirməsi ilə əlaqədar proqramı yerinə yetirilirdi. Hər yerə - kəndimizə də işıq çəkildi. Bir gün eşitdik ki Məhəmməd dayı işıqları doğrayıb. Xəbər hər tərəfə yayıldı. Rayon işə qarışdı. Kişini sorğu – suala tutdular. O isə cavab verməzdən əvvəl çırağı yandırıb ortalığa qoydu.

- Ay kişi sən dövlət siyasətinin əleyhinə gedirsən. Xəbərin varmı? – dedilər.

- Bala, mən kəndçi adamam. Siyasət yad bilmirəm. – Çırağı göstərdi. – Mənim evimin işığı odu. Yandırıb gətirdim. İstədiyim vaxt söndürəcəyəm. Daha sizin işıq kimi sönməyəcək. – Hirsləndi. – Əyə siz kimsiniz ki mənim evimin işığını istədiyiniz vaxt yandırıb – söndürürsünüz.

www.kitabxana.net – Milli Virtual Kitabxana

Tərxun

- İndi isə hörmətli Tərxun qardaşımızın təbriklərini dinləyək!

Ad mənə qeyri-adi gəldi. Özüm də bilmədən:

- Bu necə addır? – deyərək orta yaşlı kişini-Tərxunu utandırdım.

Tanışlardan biri yarızarafat-yarıciddi:

- Nurlan kimi... – dedi.

- Nur işıq deməkdir. Qadın işıq ola bilməz!

Nəzərlərdən sıxılsam da bir anda parlayaraq min cür rəngə çalan günəşin od ruhu qəlbimi xoş duyğularla doldurdu. Ətrafimdakı bütün varlıqların işıq ruhunu gördüm-parlaq və ya sönük. Qəribəsi isə süfrəni bəzəyən tərxunların ruhu idi. Onlar işıq damlasına çevrilərək Tərxunun ruhuna yağırdılar.

Günəş varlıqları oxşayıb:

- Adımız talehimizdir! – dedi.

www.kitabxana.net – Milli Virtual Kitabxana

KİTABIN İÇİNDƏKİLƏR

REDAKTORDAN.....

FANTASTİK ROMAN.....

Ağ yol.....

FANTASTİK POVEST

Fateh

HEKAYƏLƏR

Hədiyyə
Xeyriyyəçi
Qorxu
Kar
Arxa
İnsan
Azad
Nəğməkar
Imtahan
Həyat
Təsadüf
Ərşad Məmmədov
Daxilimdəki mən
Görüş
Qorxu

www.kitabxana.net – Milli Virtual Kitabxana

Zərərsiz
Tər çiçəklər
Həqiqət
Ala-dəymiş
Münasibət
Qələm
Təfəkkür dünyası
Qanun
Çoxüzlü

RİYAZİ HEKAYƏLƏR

Ala-dəymiş
Münasibət
Qələm
Təfəkkür dünyası
Qanun
Çoxüzlü
Həqiqət
Arzu

MƏNZUM TƏMSİLLƏR

Qanmaz
Bəy Quş
Xəyanət

www.kitabxana.net – Milli Virtual Kitabxana

KİÇİK HEKAYƏLƏR

Vicdan
Uzaqgörən
Həqiqət
Damla
Oyun
İz
Xəyal və Real
Müftə
Həyat
Görüş
Maddiyyat
Qadağa
İnsan
Paltaryuyan
Səs
Dünya evi
Sirr
Tapşırıq
Daş
Ruh
Yoldaş
Nəfs
Kin
Pul
Vəzifə
Ağa
Tərxun

www.kitabxana.net – Milli Virtual Kitabxana